mədəniyyətin formalaşmasında iştirakına nisbətdə, siyasi dəyərlərin ortaya çıxmasında və tənzimlənməsində daha çox söz sahibdir. Nəticə etibarilə mədəniyyət sahəsindəki dəyişikliklər daha az sürətlə , siyasi dəyərlərdəki dəyişikliklər isə daha qısa müddətdə baş verir. Həmçinin siyasi dəyərlər mədəniyyətlə müqayisədə dəyişkən bir quruluşa sahibdir.

Qeyd etmək lazımdır ki, siyasi dəyərlərin yaranmasında daxili siyasi inkişafın bəhrəsi olsa da, onun təsiri və nəticələri ancaq ölkənin daxili ilə məhdudlaşmır. Müasir dövrün tələbinə uyğun olaraq yeni ünsiyyət formaları yaranır və ya təkmilləşir. Yeni ünsiyyət formaları ilə daxili qərarlar bütün dünyaya çatdırılır və cəlbediciliyi ilə yumşaq gücün təsirinə müsbət təsir gösdərir (Abbasbəyli, 2007: 127). Bəyənilməyən yerli qərarlar beynəlxalq səviyyədə yumşaq gücün təsir imkanlarını zəiflətmək ehtimalı da nəzərə alınmalıdır.

Dövlətin siyasi dəyərlərinin yumşaq gücə çevrilməsi üçün digərlərini cəlbetmək təsiri yüksək olmalıdır. Ancaq bəzi ölkələrdə cəlbedicilik yaradan dəyərlərin bir hissəsi digər ölkələr üçün mənfi təsir kimi qiymətləndirilir. Məsələn, 2002 ci ildə həyata keçirilən bir araşdırmada eyni dəyərlərin müxtəlif ölkələrdə fərqli reaksiyalara səbəb olduğu açıq şəkildə gösdərilir. Həmin araşdırmanın nəticəsinə görə, Afrikalıların üçdə ikisi Amerikanın demokratiyaya dair fikirlərinə müsbət rəy verdikdə, bu nisbət müsəlman ölkələrində isə üçdə birinə düşür (9).

J.Nay yumşaq gücün mənbələri içərisində daha çox mədəniyyətə, mədəni dəyərlərə üstünlük vermişdir. O, mədəniyyəti cəmiyyət üçün məna ifadə edən dəyərlər və təcrübələrin məcmusu kimi ifadə etmişdir. Bu dəyərlər müəyyən qruplar tərəfindən yayılan ictimai davranış formasıdır. Müəllif mədəniyyət anlayışını 2 qola ayırmışdır: 1) yüksək mədəniyyət adlandırdığı birinci qol − incəsənət, ədəbiyat, təhsil daxildirsə; 2) ümumiyyətlə əyləncəyə əsaslanan populyar mədəniyyətdən ibarətdir. Dünyada hər cəmiyyətə məxsus müxtəlif mədəniyyət, mədəni dəyərlər mövcuddur, bu dəyərlərin yumşaq gücün mənbəyi rolunda çıxış etməsi üçün əlbəttə ki, cəzbedicilik təsiri yüksək olmalıdır.

Yüksək mədəniyyətin ünsürləri olan təhsil, sənət, ədəbiyyat fəaliyyətlərinin hədəf auditoriyası elitalardan ibarətdir. Bu ünsürlər sərhədləri aşaraq yüksək mədəniyyətin yumşaq gücə çevrilməsində rol oynayır, ən vaciblərindən biri də təhsildir. Bu göstəricilərin əhəmiyyətini dərk edən ABŞ yüksək mədəniyyəti ən yaxşı qiymətləndirən ölkələrdən biridir. Amerikanın təhsil sisteminin cazibəsi dünya miqyasında daha yüksəkdir (10). Eyni zamanda təhsil sistemi Amerika mədəniyyətinin dünyaya yayılma yollarından birini göstərir. Təhsil fəaliyyətinə başqa ölkələrdə öz dillərini və mədəniyyətlərini təbliğ edən mədəniyyət qurumları daxildir.

Qeyd olunan bütün mənbələrin yumşaq güc yaratmaq bacarığı, hər şeydən əvvəl qarşı tərəfə etimad yaradıcı münasibət tələb edir. Etibar hissi yarada bilməyən və səmimi olmayan siyasətlərlə nəticə əldə etmək mümkün deyil. Bunun üçün yerli və xarici siyasət arasında uyğunlaşma və ardıcıllıq tələb olunur. İki siyasət arasındakı hər hansısa fərq yumşaq gücün reallaşmasına mənfi təsir gösdərəcəkdir.

Ümumiyyətlə, bir ölkənin yumşaq gücündən danışmaq üçün qeyd olunan üç əsas mənbəyi birləşdirmək, bir-birinə bağlı sürətdə təhlil etmək vacib deyildir. Məsələn, Norveçin özünəməxsus mədəniyyəti və siyasi dəyərləri olmasına baxmayaraq, xarici siyasətdə vasitəçilik, xarici yardım və sülhməramlı qüvvələrdə iştirak etmək siyasəti ilə yumşaq güc baxımından vacib bir ölkəyə çevrilmişdir (11). Bu nümunə onu gösdərir ki, dövlətin az sayda mənbəsi olsa da, ondan səmərəli şəkildə istifadə etməklə uğurlu yumşaq güc siyasətinə nail ola bilər (12).

## Nəticə

Dünyada proseslərin yumşaq güc vasitəsilə daha rəvan gedəcəyi, problemlərin azalacağı, mümkün münaqişələrin isə hərb yolu ilə deyil, danışıqlar, kompromislər vasitəsilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll ediləcəyi gözlənilir. Hərbi güc artıq əsas təsir vasitəsi kimi ikinci plana keçirilir. Yeni reallıqlara uyğunlaşdırılır, daha incə, mürəkkəb və "mədəni" olub, humanitar məqamlarla əsaslandırılır, yəni "yumşaq gücə" çevrilir. Artıq insan amili önə çəkilir, ayrı-ayrı ölkələrə təzyiq etmək üçün demokratiya və insan hüquqlarından istifadə olunur. Müqayisə edildikdə yumşaq güc daha təhlükəlidir. Çünki sərt gücün proqnozlaşdırılması mümkündür və tədbirlər görülə bilər. Lakin yumşaq güc üçün aqressiyaya məruz qalanın diqqətsiz və həssas

olduğunu deyə bilərik. Bundan əlavə, sərt gücün nisbəti keyfiyyət və kəmiyyətcə tənzimləndiyi halda, yumşaq güc üçün bu mümkün deyil. Maliyyə baxımından qiymətləndirildikdə, döyüş xərcinin artdığını və bu xərcin düşündürücü rəqəmlərə çatdığını nəzərə alsaq, yumşaq gücün daha üstün olduğunu görmək mümükündür.

Bundan əlavə, təşkilatlar arasında koordinasiyanın təmin edilməsi və fərdlərin qəbul etdiyi ümumi anlayışın yaradılması uğurun ən əsas meyarlarındandır. Çünki bir neçə qurumun və ya bəzi insanların yaxşı olması yetərli deyil. Yumşaq gücün arzuolunan nəticəsi üçün bütünlüklə məlumatlı olmaq və məlumatı hərəkətə çevirmək əsas şərtdir. Cəmiyyətin ümumi inkişaf səviyyəsinə mütənasib olan bu məsələ elmə, insan haqlarına, sənayeyə və s. güclü təsir göstərir və bu sahələrdə yüksək bacarıq tələb edir.

Cosef Nyenin dediklərinə əsasən, Azərbaycanın yumşaq güc anlamında nələrə sahib olduğunu və onu nə qədər uğurla tətbiq etdiyini aydınlaşdıraq. Azərbaycan istər hökumət, istər toplum olaraq bu günə kimi etnik və dini fərqliliklərə tolerant münasibəti ilə seçilib. Dünyada antisemitizmin hökm sürmədiyi nadir ölkələrdən biri olmağımız bizim üstünlüyümüzdür. Bu, ölkənin və xalqın müsbət imiclərindən biridir. Daxilimizdəki etnik, dini və mədəni fərqliliyin dünyaya verdiyi mesaj budur: "biz hamını qəbul edə və onunla birgə sülh içində yaşaya bilirik".

## Ədəbiyyat

1. Abbasbəyli, AN. (2006). Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar. Bakı.
2. China's "soft power" - a theoretical aspect https://www.researchgate.net/publication/339953087_MAGKAA_SILA_KITAA_-_TEORETICESKIJ_ASPEKT
3. Həsənov, Ə. (2005). Müasir beynalxalq münasibətlər va Azərbaycanin xarici siyasəti (dərslik). Bakı, s.75.
4. Kərimova, T. (2008). Beynəlxalq münasibətlər və xarici siyasət. Dərs vəsaiti. Bakı, s.345.
5. Tolga, B. Soft Power vs. Sharp Power: The Chinese Example https://sbfdergi.ankara.edu.tr/dergi/tybook/50/10--Yumusak-Guc.pdf
6. Protopova, A.S. and others. (2008). "History of International Relations and Higher Policy of Russia" (1648-2005), textbook, Moscow, p.399.
7. Yataghan, G. (2018). The effects of hard power elements as soft power tools. Black War College Science Journal, December. Vol 28, No 2, p.69-94.
8. "Soft power": concept and approaches - https://cyberleninka.ru/article/n/myagkaya-sila-ponyatie-i-podhody
9. Abbasbəyli, A. (2007). Beynəlxalq münasibətlər nəzəriyyəsi (Dərslik). Bakı: Mütərcim, 208 s.2
10. İlyasov, R. "Uğurlu ictimai diplomatiya". http://www.anl.az/down/meqale/ses/2012/dekabr/281281.htm
11. Makpal, A. "Use of soft power in international relations and soft power tools of Russia" http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/56039.pdf
12. Sait, Y. Soft power and its evolution yrd. https://www.acarindex.com/dosyalar/makale/acarindex-1423931524.pdf

Göndərildi: 20.02.2023 Qəbul edildi: 29.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/18-23

**Sevda Novruzəliyeva**
Azərbaycan Tibb Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevda.novruzaliyeva@mail.ru

# KOMMUNİKATİV PROSESDƏ DİNLƏMƏNİN POZİTİVLİYİ

**Xülasə**

İnsan danışanda yox, dinləyəndə ucalır. Danışmağı hamı bacarır, dinləmək isə səbirli və pozitiv insanların işidir. Danışanı dinləmək – bacarıq, üstünlük, müdriklik tələb edir. Danışanı dinləmək – danışana dəyər vermək deməkdir.

Məqalənin giriş hissəsində məqalənin yazılma səbəbləri açıqlanır. Mətn hissəsində isə 18 sitatın işığında danışma prosesində dinləmənin önəminə aydınlıq gətirilir.

Məqalə müəllifi ümid edir ki, gənc alim və tədqiqatçılar öz elmi işlərində bu mövzuya geniş yer ayıracaqlar.

***Açar sözlər:*** *kommunikasiya, nitq, dinləmə, balans, pozitiv, filosof, yazar, internet saytları*

**Sevda Novruzaliyeva**
Azerbaijan Medical University
Ph.D. in Philology
sevda.novruzaliyeva@mail.ru

## Positivity of listening in the communicative process

**Abstract**

A person is exalted when he listens, not when he speaks. Everyone can speak, and listening is the work of patient and positive people. Listening to the speaker-requires skill, superiority, wisdom. Listening to the speaker-means valuing the speaker.

In the introductory part of the article, the reasons for writing the article are disclosed. İn the text part, in the light of 18 quotes, the importance of listening in the speech process is clarified.

The author of the article hopes that young scientists and researchers will devote a wide place to this topic in their scientific work.

***Keywords:*** *communication, speech, listening, balance, positive, philosopher, writer, internet sites*

*For two years a person leans to speak, and for the rest of his life he learns to be silent.*
*İnsan iki ilə danışmağı öyrənir, qalan ömrü isə susmağı öyrənir.*
***Aristotel***

## Giriş

Danışma-dinləmə prosesində danışmaq nə qədər önəmlisə, dinləmək də bir o qədər önəmlidir. Danışanın nitqində doğru və faydalı informasiya olsa da, ürək yanğısı, sevgi ilə söylənsə də, dinləyən onlara sayğı və sevgi ilə yanaşmasa, onlarda özünə gərək onları seçib ayırmasa, elə danışmanın və belə dinləmənin faydası olmaz. Demək, danışma-dinləmə fayda yetirmək baxımından bir-birinə bağlı prosesdir.

Faydalı danışma və dinləmə bacarığı olan fərdlər cəmiyyət içində həmişə aranan və güvənilən insanlardır. Onlar televiziya və internet kanallarına dəvət olunur, mediya qurumlarına müsahibələr verir, gündəmi zəbt edən problemlərə − siyasət, iqtisadiyyat, ailə-məişət, dindarlıq ilə bağlı məsələlərə şəxsi yanaşmanı ortaya qoyur, insanlarda maraq doğuran sorğuları cavablandırırlar. İki fərd arasında danışma-dinləmə kommunikasiyasından fərqli olaraq, mediya qurumlarında, özəlliklə,

bütün dünyanı çulğalayan internet resurslarında danışma-dinləmə kommunikasiyası təsvirə gəlməz bir önəmə sahibdir, çünki bu auditoriya sərhəd tanımır, maneə ilə qarşılaşmır, görüntülü olduğundan xəfif dil anlaşılmamazlığı yaşanır və üstəlik, görüntülənənlər və söylənənlər itmir, illər boyu dəyişməz olaraq saxlanılır.

Fərdlər arası ünsiyyətdə istər danışan, istər dinləyən bir insani məsuliyyətə yüklənirlər. Belə ki, danışan doğru, faydalı, yerində olan informasiya daşıyıcı olmalı, həm də informasiyanı qarşıdakının anlayıb qavraya bildiyi xoş bir ortamda ona çatdırmalıdır. Bu zaman dinləyən öz diqqətini ancaq danışana yönəltməli, onu maksimum olaraq anlamağa çalışmalı, danışandan onu yayındıra bilən hər nədən çəkinməlidir.

"Düşünmək-dinləmək-öyrənmək-danışmaq" yetkin insana xas bir işdir. Bu dördlüyün başında "düşüncə", sonunda "danışıq" durur. Demək, düşüncədən danışığa gedən yol dinləməkdən və öyrənməkdən keçir. Əgər yetkin insana 10 bal veririksə, onun dördü düşünmənin, üçü dinləmənin, ikisi öyrənmənin və yalnız biri danışmağın payına düşür. Belə insanın günlük danışması günlük yaşamının onda biri, günlük dinləməsi isə onda üçüdür. Göründüyü kimi, insanın dinləməsi danışmasından 3 qat çox olsun ki, elə dinləmənin və elə danışmanın həmin insana və çevrədəkilərinə faydası dəysin.

*Mətn.* Danışanın düşüncəsi, dediyi, anlatdığı yetkin olsa, düşüncə baxımından ona tay olan dinləyənin bu ünsiyyətdən alacağı mənəvi pay böyük olar. Odur ki, danışan birisi dinləmədən öncə deyəcəyini götür-qoy etməli, ziyan yetirən, nəzakəti pozan, sayğını zədələyən, güvəni aradan aparan sözləri səsləndirməməli, tam əksinə, fayda verən, ümid səpən, sevgi yaradan kəlmə və ifadələrə yer ayırmalıdır. Eramızdan öncə VI əsrdə qədim yunan filosofu Pifaqor danışmadan öncə düşünmənin önəminə diqqət çəkərək yazırdı ki, *"Danışmadan öncə fikrin yetkin olmasına vaxt ayır"* (Kant, 2020: 78).

Ağıllı insan çox düşünər, çox dinləyər, yerində dillənər, çox müşahidə edər (baxıb gözdən keçirər). Bu dördündən onun insan olaraq dəyər və çəkisi artmağa üz qoyar, güvənilən fərdə dönər, yaxşılar arasında ad-san qazanar, öyüd almaq üçün onun yanına gələrlər. Göründüyü kimi, düşüncə çoxluğu − dinləmə çoxluğuna, yerində dinləməyə, müşahidə bacarığının artmasına qovuşduran bir mənəvi körpüdür. Eramızdan öncə VI əsrdə qədim yunan filosofu Biant çox dinləmənin və yerində danışmanın pozitivliyini önə çəkərək, çox dinləmə ilə yerində danışmada hikmət yatdığını anlayaraq tövsiyə edirdi ki, "*Daha çox dinlə, yerində danış"* (Dürant, 2006: 243).

Danışma ilə dinləmə arasında balans çox vaxt saxlanılmır, danışmanın xeyrinə və dinləmənin ziyanına pozulur. Gözəl danışan çoxdur, amma gözəl dinləyən azdır. İnsan danışanda, öz fikrini ortaya qoyanda, dinib birinin tərəfini saxlayanda, birini öyəndə, birini suçlayanda, birinin ardınca onun pisinə danışanda – bunların heç birində dinləmə yoxdur, yalnız danışma var. İnsan dinləyəndə qarşıdakının dediklərini anlamaq üçün düşünür, düşünəndə beyin yeni-yeni informasiya alaraq öz qavrama potensialını (gücünü, bacarığını) artırmış olur. Demək, insan zehnini danışmaq itiləmir, əksinə, danışığa sərf olunan enerji itkisindən zehin kütləşir, qarşıya çıxan bir problemin dərin qatlarına gedə bilmir. Odur ki, çox danışanlardan yayınırlar. Bunun əksinə olaraq, insan dinləyəndə beynin enerji itkisi minuma enir. Qənaət olunan enerji ağlın, elmin, təfəkkürün, ədəbin, nəzakətin, sayğının – bir sözlə, rusca "dobrodetel", türkcə "ərdəm" adlı fəzilətlərin (mənəvi üstünlüklərin) payına qatılır. Göründüyü kimi, çox danışanın ağlı get-gedə azaldığı üçün ona olan sayğı azalır, çox dinləyənin ağlı, bacarığı, hünəri zaman-zaman artdığı üçün ona olan sayğı və sevgi də artır. İnsan söylədiyi fikrin, yürütdüyü mühakimənin dərin olmasını, müdrikliyə çatmasını, faydalara vəsilə olmasını istəyirsə, gərək çox düşünsün, çox dinləsin. İnsanı qalan bütün canlı varlıqlardan ayıranların başında çox düşünmə və çox dinləmə dayanır. İnsan danışanda yox – susanda, danışanda yox – düşünəndə, danışanda yox – dinləyəndə qurtuluşa çatır, uğura qovuşur, pozitiv anlamda irəliyə gedir, neqativ anlamda arxaya boylanmadan. Yunan filosofu Sokrat (e.ə.470-399) haqlı olaraq fikir söyləməni, informasiya almanı, anlamanı dinləmənin gərəkliyinə bağlayaraq deyir ki, *"Fikir söyləmək üçün bilmək, bilmək üçün anlamaq, anlamaq üçün dinləmək gərəkdir. Dinləməyən insanın fikir söyləməyə haqqı yoxdur"* (Abbasov, 2020: 83).

İnsan “göz, qulaq, dil, düşüncə” olmaqla dörd orqanla kommunikasiyaya girir. Deməek, bu dörd orqan insanı cəmiyyətə bağlayan, insanı kainatın əşrəfi (ən üstünü) edən kommunikativ orqanlardır. Yaradan baş nahiyyəsinə iki göz, iki qulaq, bir ağız qoymaqla insana sanki bunu deyir ki, sözünü iki göz və iki qulaq süzgəcindən keçirərək, ağız boşluğundan dışarı çıxart. Başqa sözlə (2+2+1) ədədlərinin toplanmasından alınan 5 ədədindən bunu anlayırıq ki, insan deyə biləcəyi 5 sözün dördünü deməsin, birini desin, yəni deyə biləcəyi sözlərin 80 faizini deməsin, 20 faizini desin. Gəldiyimiz bu qənaəti Sokrat təbiətə istinadən belə formalaşdırır, *“Təbiət bizə iki göz, iki qulaq və yalnız bir ağız ayırıb ki, biz deyib söyləməkdən çox baxaq və dinləyək”* (Sartre Jean-Paul, 2019).

Dünyaca tanınan antik və çağdaş filosoflar “danışma-dinləmə” ikiliyində dinləməni üstün tuturlar. Dinləmək – susmaq deyil, düşünərək susmaqdır, daha çox fayda vermək üçün susmaqdır, pozitiv mənada güvənilən şəxs olmaq üçün susmaqdır, kommunikasiyaya girərək sağlam mühit yaratmaq üçün susmaqdır. Dinləmək təkcə qarşıdakını dinləmək deyil, həm də gərək olan yerdə susmaqdır, bilmədiyini bilən kimi edən kəslərdən uzaq olmaqdır, üzdə bir – işdə ayrı olan adamlardan yayınmaqdır, qısası, gərəkli - xeyirsevər olanların sözlərini dinləməkdir, bu sözləri sintez edərək yararlı olanlarına yüklənməkdir. Sözün çox olanını qınayaraq, az olanını öyərək, dinləməyə önəm verərək yunan filosofu Platon (e.ə.428-348) təkcə bir sitatında bizə üç öyüd verir, *“Hər zaman danışmaqdan çox dinlə, gərək olan yerdə sus, bilmədiyini bilən kimi edəndən uzaq dur”* (Nəbiyeva, 2021: 165).

Təbiətdə olan hər varlığın ən gözəli olduğu kimi, sözün də ən gözəli var. Ən gözəl o söz deyil ki, qrammatik qanunlara tam uyğun olub, hansısa bir informasiyanı ötürür. Ən gözəl o sözdür ki, iki özəlliyi var – doğru olsun, dinləyən yararlansın. Doğru söz qurtuluşun, uğurun – pozitiv olan hər nəyin açarı olduğu üçün dünyanın hər yerində öyülür, onun uğruna yüzlərlə aforizm və atalar sözü söylənib. Yunan filosofu Aristotel (e.ə.384-322) tam yerində buyurur ki, *“Sözün ən gözəli – söyləyənin doğru olaraq söylədiyi, dinləyənin də yararlandığı sözdür”* (Aristotel, 1984: 313).

Həyatda hər prosesin yaranma, var olma, yox olma zamanı var. Doğan günəş batır ki, yenə doğsun. Bir fəsil bitir ki, yenə başlasın. Açan gül-çiçək solur ki, yenə açsın. Görünməyib eşidilən bir varlıq olan söz də belədir. Var olan bir söz bitir ki, yenə var olsun. Hər şey yerində (zamanında) olanda bəyənilən olduğu kimi, söz də öz yerində olanda, ona ayrılan zamanda söylənəndə dəyər tapır, sayğıya yüklənir, fayda gətirici olur, pozitiv proseslərə yol açır. Bununla yanaşı, söz yerini tapmayanda, zamanında səslənməyəndə onun dəyəri itir, sayğısı yoxalır, ziyan gətirici olur, neqativ işlərə ışıq salır. Susma və dinləmədən doğan söz bər-bəzək üçün cilalanan inci kimidir, şəfa verici olan saf bal kimidir, həyat verici olan təmiz su kimidir, torpaq üstündə olanları yaşadan günəş kimidir. İsrail-Yəhudi hökmdarı, peyğəmbər Süleyman (e.ə 928) göylərin altında baş verənlərə, yaşanan hər nəyin bir zamana bağlı olmasına, sözü demədən öncə susmaya diqqət çəkərək buyurur ki, *“Göylər altında hər nəyin bir saatı, zamanı var: doğulma zamanı və ölmə zamanı, dağıtma zamanı və qurma zamanı, daşları səpələmə zamanı və daşları üst-üstə düzmə zamanı, susma zamanı və danışma zamanı” (*Fromm, 2012: 103). Demək, yoxluqdan doğaraq görünən olan hər varlıq bir ara var olur, artıq yox.

Ağlı olan bir kimsə yaxşı insanların davranışından, sözündən, öyüdündən faydalana bildiyi kimi, pis insanların suçlarından, acı sözlərindən, sapdırıcı (düz yoldan çıxarıcı) rəylərindən fayda ala bilər. Demək, insanın ağlı (qaranlıq yolu aydınladan işığı) olanda pislərdən qorunmaqla onlardan yararlana bilər, ağılsız (pisi yaxşıdan ayıra bilməyən) isə pislərdən qorunmamaqla onların güdazına gedər, felinə uyar, sonda da bədbəxtliyə aparan qapılar onun üzünə açılar. Göründüyü kimi, pis olan birisi pis bir söz deyirsə, ağlı olan birisi bu pis sözlərin acı sonunu qabaqcadan gördüyü üçün onlardan özünə ibrət payı alır. Beləliklə, ağlı olan “Susma - dinləmə - gözləmə” adlı 3 qalxana sahiblənə bildiyindən pislərdən – acı gətirən, ağrı yetirən, ayırıcı, reklamçı, qisasçı, dedi-qoduçu insanlardan yayına bilir və yayına bildiyi üçün həyatın acı səhnələrindən amanda olur, amanda olduğu üçün normal (düz yolla qazanılan) keçimə yiyələnərək, ağıllı bir insanın yaşamını yaşayır. Yunan yazarı Plutarx (45-127) doğru olaraq yazır ki, *“Dinləməni öyrənsən, pis söz və danışmalardan da faydalana bilərsən”* (Sinelnikov, 2019: 124).

Gözəl bir söz söyləmək hər kəsin bacarmadığı bir sənət, bir hünərdir. Deməк, gözəl bir söz söyləmək - gözəl bir tablo çəkmək, gözəl bir mahnı bəstələmək, gözəl bir mahnı ifa etmək, gözəl bir heykəl ucaltmaq kimi sənət öynəyidir. Gözəl söylənən bir sözü gözəl dinləmək, anlamaq da ayrı bir sənət və hünərdir. Gözəl sözün hədəfə çatması onun gözəl dinlənməsindən və anlaşılmasından keçir. Göründüyü kimi, kommunikasiya prosesində doğru dinləmə və doğru anlama olmasa, deyilən söz gözəl olsa da, gözəl səslənsə də faydasız olar. Roma filosofu Epiktet (50-140) demişkən, *"Gözəl bir söz söyləmək bir sənət olduğu kimi, gözəl bir dinləmə və anlama da başqa bir sənətdir"* (Əzizəliyeva, 2016: 86).

Söz var ki, insana ucalıq verir, söz var ki, insanı xar edir. Birinci o zaman baş verir ki, danışanın deməyə sözü var, deyəcəyi söz mənaya, hikmətə, saygıya, sevgiyə yüklənir. İkinci o zaman baş verir ki, danışanın sözündə pozitiv heç nə yoxdur. Doğru düşüncə doğru niyyətə, o da doğru davranışa, o da hüzura yol açmayınca, başqa sözlə, düşüncə - niyyət - davranış - hüzur dördlüyü var olmayınca, danışana saygı duyulmaz, onu qınayarlar, adına acı sözlər deyərlər. Yerində, zamanında, ünvanında söylənməyən söz öz sahibinə məsuliyyət qazandırır. Məsuliyyət hissini yaşamayan insan heç kəsin saygı duymadığı laqeyd bir insan olur. Məsuliyyət hissi yaşayan isə sağlamlığını, xoş gününü, qəlb rahatlığını itirir. Məsuliyyət yaranmasın deyə, danışan gərək hər sözünü düşünərək desin. Tanınmış islam alimi, filosof Məhəmməd Qəzali (1058-1111) vurğulayır ki, *"Bir sözü söylədiyin zaman düşün. Əgər o sözü söyləmədiyin zaman məsul olacaqsan – söylə, yoxsa sus"* (Okuyucu, 2021: 137).

Kommunikasiya prosesində söylənən söz dinlənməyə keçid almadan öncə ancaq doğru olsa – az faydalıdır, doğru və gərəkli olsa – çox faydalıdır, doğru, gərəkli və ədəbli olsa - ən çox faydalıdır. Doğru və gərəkli olanı ədəblə söyləmək danışma və dinləməyə yüklənən kommunikasiyanı bir sevgi məclisinə döndərir, kimsənin aşağılanmadığı, ruhunun zədələnmədiyi, qəlbinin qırılmadığı gözəl bir dialoqa çevirir. Bu təmas platonik bir görüş olub, dinləyənin qəlbini oxşayır – sərin bir yaz mehi tarlanı oxşayan kimi, dinləyənə ümid verir - əkinçi sulanmaqdan qorxan zirə bitkisini sulamayıb ona ümid verdiyi kimi, dinləyənin ruhuna sevgi damızdırır – riyadan uzaq olub körpəsini əmizdirən bir ana sevgisi kimi, dinləyəni mənəvi bir asılılığa salmır – yer üzünü təmənna güdmədən cənnətə döndərən comərd bir günəş kimi. Dahi şair, filosof Mövlana Rumi (1207-73) söylənənləri belə yekunladır, *"Danışmadan öncə sözlərini üç qapıdan keçir. Birinci qapıda özündən soruş, "Bu doğrumu?". İkinci qapıda soruş, "Bu gərəklimi?". Üçüncü qapıda soruş, "Bu ədəblimi?"* (Okuyucu, 2021: 106). Göründüyü kimi, doğruya, gərəyə, ədəbə köklənən bir kommunikasiya (dialoq) yer üstündə olmuş və olacaq insani dialoqların ən üstünüdür.

Dinləyən gərək dinlədiyini səbirlə dinləsin, danışanın sözünü kəsməsin, fikrini yekunlamağa ona imkan versin. Dinləyən, üstəlik, dinlədiklərinə şəfqət gözü (ürək yanğısı) ilə baxmalıdır. Danışmaq üçün dinləyənə sıra çatanda sevgi dilində danışsın. Səbir göstərən, şəfqət sərgiləyən, sevgi yayan bir danışma - dinləmə adi bir kommunikativ dialoq deyil, gözəl bir insan olmanı sərgiləyən dialoqdur. Mevlana Rumi bu məsələylə bağlı 3 öyüd verərək yazır ki, "Səbir qulaqları ilə dinləyin, şəfqət gözləri ilə baxın, sevgi dilində danışın" (Okuyucu, 2021: 78).

Kommunikativ prosesdə 3 orqan məsuliyyət daşıyır – qulaq, göz, qəlb. Belə ki, qulaq eşitdiyindən, göz gördüyündən, qəlb dilə ötürdüyündən məsuliyyət daşıyır. "Qulaq-göz-qəlb" ad sıralamasını Mevlana düşünüb tapmayıb. Bu sıralama Qurani- Kərimdə yer alır. Bu da təsadüf üzündən deyil, zərurət (keçərli səbəb) üzündəndir. Dünyaya yenicə gələn körpənin ilk öncə qulaqları açılır – eşitməyə başlayır, sonra gözləri açılır – görməyə başlayır, sonda qəlbi açılır – danışmağa, düşünməyə başlayır.

Dünya belədir ki, burda üstün insanlar var, nöqsanlı olanlar da var. Birincinin sayı olduqca azdır, ikincininki isə olduqca çoxdur. Bir insan gerçəyi danırsa, yalan danışırsa, dedi-qodu edirsə, simic olursa, başqasının uğurunu qısqanırsa, çox danışırsa, ədəbsiz olursa, haram keçinirsə, naşükür olursa, söz kəsən olursa, zəhmətə alışmırsa, bir ayrısının probleminə üzülmürsə − o, insan olaraq qalır, amma nöqsanlı insan olaraq anılır.

Çox danışan insan hikmət, məntiq, yararlı öyüd, keçərli informasiya, yönləndirən motivasiya, ruhlandıran ümid baxımından yoxsul olur. Beləsinin özü və sözü dinləyəni yorur, bezikdirir,

çaşdırır, azdırır. Dahi italyan boyakarı, alimi Leonardo da Vinçi (1452-1519) nöqsanlı insanların üçünü gündəmə çıxararaq, yol verdiyi suça uyğun onları sıraya düzərək buyurur ki, *"Baxıb görməyəndən, danışıb dinləməyəndən, toxunub hiss etməyəndən uzaq durun"* (Uolş, 2021: 203). Bu üçündən birincisi ağılsız olanı, ikincisi bezikdirici olanı, üçüncüsü başqasının acı durumuna acımayanı nəzərdə tutur.

İnsan danışanda beynində formalaşmış sözlərdən yararlanır, qarşıya çıxan məsələ ilə bağlı fikir yürüdür. Danışanda insan düşünmür, düşünməyə vaxtı da olmur. İnsan tək qalanda düşünə bilir, qurduğu xəyalların qanadlarında yeni nəsə tapır. Danışma - dinləmə - təkbaşına düşünmə üçlüyündə ən üstün olanı düşünmədir, ondan sonra dinləmə. Əslinə qalsa, təkbaşına düşünmənin özündə də bir dinləmə vardır. Bu zaman insan özü-özünü dinləyir, etdiyi sorğunu qulağı ilə yox, qəlbinin qulağı ilə eşidir. Nizami və Füzuli kimi poeziya nəhəngləri, Leonardo da Vinçi və Rafael kimi boyakarlıq nəhəngləri, Motsart və Bax kimi bəstəkarlıq nəhəngləri, Huqo və Tolstoy kimi yazıçılıq nəhəngləri, Nyuton və Eynşteyn kimi fizika nəhəngləri tək qalıb düşünməklə, özü-özünü dinləməklə bəşəriyyət üçün danılmaz önəm daşıyan ixtiralara imza atıblar. İşığın kvant nəzəriyyəsini yaradan, fotoeffektin qanuna uyğunluğunu izah edən, istilik şualanmasının kvant nəzəriyyəsini verən, nisbilik nəzəriyyəsini tapan, Nobel mükafatçısı, yəhudi kökənli dahi fizik Albert Eynşteyn (1879-1955) xəyal ilə biliyi qarşı-qarşıya qoyaraq, düşüncəni öz qanadlarında daşıyan xəyal gücünün ölçüyə gəlməz önəmini irəli çəkərək vurğulayır ki, *"Xəyal gücü bilikdən daha önəmlidir. Bilik məhdud olur, xəyal gücü isə bütün dünyanı qucur, tərəqqiyə stimul verərək, evolyusiyanı doğuraraq".*

Buddizim fəlsəfəsinin banisi Qautama Budda 2700 il bundan qabaq insanın mənəvi yaşamında xəyal gücünün aparıcı olmasını yüzlərlə sitatında vurğulayır. Onun sitatlarının birində deyilir ki, *"Miracles start to happen when you give as much energy to your dreams as you do to your fears". Bunu ingiliscədən belə çeviririk, "Möcüzələr onda baş verməyə başlayar ki, siz qorxularınıza yönəltdiyiniz bunca çox enerjini xəyallarınıza yönəldəsiniz".* Deməli, insan çəkdiyi hər bir qorxuya enerji sərf edir. İnsanın öz yanlış həyatının ucbatından çəkdiyi qorxular olmasaydı, itirilən bunca çox enerji insanın həyatında möcüzələrə yol açardı.

Dilindən, dinindən asılı olmayaraq, dünyanın elm, incəsənət, mədəniyyət, poeziya və nəsr dahiləri antik dönəmlərdən indiyə kimi susmağı, dinləməni, az danışmanı öz əsərlərində və çıxışlarında bir ərdəm (üstün mənəvi bacarıq) olaraq təbliğ ediblər. Doğrudan da, çox susan, çox dinləyən və az danışan bir kimsə hamının sevimlisinə dönür. Dahi ingilis dramaturqu Vilyam Şekspir (1564-1616) hamıya qulaq verməyi (hamını dinləməyi) və azına səs verməyi (az insanla danışmağı) tövsiyə edərək yazır ki, *"Give every man thy ear, but few - thy voice".* Dərin anlamlı olan bu qısa kəlamı azərbaycancaya belə çeviririk, *"Hər kəsə qulaq ver, amma azına – səs".* Burada "dinlə" anlamında ingiliscə "give ear" frazeloji feilini kalka edərək, "dinlə" mənasında "qulaq ver" olaraq təqdim edirik, hərçənd dilimizdə "qulaq as", "qulaq tut" variantları da var. İngiliscə "give voice" frazeoloji feilini isə kalka yolu ilə "səslən" mənasında "səs ver" kimi veririk.

Kommunikativ prosesdə normanı aşmayan danışıq nə qədər faydalı olursa, belə danışığı dinləmək də bir o qədər faydalıdır. Dünyəvi danışıqlarda dinləmək prioritet (aparıcı) olduğu kimi, Qurani-Kərim adlı səma kitabında da dinləmək prioritet sayılır. Dinləməyə, susmağa bir ədəb bacarığı olaraq baxılan Qurani-Kərimdən öyrənirik ki, *"Quran oxunan zaman onu dinləyin və susun ki, sizə rəhm edilsin*" (Bünyadov, 2017: 175). Sitatda "rəhm edilsin" ifadəsinin açıqlaması belədir : Quranın ərəbcəsini dinləyən kəs ərəbcə bilirsə, iki fayda alır – qəlbə toxunan dərin mənadan feyz alır, ruha toxunan gözəl səslənmədən zövq alır; Quranın ərəbcəsini ərəbcə bilmədən dinləyən kəs bir fayda alır – ruha toxunan gözəl səslənmədən zövq alır. Qeyd edək ki, Quranda olanı dünyanın hər hansı dilində dinləmək sadalanan iki faydanı vermir, sadəcə dinləyən kəs quru bir informasiya alır.

Bir insanı dinləyərkən onun elmi, mədəni və əxlaqi səviyyəsini öyrənə bilərik. Belə ki, elmi olanın elmi, mədəniyyəti olanın mədəniyyəti, əxlaqı olanın əxlaqı yalnız sözlərindən və davranışından aydın ola bilər. Onları dinləmədən onlar haqda düzgün mülahizə yürütmək olmaz. Albert Eynşteyn doğru buyurub ki, "Hamımız işığın səsdən daha sürətlə hərəkət etdiyini bilirik. Bu səbəbdən siz bəzi insanların danışmalarını dinləməyənə qədər onları parlaq görürsünüz.

## Nəticə

Apardığımız araşdırma göstərir ki, danışma, söz söyləmə, rəy sərgiləmə, münasibət bildirmə prosesini dinləmək bacarığı qədim dövrlərdən indiyə kimi aktual olaraq qalır. Danışmanın effektiv olması daha çox dinləmənin effektiv olmasından keçdiyi üçün istər antik, istər çağdaş filosoflar, psixoloqlar, yazarlar, filoloqlar kommunikativ prosesdə dinləmənin daşıdığı önəmi ayrı-ayrı prizmalardan yetərincə açıb göstəriblər.

Məqalənin aktuallığı odur ki, onu yazan müəllif internet kanallarında türkcə, ingiliscə və ruscadan çevirdiyi 18 sitatın işığında mövzuya dair açıqlama və yanaşmalarını sərgiləyir, orjinallığı, çağdaşlığı, diqqət çəkməni saxlamaq üçün bir kimsənin elmi rəyindən istifadə etməyib. Yeri gəlmişkən, nəzərə çatdıraq ki, çoxunun danışdığı və azının dinlədiyi indiki zamanda bu məqalənin elmi-tədqiqat jurnallarında, elmi konfransların materiallarında, internet sayıtlarında yer alması tam yerinə düşür.

## Ədəbiyyat

1. Kant İmmanuel. (2020). Təhsil haqqında. Bakı, “Mücrü”, 96 s.
2. Dürant Uill. (2006). Fəlsəfi hekayələr. Bakı, “Zəkioğlu”, 576 s.
3. Abbasov, Ə. (2020). Yeniləşən dünyada fəlsəfənin missiyası (məqalə). Elm və həyat, AMEA Elmi-populyar jurnal, №1-2, s.83.
4. Nəbiyeva, A. (2021). Məhəbbət dastanlarında ilahi mənşəli obrazlar (məqalə). Azərbaycan ədəbiyyatşünaslığı, AMEA Nizami adına Ədəbiyyat institutu, № 1, s.165.
5. Aristotel'. (1984). Cochineniya, IV tom. Moskva: “Mysl'”, 830 s.
6. Fromm Erich. (2012). Sevmək sənəti. Bakı: “Qanun”, 143 s.
7. Sinelnikov Valeri. (2019). Stresə qarşı peyvənd. Bakı: “Qanun”, 255 s.
8. Əzizəliyeva, B. (2016). Dünyəvi düşün - milli olaraq hərəkət edin (məqalə). Türkoloji elmi-mədəni hərəkatda ortaqlı dəyərlər və yeni çağırışlar Beynəlxalq Konfransı. Bakı, 14-15 noyabr, s.86.
9. Okuyucu Cihan. (2021). İçimizdəki Mövlana. İstanbul: “Altın Yayın evi”, 348 s.
10. Uolş Nil Donald. (2021). Tanrı ilə söhbət. Bakı: “Qanun”, 269 s.
11. Bünyadov, Z. (2017). Quranın Azərbaycan dilində tərcüməsi, Bakı: “Nurlar”, 604 s.
12. Sartre Jean-Paul. (2019). Varlıq və heçlik. İngiliscədən tərcümə. Bakı: Qanun, 792 s.

Göndərildi: 14.02.2022 Qəbul edildi: 09.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/24-29

**Telli İbrahimova**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
69_cicek_69@ rambler.ru
**İradə Zamanova**
Bakı Dövlət Universiteti
zirada04@gmail.com

# AZƏRBAYCANDA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ DİSTANT TƏHSİLİN İDARƏOLUNMASI SAHƏSİNDƏ PROBLEMLƏRİN ARAŞDIRILMASI

**Xülasə**

Təqdim olunan məqalə Azərbaycanda daha çox müzakirələrə səbəb olan distant təhsil sahəsində mövcud problemlərin araşdırılmasından bəhs edir. Məqalədə problem bir çox aspektlərin araşdırılmasını əsas götürmüşdür. Bu vaxta qədər distant təhsil haqqında tədqiqatların əksəriyyəti pedaqoji perspektivə yönəlmişdir, lakin problemin analitik nöqteyi-nəzərdən aparılan tədqiqatlara aid olmasına dair məlumatlar çox zəif təşviq edilirdi. Tədqiqat məqaləsi orta məktəblərdə distant təhsildə müxtəlif maraqlı tərəflərin, o cümlədən onlayn təlimin təşkilatçıları, müəllimlər və şagirdlərin üzləşdiyi problemləri araşdırmaqla onların yaranma səbəbləri və nəticələrini açıqlamağı məqsəd kimi qeyd edir. Bu çətinliklər əsasən məktəblərdə fiziki və texniki resursların çatışmazlığı, müəllim və şagirdlərin virtual təlimə adaptasiya olmaları, komputer bilikləri, motivasiyanın zəif tətbiqi və təlimdə diqqəti yayındıran vasitələridir. Məqalənin araşdırması həm müəllimlər, həm də şagirdlərin qeyri-sabit və ya məhdud internet bağlantısından əziyyət çəkdiyini, kütləvi onlayn təhsildə şagirdlərin distant təhsil alma hüquqlarına maneə törətdiyini aşkar edir. Valideynlər övladlarının evdə onlayn öyrənməsi üçün hər cür dəstəyi təmin etmək üçün çətinliklə üzləşir və pedaqoji yenidənqurma ehtiyacı ilə üzləşirlər. Bu tədqiqat həmçinin internetə çıxışı məhdud olan və öyrənmə imkanlarını məhdudlaşdıran problemləri araşdırır. Qlobal nöqteyi-nəzərdən, məqalənin mövzusu kütləvi onlayn təhsilə keçid üzrə maneələrin aradan qaldırılmağa kömək edə bilər.

***Açar sözlər:*** *distant təhsil, fiziki və texniki resurs, virtual təlimə adaptasiya, ümumtəhsil məktəbləri, şagirdlərin distant təhsil alma hüquqları*

**Telli Ibrahimova**
Baku Slavic University
Ph.D. in Philology
69_cicek_69@ rambler.ru
**Irada Zamanova**
Baku State University
zirada04@gmail.com

# Investigation of problems in the field of distance education management in secondary schools in Azerbaijan

**Abstract**

The presented article deals with the investigation of existing problems in the field of distance education, which have caused more discussions in Azerbaijan. In the article, the problem is based on the examination of many aspects. Until now, most of the research on distance education has focused on a pedagogical perspective, but there has been little encouragement to apply the problem to research from an analytical perspective. The research paper aims to explore the problems faced by various stakeholders in distance education in secondary schools, including online learning organizers, teachers, and students, and reveal their causes and consequences. These difficulties are

mainly the lack of physical and technical resources in schools, adaptation of teachers and students to virtual training, computer skills, poor application of motivation and distractions in training.

The article's research reveals that both teachers and students suffer from unstable or limited internet connections, hindering students' rights to distance learning in mass online education. Parents are struggling to provide all kinds of support for their children's online learning at home and face the need for pedagogical restructuring. This study also examines the challenges that limited access to the Internet has on learning. From a global perspective, the topic of the article can help overcome barriers to the transition to mass online education.

***Keywords:*** *distance education, physical and technical resources, adaptation to virtual training, secondary schools, distance learning rights of students*

## Giriş

Son onilliklər boyu distant, yəni məsafəli təhsil akademik ictimaiyyətin marağına səbəb olmuş, kompüter və internet təhsil həyatının bir çox sahələrinin ayrılmaz hissəsinə çevrilmişdir. Ümumi təhsil məktəblərində *"distant təhsil"* anlayışı son iki ildə baş verən COVID-19 pandemiyası ilə əlaqədar olan dövrdə qəbul edildi. Məlumdur ki, orta məktəblərdə distant təhsil informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsindəki sürətli inkişaflla sıx bağlıdırm (1; 2; Əhmədov, 2013). Moore distant təhsili *"müəllimlər və tələbələr arasında ünsiyyətin əksəriyyətin kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirildiyi təhsilin bütün formalarına əhatə edən, fərqli məkanlarda aparılan bir təhsil növüdür"* kimi müəyyən edir. Son iki il ərzində bu təhsil növü məktəblərdə çox sayda şagird və müəllim kütləsinin tədrisin təşkilinə cəlb olunduğu məsuliyyətli bir sahə oldu. Bununla da, texnologiyalara qabacıl çıxış, sosial ünsiyyət, onlayn təlim prosesinin yaranması və məlumat əldə etmə üsulları kəskin şəkildə dəyişdi. İndi artıq məktəblərin əksəriyyətində ibtidai məktəb şagirdlərindən tutmuş böyüklərə qədər hər yaşda olan şagirdlər açıq və distant təliminin istifadəsini uğurlu bir təhsil sahəsi kimi təklif edirlər. Məlumdur ki, orta məktəblərdə yeni media vasitələri öyrənənlər üçün qarşılıqlı əlaqədə olmaq, dialoqlar yaratmaq və məlumat mübadiləsi üçün yeni vasitələr təqdim edir və distant təhsil də daxil olmaqla öyrənmə üçün yeni imkanlar yaratmışdır. Bununla bağlı olaraq, məktəblərdə təhsil texnologiyalarında vasitəli qarşılıqlı əlaqənin inkişafı üzrə komputer vasitələrinin onlinda dəstəkverici sistemininvə texnoloji terminlərin öyrənilməsi nəsillərə ötürülərək qarşılıqlı əlaqə vasitəsi kimi istifadə olunmağa başlandı. Bütün bunlara baxmayaraq, distant təhsilin üstünlük və qeyri-üstünlüklərinin öyrənilməsi bu təhsilin məkan, şərait, texniki təchizetmə, onlayn resursların səmərəli istifadəi, müəllim hazırlığı və şagirdlərin təlimə cəlbi baxımından bir çox şərtlərin sistemli idarə olunması sahəsində fərqli müşahidə nəticələrinin əldə olunmasına səbəb oldu (1; Abdullayev, 2007; Anderson, 2004).

### Distant təhsilin təşkili üstünlükləri

Dünyanın müxtəlif regionlarında və ölkələrində distant təhsil böyük bir təhsil ehtiyacını ödəmək üçün istifadə edilir. Bu ehtiyacların ödənilməsində hər şeydən əvvəl, orta məktəblərdə müəllim və şagirdlərin distant təhsilin həyata keçirilməsində onun rolunu, əhəmiyyətini və verəcəyi faydanın izah olunması vacib şərtdir. Distant təhsilin məktəblərdə effektiv idarəolunması ilk öncə, şagirdlərin bu təhsilin üstünlüklərini aşağıdakı şəkildə bilməyə və təlimdə tətbiqinə əsaslanır:




**Şəkil 1. Distant təhsilin idarəolunması üstünlükləri**

Şəkildən (şəkil1) məlum olur ki, məktəblərdə *"ənənəvi savadlılıq"* anlayışı tədricən multimedia savadlılığına, müasir texnologiyaların tətbiqinə keçid mərhələsində *"yeni savadlılıq"* anlayışı ilə əvəz olunmağa başlayır. Artıq öyrənənlərin yaş xüsusiyyətlərini və müasir tələbləri nəzərə alsaq, sosial şəbəkə və rəqəmsal öyrənmə istər-istəməz həyatımızın məlumatlama və maariflənmə mənbəyinə çevrilmişdir. İbtidai siniflərdən tiutmuş tam orta təhsil səviyyəsinə qədər bütün öyrənənlər müasir texnologiyaların verdiyi səmərəni hiss edir və ənənəvi savadlılıq metodikasından uzaqlaşaraq, məlumatları çevik və eyni zamanda qısa müddətə öyrənməyə can atırlar. Son müşahidələr, elektron resursların təlimə girişi şagirdlərimizin məktəblərdə oxumaq, yazmaq və rəqəmsal kodlaşdırılmış materiallarla - mətn, qrafika, hərəkətsiz və hərəkətli şəkillər, animasiya, səslərlə ünsiyyət qurmaq bacarıqlarını təkmilləşdirir və təlimdə daha maraqlı resurslara istinad etməyə həvəsləndirir (2; Əhmədov, 2013; Ol'nev, 2011; Brown, 2012).

**Distant təhsilin idarəolunmasında problemlər**

Tədqiqat məqaləsi orta məktəblərdə distant təhsilin idarəolunması sahəsində olan və aşkar edilən problemlərin araşdırılmasına həsr edilmişdir. Aydındır ki, şagirdlərin əksəriyyət hissəsinin distant təhsilə cəlbi məktəblərdə daha çox müşahidə olunur. Distant təhsili məktəblərdə səmərəli idarə etmək, onlayn təlimə adaptasiya olmaq, təlim vaxtını effektiv idarə etmək, texniki təchizat, internetə giriş sahəsində istər-istəməz bir çox problemlərlə üzləşdir. Bu araşdırma Covid-19 pandemiyası zamanı pedaqoqların qarşılaşdıqları maneələrin yaranma səbəbləri və nəticələrinin öyrənilməsinə yönəlib.

*Modul distant təhsildə əsas problemlər hansılardır?*

Qeyd olunan üstünlüklərin olmasına baxmayaraq, son illərdə distant təhsil getdikcə daha cəlbedici stausa malik olsa da, orta məktəblərdə bu təhsilin idarəolunmasında mövcud problemlər əsasən şagirdlərin fərdi cəlbi, təlimatın verilәsi, fiziki mühitin təşkli, texniki təchizat və internetin təmin olunması kimi müəyyən edildi. Məlumdur ki, distant təhsil, texnologiya yardımlı təlimata və ya onlayn təhsilə əsaslanmalıdır. Onlayn təhsildə müəllimlər və şagirdlər internet və texnologiyadan istifadə edərək təlim mühitində bir-biri ilə qarşılıqlı əlaqədə olurlar (Abdullayev, 2007; Ol'nev, 2011).

"Distant təhsil" müəllim və şagirdlərin fiziki cəhətdən birlikdə iştirakı olmadan həyata keçirilən hər hansı təhsilə aiddir. Əvvəllər orta məktəblər distant təhsil metodu uyğun bəzi modelləri tətbiq edilirdi. Distant təhsil məktəblərdə xüsusi laboratoriyalarda, kabinetlərdə telekonfranslar və televiziya mühazirələrinə qoşulmaq idi. Daha sonra bu inkişaf internet vasitəsilə şəklində dünyanın hər yerinə reallaşmağa başladı. Artıq bu əlaqələri üstələyən e-poçt, forumlar, söhbətlər, onlayn dərslər şagird maraqlarının ənənəvi məsafəli öyrənmə maraqlarını əvəz edir. Məlum oldu ki, onlayn şəbəkəsindən istifadə etməklə dünyanın hər yerindən məlumatlar qrafik, mətn, vizual, audio vasitəsilə ötürülməsi üçün video və audio konfranslar daha çox maraq kəsb edir (Vedemeyer, 1981).

Təəssüf olsun ki, məktəblərimin çoxu bu elektron resursların təminatı ilə distant təhsilə çıxışı həll edə bilmir. Əsas problemlərdən bəziləri şagirdlərin təhsildən yayınma səviyyəsinin yüksək olması və tədris proqramlarını uzun müddətə başa vurmasıdır. Orta məktəblərində distant təhsilin iadrəolunmasında əsas problemlərin situasiya, münasibət, psixoloji və pedaqoji xarakter daşıyır və daha çox məktəb və sosial-mədəni müansibətlərlə olan problemlər kimi müəyyən edilməsidir (Vheeler, 2002).

Təlimi dəstəkləyən bəzi ümumi texnologiyalar, mobil telefonlar, noutbuklar, planşetlər, kompüterlər və s. vasitələr distant təlimin idarəolunmasında əsas vasitələr olsa da, bu sahədə müəllim hazırlığı və təcrübəsində problemlər hələ də mövcuddur. Probelmləri aşağıdakı kimi qeyd etmək olar:

- Distant təlimdə məlktəbin fiziki resurslarının təmiantı
- Texniki məsələlərin həllinin gecikməsi
- Vitual sinif otağına uyğunlaşma
- Komputer biliklərinin zəif olması
- Təlimdə diqqəti yayındıran vasitələr
- Motivasiya və dəstəyin olmaması

Distant təhsili idarə edən müəllimlər tez-tez nizam-intizamla mübarizə aparır, dərs cədvəlinin uyğunsuzluğundan, şagirdlərin təlimə cəlbindən, onalyn təlimin qaydaları haqqında məlumatsızlıqdan çətinlik çəkirlər. Şagirdlərin əsas problemləri öz-özünə təhsil, zəif internet bağlantısı, çox sayda fəaliyyət, diqqətin yayındırılması və diqqətin olmaması səbəbindən yorğun və yuxulu olmaq və bütün tapşırıqları cavablandırmaq üçün vaxtın olmamasıdır. Distant təhsilin idarəolunmasında qeyd olunan problemlər və onların yaranma səbəbləri aşağıdakı şəkildə şərh edilmişdir (2; Ol'nev, 2011; Anderson, 2004).

**1. Distant təlimdə məlktəbin fiziki və texniki resursların çatışmazlığı**

Məktəblərdə distant təhsildə fiziki resurslar dedikdə, müəllim və şagirdlərin fiziki cəhətdən birlikdə iştirakı olmadan həyata keçirilən hər hansı təhsil növü kimi anlaşılır. Digər resurslara dair problemlər lazım olan tipik avadanlıqlar, kompüter, veb-kamera və mikrofonlu qulaqlıqların tam təmin olunmamamsıdır. Məktəblərdə və ya ailələrdə distant təhsili dəstəkləyən komputerlərdən əlavə, digər avadanlıqlar olan videokamera, ştativ, rəqəmsal fotoaparat və digər resursların çatışmazlığı da daxildir.

Digər tərəfdən müəllimin evlərdə olan texniki avadanlıqların təlimə cavab verəcək səviyyədə və tələb olunan proqram təminatı ilə qənaətbəxş vəziyyətdə olmamasıdır. Məsafəli təhsildə müəllim şagirdlərin məsafəli təhsilə qoşulmaqda heç bir çətinliyi olmayacağına tam əmin olmalıdırlar. Aydın olmalıdır ki, bütün bu fiziki və texniki problemlərin yaranma səbəbi distant təhsildə məktəblərin texnoloji vasitələrin istifadəsi üzrə texniki kardlarla çatışmazlığı və rəqəmsal idarəetmənin məktəb strateji planı əsasında idarə olunmamasıdır. Bunun səbəbi də strateji planın çatışmazlığı və ya planda məsafəli təhsilin məqsəd və idarəolunma mexanizmlərinin olmamasıdır (Zorpe, 2001).

**2. Texniki məsələlər**

Texniki problemlər əsasən internet bağlantısından ibarət olur və bu problem kompüter hissələrinin və proqram təminatının nasazlığı ilə müşahidə olunur. Bəzən başverən bu texniki problemlər texnologiya və kompüter proqramlarını başa düşməməkdən yaranır. Bundan əlavə, məktəblərdə dərslərin ardıcıl cədvəl üzrə tətbiqi internetin sürətini zəiflədir. Buradan aydın olur ki, yüksək sürətli internet bağlantısı effektiv, səmərəli və qüsursuz onlayn öyrənmə təcrübəsi üçün uyğundur. Çox vaxt texniki problemlər internetə çıxış, əlçatanlıq, məhdud qarşılıqlı əlaqə, naviqasiya və istifadəçi təcrübəsi ilə bağlı problemlər məsafəli təlimin sistemisiz idarəolunmasının sübutudur. Buna səbəb məktəblərin sürətli internet çıxışının təmin edilməsində səhlənkarlıq və idarəetməsinin maraqlı tərəflərlə əməkdaşlığın olmamasıdır. Yəni inernet şəbəkələrinin məktəblərdə fəaliyyəti mərkəzləşmiş sistemdən idarə olunduğu üçün rəhbəliyin işində asılılıq və biganəlik yaranır. Nəticədə məsafəli təhsil keyfiyyətli alınır (Simonson, 1999).

**3. Virtual sinif otağına uyğunlaşma**

Virtual mühitə adaptasiya, yəni uyğunlaşma fiziki adaptasiya, proqram modullarının avtonom, bacarıqlı və müstəqil öyrənənləri inkişaf etdirilməsini nəzərdə tutur. Virtual sinif otağının əsas problemi şagirdlərin diqqətini cəmləşdirməkdir. Ənənəvi sinifdən fərqli olaraq, müəllimlər şagirdlərə nəzarət etmək üçün cəlbedici üsullardan az məlumatlı olmasıdır. Bu uyğunlaşma həm müəllim və həm də şagirdlər tərəfindən düzgün idarə edilməlidir. Məktəb şagirdlərinin virtual öyrənməyə cəlb etmək dəyişiklik çox dağınıq şəkildə olur və bəzi öyrənənlər yeni üsluba uyğunlaşmaq üçün vaxt alırlar. Bundan əlavə, ənənəvi sinif mühitinə öyrəşdiklərinə görə şagirdlər onlayn platformalarda öyrənməyə çox zəif öyrəşirlər. Burada dərslər üçün dəqiq məzmun onlayn şəkildə çatdırılsa da, şagirdlərin anlama səviyyələri fərqli olur. Buna səbəb şagirdlərin onlayn təhsilə uyğunlaşa bilməməsi, ailənin zəif dəstəyi və sanki məsafəli təhsili ciddi təhsil hesab etməməsidir. Müəllimlər virtual siniflərdə tədrisə adaptasiya olunarkən bir çox bacarıqlara malik olmalı, sakit məkanın seçməli, texniki avadanlıqla dinamik əlaqə qurnalı, təlim prosesində etik qaydaları qorumalı, nitqində peşəkar ifadələrl işlətməli və şagirdlərin təlimə motivasiya edən üsullardan isifadə etməlidir. Şox vaxt məktəblərdə bu gözləntilər ağır şəkildə həyata keçirilir. Təlimə qeyd olunan tələblər şəklində adaptasiya olmaq əvəzinə internet şəbəkəsinin zəif olması, uşaqların səs-küy salması və ya onlayn resurslardan istifadə etmək bacarıqlarının olmamasından şikayətlənirlər (Holley, Oliver, 2010).

**4. Kompyuter biliyi**

Distant təhsil ən azı bəzi əsas kompüter biliklərinə malik olmağı tələb edir. Kompüter savadlılığı həm müəllimlərə, həm də şagirdlərə internetdə mövcud olan onlayn təlim platformalarından istifadə etməyə imkan verir. Şagirdlər üçün bir sıra öyrənmə platformaları mövcuddur və onlar həmçinin təlim konsepsiyaları haqqında ətraflı öyrənmək üçün internetdə digərləri ilə əlaqə saxlama imkanı verə bilər. Əsas kompüter savadlılığı bacarıqlarına sahib olan müəllim və şagirdlər proqramlaşdırma üzrə daha təkmil bacarıqlara sahib ola bilərlər. Məlumdur ki, bu gün ünsiyyət əsasən rəqəmsaldır və şagirdlər müxtəlif ünsiyyət vasitələri ilə başqaları ilə təhlükəsiz, uyğun və effektiv ünsiyyət qurmağı başa düşməlidirlər. Təəssüf ki, bir çox müəllimlərin və eələcə dəd şagirdlərin MS Word, MS Excel və PowerPoint kimi kifayət qədər bilik və bacarıqları zəifdir. Kompüter biliklərinin çatışmazlığı şagirdlərin ünsiyyətlə əlaqəli proqramlara cəlb olunması və tədris materiallarından tədris materiallarından istifadə imkanlarını çətinləşdirə bilər (2; Ol'nev, 2011).

**5. Diqqəti yayındıranlar**

Distant təhsil alarkən, sosial mediadan uyğun istifadə etməmək dərs fəaliyyətlərdən yayınma şanslarını artırır. Diqqətin yayındırılması çox zaman vaxt itkisinə, konsentrasiyanın itirilməsinə səbəb olur və distant təhsilin effektivliyini azalmasına səbəb olur. Bundan əlavə, ənənəvi sinif otağının quruluşu olmadan onlayn öyrənmənin çətin olması dqqəti daha tez yayındıra bilər. Müşahidələr əsasən qeyd etmək lazımdır ki, şagirdlərin diqqətini yayındıran əsas amillərə sosial media, mesajlaşma, televiziya və ailə daxildir ki, bu da insanın diqqətini tapşırığından yayındıra və məhsuldarlığın azalmasıdır. Bəzi hallarda məsafəli təlimin düzgün effektiv təşkil olunmaması da diqqəti yayındırır. Məqalənin yeni tapıntılarından biri ailələrin uzaqdan təhsil zamanı ibtidai yaşlı uşaqlar arasında əsəbilik, narahatlıq və emosiyaları idarə etmək qabiliyyətinin zəifləməsidir. Şagirdin dərsə gəlməzdən əvvəl hazırlaşmaması təkcə onların deyil, həm də sinif yoldaşlarının diqqətini yayındırır. Şagirdlər tədris materiallarını yerinə yetirmələri baş versə də, bu tapşırıqları ilə bağlı yeniliklərin olmamamsı şagirdlərin diqqətini yayındıra bilər (Ol'nev, 2011; Brown, 2012).

**6. Motivasiya və dəstəyin olmaması**

Distant təlimdə motivasiya çatışmazlıqları əsasən şagirdlərin dərs zamanı yeni mövzuya olan az və dəyər verməsidir. Çox vaxt onlayn dərslərdə ənənəvi üsulun tətbiqi şagirdləri tez yorur və öyrənmə səylərini azaldır. Sanki şagirdlər performanslarını yaxşılaşdırmağa inanmır, virtual mühitin dəstəkləyici xarakterini az görürdülər. Buna baxmayaraq, şagirdlərin repetitor və həmyaşıdlarının dəstəyi ilə davamlı öyrənmə üçün uyğun mühit yaratmağa çalışırlar. Sorğular və müsahibələrin nəticələri sübut edir ki, canlı onlayn dərslərə maraqları olsa da, onlayn təlimdə verilən mövzuların məzmunu, anlayışını başa düşməkdə çətinliklər vardır. Səhvini bəzən başa düşməyən şagirdlər onlaynda müəllimdən ayrıldıqdan sonra analışmaz məqamlarda fikirlərinə aydınlıq axtarmaqda çətinlik çəkirlər. Şagirdlər dərsdə iştirak etməyən digər partnyorlarının olmaması səbəbindən bəzən motivasiyadan məhrum olurlar. Müəllimlər az iştirakçı olduğu üçün seçdiyi üsul və maraqlı metodun tətbiqini ləngidir, növbəti dərsə saxlayır, az şagirdlərin iştirakı ilə üsulların tətbiqini effektiv saymır və sanki, dərsə səthi yanaşır (Vygotsky, 1930/1978).

Qlobal nöqteyi-nəzərdən, kütləvi onlayn təhsilə keçid bütün dörd maneələrin aradan qaldırılması ilə mümkün ola bilər.

## Nəticə

Beləliklə, orta məktəblərdə distant təhsilin idarə olunması sahəsində yaranan problemlər aparılan araşdırmalar üzrə dəqiqləşdirilmiş, distant təhsilin davamlı tətbiqini proqnozlaşdırılır və aşkarlanan problemlər bir çox səbəblər üzündən baş verməsi məsafəli təhsilin idarəolunmasında çatışmazlıqlarla sübut edir. Məqalə eyni zamanda yaranan səbəblərin təhsildə əks olunan neqativ nəticələrini də açıqlayır və bu səbəb və nəticələrin şagirdlərin rəqəmsal bacarıqlara yiyələnmə, onlayn məkanda iştiraketmə fəaliyyətinin təkmilləşməsində əsas maneə olması kimi görür. Elmi araşdırmalar distant təhsilin idarəolunması sahəsində orta məktəblərin strateji plana ehtiyacı olduğunu və bu plan əsasında onlayn təlimin təşkili üzrə məqsədlərin müəyyən edilməsini zəruri

hesab edir. Buna baxmayaraq, məqalə idarəolunmada problemlərin təlim texnologiyalarının təkmilləşdirilməsi ilə bağlı olaraq baş verdiyini və onların aradan qaldırılmasının vacibliyini vurğulayır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 24.10 2013.
2. Azərbaycanda distant təhsil: vəzifələr, perspektlər. "Azərbaycan müəllimi" qəzeti. 24.01.2014.
3. Əhmədov, H. (2013). Azərbaycanda distant təhsilin perspektivləri. 26 dekabr, s.6.
4. Abdullayev, S.G. (2007). Otsenka effektivnosti sistemy distantsionnogo obucheniya. Telekommunikatsii i informatizatsiya obrazovaniya. №3, s.85. 4
5. Anderson, T. (2004). Toward a Theory of Online Learning. In Anderson, T. & Elloumi, F. (Ed.). The theory and practice of online learning. Athabasca University Press, 33-60. 6
6. Ol'nev, A.S. (2011). Ispol'zovaniye novykh tekhnologiy v distantsionnom obuchenii. Aktual'nyye problemy sovremennoy nauki. №1, s.96. 5
7. Brown, J.L. (2012). Online learning: A Comparison of Web-Based and Land-Based Courses. Quarterly Review of Distance Education, 13(1). 7
8. Vedemeyer, S. (1981). Learning at ze bask door: Refl estions on non-traditional learning in the lifespan. Madison: University of Vissonsin Press.
9. Vheeler, S. (2002). Student Perseptions of Learning Support in Distanse Edusation. Quarterly Reviev of Distanse Edusation, 3(4): 419-430.
10. Zorpe, M. (2001). Rezinking learner support: ze challenge of sollaborative online learning. Paper presented at SSROLLA Symposium on Informing Prastise in Netvorked Learning, Glasgov, 14 November, Retrieved July 6, 2008 http://vvv.ssrolla.as.uk/papers/s1/zorpe_paper.html
11. Simonson, M. (1999). Equivalensy zeory and distanse edusation. TechTrends, 43(5), 5-8.
12. Holley, D., & Oliver, M. (2010). Student engagement and blended learning: Portraits of risk. Computers & Education, 54(3), 693-700.
13. Vygotsky, L.S. (1930/1978). Mind in Sosiety: Ze development of hiğer psyçologisal prosesses. Sambridge, M.A. Harvard University Press.

Göndərildi: 16.01.2023 Qəbul edildi: 08.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/30-36

**İlahə Şixəliyeva**
Bakı Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
ilashka.sh@gmail.com
orcid.org/0000-0002-2476-0421

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHSİL STRATEGİYASI TƏDRİSDƏ DİSTANT TƏHSİL

**Xülasə**

Bu gün ənənəvi tədris metodları internetdən, elektron kompüter şəbəkələrindən və telekommunikasiyadan istifadəyə əsaslanan yeni tədris metodları ilə tamamlanır. İnternet texnologiyalarına əsaslanan distant təhsil, teletəlim birgə əməkdaşlıq və qlobal şəbəkə birliyinə inteqrasiya da daxil olmaqla bir sıra yeni funksiyaları yerinə yetirir.

Məqalədə aşağıdaki fikirlər əks olunub:

1.Ümummilli lider Heydər Əliyevin təhsilə və elmə münasibəti; 2. Distant təhsilin qısa tarixi, əhəmiyyəti, formaları və üsulları haqqında məlumat; 3. Bu növ təhsilin mənfi və müsbət cəhətləri.

***Açar sözlər:*** *təhsil, distant təhsil, internet, informasiya texnologiyaları, telekonfrans*

**Ilaha Shikhaliyeva**
Baku State University
Candidate of Pedagogical Sciences
ilashka.sh@gmail.com

## Education strategy of national leader Haydar Aliyev Distance learning in teaching

**Abstract**

Nowadays, traditional teaching methods are completed with new teaching methods which are based on the use of the Internet, electronic computer networks and telecommunications tools. Distance learning, e-learning is based on Internet technologies realizes some new functions, “distributed cooperation, integration, access the worldwide network community” principles are great importance.

The following ideas are reflected in the article:

1. National leader Heydar Aliyev's attitude to education and science; 2. Brief history, importance, forms and methods of distance education; 3. Negative and positive aspects of this type of education.

***Keywords:*** *education, distant education, internet, information technology, teleconference*

## Giriş

Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Ümummilli lider Heydər Əliyev elm-təhsil sahəsinə xüsusi diqqət göstərirdi.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən Ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin öz sözləri ilə desək: “Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir”.

Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğur qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir.

Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bugününə diqqət yetirmək kifayətdir.

Bir faktı qeyd etmək kifayətdir ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Ümummilli lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni əhatə etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir

və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

Ümummilli lider Heydər Əliyev təhsilə çox böyük önəm verirdi və deyirdi: "Təhsil millətin gələcəyidir", "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".

Son zamanlar Azərbaycan təhsil məkanında təhsilin yeni formasına – distant təhsilin tətbiqinə geniş yer verilir.

Qloballaşma şəraitində distant təhsilin məqsədi müasir informasiya texnologiyalarından istifadə etməklə təhsilalanın ixtisasının artırılmasıdır. Distant təhsil formasını ilk yaratmaq cəhdi 1840-cı ilə təsadüf edir. Həmin vaxt İsaak Pitman poçt məktubları vasitəsilə Birləşmiş Krallıqda tələbələrə stenoqrafiyanı öyrətməyə başlamışdır. Uzun illər keçən dövr ərzində texnoloji yanaşmalar və tələblər dəyişmişdir. Distant iş yeni növ ünsiyyət modeli kimi bütün fəaliyyət sahələrini əhatə etməyə təminat verir (1).

Hələ 2009-cu ildə Prezident İlham Əliyevin imzası ilə "Azərbaycan Respublikasının Təhsil Qanunu" qəbul olunub. Bu qanunda əyani, qiyabi, sərbəst və distant təhsil forması öz əksini tapıb. Distant təhsilin yeni tədris texnologiyalarına, yəni informasiya kommunikasiya texnologiyalarına əsaslanmasından əlavə, özəl xüsusiyyəti, onun təhsilə daha geniş auditoriya və kontingentin toplaması idi. Başqa sözlə desək, elektron informasiya vasitələrinin köməyi ilə məsafədən − maddi, fiziki, sağlamlıq imkanlarından asılı olmayaraq təhsil almaq reallaşırdı.

Müasir dövrdə texnologiyanın inkişafı təhsil sisteminə də öz təsirini göstərir. Bunun nəticəsidir ki, distant, yəni müəyyən məsafədən keçirilən təlim-tədris sistemi yaranıb.

Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirir. Distant təhsilin xarakterik xüsusiyyətlərinə çeviklik, modulluluq, iqtisadi səmərəlik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, müasir texnologiyalardan istifadə və s. aiddir. Distant təhsildə tədris metodik kompleksdən, kompüter, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur (2).

İKT-nin inkişafı təhsil sisteminə də öz təsirini göstərib. Bunun məntiqi nəticəsi olaraq distant − müəyyən məsafədən keçirilən tədris sistemi yaranıb. Distant təhsil öyrənən və öyrədən arasında əlaqəni telekommunikasiya və internet vasitəsilə operativ, əks əlaqə əsasında uzaq məsafədən həyata keçirir.

Distant təhsil hər hansı təhsil almaq imkanları olmayan şəhər və ölkələr üçün əvəzedilməzdir. Eləcə də pandemiya kimi fövqəladə hallarda vəziyyətdən yeganə çıxış yoludur. Bu təhsili hamı üçün əlçatan edir. Distant təhsil mobildir və tələbənin daim aktual problemlərə çıxışı olur. Bunun üçün sadəcə internet lazımdır.

COVID-19 virusunun geniş yayıldığı bu dövrdə dünyanın təhsil arenasında distant təhsilin imkanları getdikcə daha da artır. Bir çox təhsil müəssisələri və hazırlıq kursları fəal şəkildə məktəb eksternatından başlamış ali təhsildə, eləcə də magistratura təhsilində bütün növ distant təhsil imkanlarından istifadə edirlər.

Distant təhsil vasitəsi ilə təhsilin aşağıdakı növlərindən yararlanmaq olar.

1. Ali (bakalavriat üzrə) təhsildə;
2. Magistr təhsilində;
3. Əlavə ali təhsildə;
4. Orta ixtisas (subbakalavr üzrə) təhsilində;
5. Dil öyrənməkdə;
6. Təhsil treninqlərində;
7. İxtisasartırma kurslarında;

8. Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilində;
9. İşləyən və ya evdən çıxmaq imkanı məhdud olan şəxslərin təhsil almalarında.

Koronavirus epidemiyası ilə əlaqədar bütün ölkələrdə insanların intensiv təmasda olduqları yerlər, əsasən də məktəblər bağlandı, şagird və tələbələr evə buraxıldılar.

Ölkəmizin koronovirusa qarşı tətbiq etdiyi strategiya böhranın təsirlərinin minimuma endirilməsində mühüm rol oynadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə böhranın ilk yayıldığı günlərdə hadisənin ehtimal ediləcək miqyası təhlil olunaraq ciddi mübarizə tədbirlərinə başlanıldı (3).

Koronavirus pandemiyası dövründə onlayn (distant) təhsil təkcə Azərbaycanda deyil, bütün dünyada təhsil sistemini düşdüyü kritik situasiyadan xilas etdi. Distant təhsil ənənəvi təhsili əvəz edə bilməz. Bir çoxlarının hələ də distant mahiyyətini başa düşməmələri ona əsasən qiyabi təhsilin alternativi kimi yanaşmaları ilə bağlıdır. Lakin distant təhsil ənənəvi qiyabi təhsildən daha uğurlu formadır. Əslində, müasir təhsil forması olan distant təhsil ənənəvi təhsilə dəstək xarakteri daşıyır. Eyni zamanda kritik situasiyalarda əsas təhsil forması kimi də çıxış edə bilər. Koronavirus pandemiyası göstərdi ki, distant təhsilin gələcək üçün inkişafının təmin edilməsi vacibdir (4).

Distant təhsil gənclərə vaxt itirmədən xarici universitetlərdə oxumaqlarına imkan verir. Burada tələbənin sərbəst öyrənmə prinsipi vardır. Təhsil sahəsi elə qurulub ki, tələbə müəllimdən vaxt və ya məsafə ilə ayrılsa da, onlar istədiyi vaxt telekommunikasiya vasitələri ilə əlaqə saxlaya bilərlər. Bu baxımdan müxtəlif məqsədlərlə istənilən təhsil proqramı sahəsində həyata keçirilə bilən distant təhsil sisteminin funksiyaları da genişdir.

Funksiyalar aşağıdakılərdən ibarətdir.

1. Yaş qrupları arasında təhsil balansının təmin edilməsi;
2. İkinci dəfə təhsil almaq imkanının təmin edilməsi;
3. Geniş kütlələr üçün məlumat və təhsil kampaniyalarının həyata keçirilməsi;
4. Yeni sahələrdə təhsilin verilməsi;
5. Təhsili geniş coğrafiyada əldə etmənin təmin edilməsi;
6. Təhsilin işlə və ailə həyatı ilə kombinasiyasının təmin edilməsi;
7. Bacarıqların inkişaf etdirilməsi və s.

Beləliklə, distant təhsil − müəllim və tələbənin (şagirdin) fiziki olaraq eyni bir məkanda olma məcburiliyini aradan qaldıran bir sistemdir. Distant təhsil zaman keçdikcə həm inkişaf edir, həm də ki, təkmilləşir. Tarixə nəzər salsaq onda görərik ki, tarix boyu distant təhsili qarşılıqlı əlaqəli elementlərin sistemi kimi təsəvvür edən bir neçə modeli olmuşdur. Qeyd edək ki, bu modellərin hər birində yalnız bir metoddan istifadə edilmiş, təhsilalanla müəllim arasında birbaşa qarşılıqlı əlaqə təmin olunmuşdur (5).

Distant təhsil zamanı tələbələr və müəllimlər bir-biriləri ilə, qarşılıqlı diskusiya yarada bilirlər. Həmçinin belə təhsil formasında tədrisin vəziyyətini və onun xüsusiyyətləri ilə şərtlənən potensial problemlərini də qabaqcadan görmək olar.

Əslində distant təhsil müəllimlə tələbənin məsafə və ya vaxt və ya hər ikisi ilə ayrıldığı bir vəziyyətdə baş verən öyrənmədir. Bu gün distant təhsilin həyata keçirilməsi üçün müxtəlif texnologiyalardan istifadə olunur: video çəkilişlər, yayımlanan televiziya, interaktiv videolar, audioyazılar və audio konfranslar, veb kurslar (onlayn). İnternetin və kompüter texnologiyasının inkişafı və yayılması təhsil və təlim anlayışlarında inqilab etdi. Artıq bu gün "virtual liseylər" reallığa çevrilir, burada bütün məktəb onlayn kurslara çıxış əldə edir. Lakin populyarlığına baxmayaraq, onlayn təhsil problemsiz olmayıb. Distant təhsil əyani təhsillə eyni deyil. Distant təhsil proqramlarının idarə edilməsi müxtəlif təcrübələr tələb edir və tələbələr üçün üz-üzə öyrənmə onlayn öyrənmədən çox fərqlidir. Distant təhsilə artan tələbat və onun yaratdığı unikal təcrübə, xüsusən də pandemiya zamanı orta məktəblərin bu cür onlayn təhsilin üstünlüklərini, mənfi cəhətlərini və çətinliklərini bilməsi vacibdir (Knowles, Holton, Swanson, 2014).

Ənənəvi tədris formatında müəllim dərsləri hazırlayır və onların məzmununu üzbəüz mühitdə təhsil alan tələbələrə çatdırır (Demkin, Mozhayeva, 2003). Müəyyən bir müddət ərzində tələbələrə çox vaxt passiv dinləmə və ya müşahidəni deyil, aktiv olmağı tələb edən dərslər təklif olunur; belə

öyrənmə yanaşması bütün sinif üzvləri arasında məhsuldar qarşılıqlı əlaqənin inkişafına kömək edir. Bununla belə, üz-üzə yanaşmanın bir sıra çatışmazlıqları var, yəni:

1) tələbə və müəllimin eyni sinifdə olmasını tələb edir;

2) məlumatlar uyğunsuz ola bilər;

3) çevikliyin olmaması; və təbii ki, əsas problem tələbələrin sinifdə öyrənmə səviyyəsinin fərqli olmasıdır.

Hər bir tələbə müəyyən bir mövzu daxilində müxtəlif məqsədlər, gözləntilər, təcrübə və bacarıqlarla sinif otağına gəldiyi üçün adi universal kurs bu vəziyyətdə effektiv nəticə vermir. Məhz bu yanaşmanın çatışmazlıqları veb kurslar və ya onlayn təhsil şəklində alternativ öyrənmə yolları üçün imkanlar açdı. Distant təhsil tanınmış təhsil formaları (əyani, qiyabi) çərçivəsində istifadə olunan distant texnologiyalar məcmusudur. Distant təhsilin yaradılmasında məqsəd müəllimin dərs yükünü azaltmaq, təhsilin keyfiyyətini yüksəltməkdir. Distant təhsil sistemi rahatlığı və çevikliyi sayəsində son dərəcə populyar təhsil formasına çevrilmişdir. Əsas maneəni aradan qaldırır − çətin epidemioloji vəziyyətlərdə olan insanlar arasında təmasların qarşısını alaraq, müəyyən edilmiş cədvələ uyğun olaraq dərslərdə iştirak etmək ehtiyacını aradan qaldırır (Kirsanova, Chernenko, 2012).

Distant təhsil prosesi əsasən tələbələrin müstəqil idrak fəaliyyətinə əsaslanır, lakin bu, uşaqlarla müəllim arasında şəxsi ünsiyyətin əhəmiyyətini inkar etmir. Şagirdləri oxumağa həvəsləndirəcək və eyni zamanda müəllimlə şagird arasında birbaşa əlaqənin olmaması və ya hətta çatışmamazlığını kompensasiya edəcək təhsilin elə formalarından istifadə etmək lazımdır.

Bu gün orta məktəblər üçün distant təhsilin aşağıdakı formaları həyata keçirilir: Şagirdlərin onlayn söhbətlər vasitəsilə müəllimlə ünsiyyət qurmasını əhatə edən söhbət-dərsləri. Onlar mətn və ya audio mesajlarla təmsil oluna bilər, bunun üçün istifadə rahatlığı, ucuzluğu və yayılması baxımından WhatsApp, Telegram messencerlərindən və ya Skype və ya Zoom platformalarından istifadə edilən videoçatlardan istifadə edilir (Əhmədov, 2013).

İnternet vasitəsilə də həyata keçirilən veb dərslər, lakin artıq vebinarlar, distant mühazirələr və hətta hazır onlayn dərslər şəklində. Bu təhsil formasının böyük üstünlüyü ondan ibarətdir ki, tələbələr həm öyrənmək üçün xüsusi material alırlar, həm də onu keçdikdən sonra öz biliklərini yoxlamaq imkanı əldə edirlər. Eyni zamanda valideynlər və müəllimlər təlimin gedişatını birbaşa izləyə bilərlər.

Telekonfrans-xüsusi texniki və kompüter alətlərindən istifadə etməklə məsafədən rabitənin həyata keçirildiyi konfrans növüdür. Telekonfrans ümumi mövzu və ya məsafədə maraq doğuran məsələlərlə birləşən çoxlu sayda iştirakçıların ünsiyyətini nəzərdə tutur. Eyni zamanda telekonfrans zamanı onun bütün iştirakçıları fikir mübadiləsi apara, bir-birlərinə suallar verə bilərlər. Telekonfrans sizə maraqlı mövzunu seçdikdən sonra oxuya biləcəyiniz müvafiq və maraqlı mesajları şəbəkədə yerləşdirməyə imkan verir. Bundan əlavə, mesajın müəllifinə sual vermək və ya öz fikrinizi göndərmək mümkündür. Beləliklə, şəbəkə müzakirəsi təşkil edilir (Sarenko Polina Vasil'yevna, Filonenko Larisa Alekseyevna, 2014).

Məktəb proqramının tam həyata keçirilməsi üçün hər birinin çatışmazlıqlarını kompensasiya etmək üçün təhsilin bütün formalarını birləşdirmək lazımdır. Beləliklə, epidemioloji vəziyyətlə əlaqədar distant təhsilə tam məcburi keçid zamanı şagirdlər məktəbə getmədən təhsil ala biləcəklər. Müasir texnologiyalar vizual məlumatı daha rəngarəng və dinamik edir ki, bu da materialın qavranılmasını asan və effektiv edir.

Dərsin keçirilməsi üçün müəyyən edilmiş çərçivənin olmaması hər bir tələbəyə proqramı öz sürəti ilə öyrənməyə, onun üçün daha çətin olan məsələlərə daha çox diqqət yetirməyə, dərsin intensivliyini özü tənzimləməyə imkan verəcəkdir (Berg, 2003).

Ancaq eyni zamanda bu gün məktəb dövrünün uşaqları üçün davamlı olaraq onlayn təhsilə tam keçid mümkün deyil, çünki uşaqlardan və valideynlərdən xüsusi məsuliyyət və motivasiya tələb edir. Üzbəüz mühitdə qrup şəklində təhsil uşaqları öyrənməyə həvəsləndirən rəqabət və dəstək mühiti yaradır, bundan əlavə, bir çox tələbələr onların təlim prosesinə nəzarət edəcək “nəzarətçinin” olmasını tələb edir. Distant təhsil çərçivəsində bu rol valideynlərə veriləcək, hansılar ki bəzi

səbəblərdən buna hazır deyillər. Həm də hər ailənin kifayət qədər maddi-texniki təminatı yoxdur. Distant təhsilin müsbət və mənfi tərəfləri var. Və belə bir təhsil formasına keçmək zərurəti yaranarsa, distant proqramın həyata keçirilməsi forması seçilərkən bu çatışmazlıqlar nəzərə alınmalıdır (El Mansour, Mupinga, 2007).

## Nəticə

Beləliklə, belə nəticəyə gəlmək olar ki, distant təhsil bu gün əyani və ya qiyabi təhsil formaları ilə yanaşı, təhsil sisteminin ayrılmaz hissəsidir.

Distant texnologiyaların inkişafının hazırkı mərhələsində tədris müəssisələrinin vəzifəsi təhsil prosesini elə təşkil etməkdir ki, yeni təhsil formaları keyfiyyət baxımından ən azı ənənəvi formada eyni nəticə versin. Bundan əlavə, distant təhsilin effektivliyinin ölçülməsi üsulları ilə bağlı çoxlu suallar var.

Distant təhsilin bir çox üstünlükləri var. Onlardan bəzilərini təqdim edirik:

1. Hər bir tələbə ilə fərdi işləmək imkanı. Distant tədris texnologiyası hər bir tələbəyə öz yanaşmanızı tapmağa kömək edir. Distant təhsil tələbələrinizi daha yaxından tanımaq üçün əla şansdır.
2. Daha rahat iş tempi. Distant təhsilin sizə verdiyi əsas şey vaxtdır.
3. Rahat şəraitdə işləmək bacarığı. Məktəb mühitinin təlaşından uzaqlaşmaq bir çox pedaqoqlar üçün yaxşıdır və onların diqqətini işlərinin vacib aspektlərinə yönəltməyə kömək edir.
4. Tədris materiallarının mövcudluğu. İndi bir çox onlayn kitabxanalar öz virtual qapılarını açıb və dərsliklərindən pulsuz istifadə etməyə icazə veriblər. Bu, həm məktəb kitabxanasında mövcud olan dərsliklərlə məhdudlaşmayan müəllimin, həm də onlarla bahalı əlavə dərs vəsaiti almağa imkanı olmayan şagirdlərin valideynlərinin həyatını asanlaşdırır.

Distant təhsilin mənfi cəhətləri.

1. Rəqəmsal texnologiyaları anlamaq ehtiyacı. Yeni iş üsuluna keçid narahatedici və yorucudur, xüsusilə vahid təlimat yoxdursa.
2. Şəxsi ünsiyyətin olmaması. Dərs zamanı bütün şagirdləri göz önündə saxlamağa adət etmiş müəllim üçün “ev” dərsi çətin sınaq ola bilər. Axı distant təhsillə bütün uşaqları idarə etmək çətindir.
3. İşlə boş vaxt arasında sərhəd yoxdur. Evdən işləyərkən bir insanın iş gününün nə vaxt bitdiyini dəqiq söyləməsi demək olar ki, mümkün deyil. Buna görə müəllimlər işə artıq vaxt sərf edirlər.

## Ədəbiyyat


1. https://muallim.edu.az/news.php?id=12524
2. https://www.edc.org/sites/default/files/uploads/Distance-Education-Teacher-Training.pdf
3. https://www.sciencedirect.com/science/article/pii/S2666412722000137
4. https://www.oecd.org/education/ceri/GEIS2016-Background-document.pdf
5. https://journals.sagepub.com/doi/10.1177/21582440221085016?icid=int.sj-full-text.similar-articles.3
6. Knowles, M.S., Holton, III E.F., Swanson, R.A. (2014). The adult learner: The definitive classic in adult education and human resource development. Routledge.
7. Demkin, V.P., Mozhayeva, G.V. (2003). Tekhnologii distantsionnogo obucheniya. Tomsk: Izd-vo Tom. un-ta, 106 s.
8. Kirsanova, Ye.V., Chernenko, V.I. (2012). K voprosu o distantsionnom obrazovanii. Vestnik assotsiatsii vuzov turizma i servisa, № 3, s.78-82.
9. Əhmədov, H. (2013). Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları. Kurikulum elmi-metodik jurnal, Bakı.
10. Sarenko Polina Vasil'yevna, Filonenko Larisa Alekseyevna. (2014). Telekonferentsiya. Osobennosti. Preimushchestva. JSRP, № 8 (12).

11. Berg, S. (2003). Two sides of the same coin engaging student beyond the traditional classroom. The Community College Enterpreter, № 9 (1), p.7.
12. El Mansour, B., Mupinga, D.M. (2007). Students' positive and negative experiences in hybrid and online classes. College student journal, T. 41. № 1, p.242.

Göndərildi: 24.02.2022 Qəbul edildi: 19.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/37-42

**Ghada Wattad**
Tel Aviv University, School of Education
Doctor of Innovation in Education
ghadaj@walla.com
**David Chen**
Tel Aviv University, School of Education
Full Professor of Science and Technology Education
chen@tauex.tau.ac.il

# COGNITIVE DEVELOPMENT - CALL FOR A GENERAL INTELLIGENCE TOOL KIT OR A DOMAIN SPECIFICITY DEPENDENT

## Abstract

The present study was designed to test whether knowledge content (domain) affects learning by studying cognitive distribution subjected to three domains: spatial relations, mass, volume and density, and conservation and isolation variables (length, weight, strength). Three different cognitive tests were included in the research method. The study was carried out on 1000 adults. The results show that learning was affected by domain specificity, thus supporting the innateness origins of traits suggested by the modularity theory of Fodor and the core knowledge findings of Spelke & Carey.

***Keywords:*** *cognitive development, content domains, domain specificity, theory of Fodor, Core Knowledge theory*

**Qada Vattad**
Təl-Əviv Universiteti, Təhsil Məktəbi
Təhsil üzrə innovasiyalar doktoru
ghadaj@walla.com
**David Çen**
Təl-Əviv Universiteti, Təhsil Məktəbi
Elm və texnologiya təhsili üzrə professor
chen@tauex.tau.ac.il

# Koqnitiv inkişaf − ümumi intellekt alətləri dəsti və ya mövzu sahəsindən asılı olaraq sorğu

## Xülasə

Hazırkı tədqiqat bilik məzmununun (domen) öyrənməyə təsir edib-etmədiyini yoxlamaq üçün nəzərdə tutulmuşdur ki, bu üç sahəyə tabe olan koqnitiv paylanmanı öyrənir: məkan əlaqələri, kütlə, həcm və sıxlıq, qorunma və izolyasiya dəyişənləri (uzunluq, çəki, güc). Tədqiqat metoduna üç fərqli koqnitiv test daxil edilmişdir. Tədqiqat 1000 böyüklər üzərində aparılıb. Nəticələr göstərir ki, öyrənmə sahənin spesifikliyindən təsirlənir, beləliklə, Fodorun modulyarlıq nəzəriyyəsi və Spelke & Carey-nin əsas bilik tapıntıları ilə təklif olunan xüsusiyyətlərin anadangəlmə mənşəyini dəstəkləyir.

***Açar sözlər:*** *koqnitiv inkişaf, məzmun domenləri, domen spesifikliyi, Fodor nəzəriyyəsi, Əsas bilik nəzəriyyəsi*

## Introduction

There exist controversies regarding the contribution of the content domain to cognition. In other words, is there any general intelligence that serves all content domains, or does intelligence have expertise in specific content domains? Various theories have emphasized the influence of specialized cognitive systems in different content domains. Carey and Spelke's 'Core Knowledge' theory (Carey & Spelke, 1996) and Fodor and Chomsky's 'The Descriptive Modularity' theory (Fodor, 1983) are very well known in this regard.

Core Knowledge Theory believes that children are born with innate cognitive mechanisms. Those mechanisms are seen as learning traits with evolutionary and survival value that help the children acquire valuable information concerning their environment. For example, a toddler has the tools for learning a language. In addition, a newborn toddler has the ability to distinguish between a living creature and a non-living one and also the ability to differentiate between human faces and inanimate objects or animals. These are traits that children are born with, which help them survive. These mechanisms develop and change while interacting with the environment, life experience and contradictory evidence (Gopnik et al., 1999).

Human beings have been given many systems for representing and concluding the different types of entities. Studies indicate at least four core knowledge systems: bodies, agents, numbers and space. For example, knowledge about physical objects applies to the behaviour of materials and bodies. Knowledge of agents applies to the actions of people and animals. Those specific knowledge systems allow babies to solve a series of immediate and urgent problems without examining possible solutions in the larger space. The importance of core knowledge systems stems from the fact that they already exist in infancy, function in the intuitive adults' way of thinking and continue to influence scientists' thinking later on. Relating to the children's perception of knowledge could lead to a conceptual change in the cognitive research of knowledge (Carey & Spelke, 1996). Kinzler & Spelke (2007) add that these four knowledge systems are used to display entities in the real world (inanimate objects) as well as more abstract entities (numbers and geometric shapes) (Kinzler & Spelke, 2007). Moreover, human thought might also be based on a fifth system for representing social partners and classifying the social world. Infants begin their life with a primitive physical theory in regard to inanimate objects. This theory includes the knowledge that the world contains; the physical objects that occupy a place and move continually rather than jumping from one location to another as a response to external forces (Spelke, 2003). Spelke tested the mathematical ability among infants by carrying out a set of tasks. She found that two different systems of Core Knowledge work among babies: the first for representing and determining objects and the second for sets that represent the numeric values. Spelke concludes that the systems of core knowledge are (1) domain-specific (a system for representing objects and a system of representing sets), (2) task-specific (a system for numeration and a system for comparison) and (3) encapsulated (the situations that stimulate each system are different) (Spelke, 2000).

Fodor (1983), in The Modularity Theory of Mind, claims that cognition consists of separate components that function independently with interfaces between them or some of them (Fodor, 1983). The philosopher of the Modularity Theory is Fodor, Chomsky's student. According to this perspective, cognition is not a construct of mental processes that result from a cooperative activity of the general recognition mechanisms; rather, it consists of specific independent mechanisms. The argument concerning the existence of specific cognitive components does not mean that we can delimit each of them to a certain area in the brain. Their activities can engage and involve different areas of the brain. The Modularity hypothesis of recognition gained strong support in recent decades. For example, a person can suffer from serious cognitive and developmental disabilities and simultaneously speak and understand different languages without instructions. The human linguistic ability itself is also modular. It is composed of various systems that function independently, still with interfaces among them. Over half a century of research, the modularity of linguistic ability has gained significant confirmation (Smith & Tsimpli, 1995).

According to Fodor, the module is an innate cognitive ability (Coltheart, 1999). It is a mental "organ" that exists in the brain and has the unique expertise to process a particular type of information in a specific processing system. The brain has different modules: language, visualization, mathematics, and spatial perception. When a certain kind of information reaches the brain, it is processed by the module specialized for that type. The information is sent to the central processor that integrates the information. The modules are speedy, separated and intensive. Language, for example, exists in a separate module. Within this module, there are different linguistic modules (syntax, phonology, etc.). A child's thinking processing is based on stimuli from his environment, and the cognitive patterns generated during their development result from this initial processing (Fodor, 1983). Later, Fodor claimed that the modular capabilities answer some of the external concepts; otherwise, the brain has to develop thousands of modules that fit all possible types of content (Massive modularity) (Jerry, 2003). Undoubtedly, the Theory of Modularity gains serious support in Gopnic, Spelke and Carey's findings.

**Methodology**

The research tool included a series of three tests that examine the cognitive levels beginning from the pre-conceptual level till the late formal thinking level (Shayer & Adey, 1981). The tests deal with the following three domains: (1) spatial relationships (N= 203), (2) conservation of volume, mass and density (N= 1000) and (3) length, weight, strength and isolating of variables (N= 1000). The sample consisted of 1000 adults from different strata of society. The research population is heterogeneous in terms of gender, sector, education, age and occupation. The average age of the sample is 39.

For data collection purposes, we used a quantitative-correlative layout to examine the cognitive level according to Piaget's cognitive theory and to understand the functional relationships between the cognitive level and other background variables.

We used a series of three tests developed by "Mathematics and Science Perceptions in High School" at Chelsea College, University of London, between 1973 and 1978. We received the tests directly from Prof. Shire, with guidance and counselling regarding the transfer and data processing. These tests were validated and adapted to fit the population's norms in the U.K.

**Findings and Discussion**

In the present study, we examined the effect of the content domain on the distribution of cognitive levels in the population studied. **Table 1** and **Fig. 1** depict the distribution of the cognitive levels in the three tests in column charts and continuous diagrams.

**Table 1.**
**Distribution of the cognitive levels in the three domains**

| Cognitive stage | Cognitive stage | Domain A | Domain B | Domain C |
|---|---|---|---|---|
| **Pre-operational** | 1B | 3% | 0.2% | |
| **Early concrete** | 2A | 8% | 2.8% | |
| **Mid concrete** | 2A- 2B | 24% | 6.8% | |
| **Mature concrete** | 2B | 41% | 23.7% | 27.8% |
| **Concrete generalization** | 2B* | 13% | 42.1% | 21.2% |
| **Early formal** | 3A | 11% | 10% | 12.8% |
| **Mid formal** | 3A – 3B | 0% | 7.7% | 4.9% |
| **Mature formal** | 3B | 0% | 6.7% | 2% |
| | Total | 100% | 100% | 100% |




**Fig. 1. Distribution of the cognitive levels in the three domains**

It can be seen that most of the population piles up within the late concrete thinking stage and the transition stage; a small percentage (< 25 %) reaches formal thinking in the three tests. All three tests have shown a similar pattern of cognitive distribution, yet there was a gap and differences in achievements among the tests. The content area affected the functioning of the examinees and their achievements in the test. The participants solved the test that dealt with volume retention better than the tests that dealt with "spatial perception" and "pendulum." In all three tests, a large percentage of the population was at the end of the late concrete thinking stage and the transition phase to formal thinking. 44 % of the participants in Test 1 are at the late concrete thinking stage and in transition to the formal thinking stage. 66 % of the participants in Test 2 are at the late concrete thinking stage and in transition to the formal thinking stage. 49 % of the participants in Test 3 are at the late concrete thinking stage and transitioning to the formal thinking stage. Namely, many participants are at the end of the late concrete thinking stage and transitioning to the formal thinking stage. A small percentage of the participants, 11% in Test 1, 24 % in Test 2, and 19 % in Test 3, acquired formal operations and moved to formal thinking. The percentage of the participants who managed to transfer to formal thinking, in the three tests is 18%.

The answer to the research question is unequivocal: the content domain (Domain Specificity) contributes to the variance in the distribution of the cognitive levels of the participant population.

Zohar (1996) argues that instruction designed to develop thinking primarily teaches how to think and not what to think (Zohar, 1996). The research findings suggest that teaching content and levels of thinking are interrelated. The difference in the distribution of the cognitive levels among the three content domains and the gap in achievement and grades in all three tests indicate that the content domain and the learned subject influence the ability to think. That is, content has a major role in determining the distribution of cognitive levels.

The findings of the current research second the 'Modularity of the Mind' theory. This theory claims that cognition consists of separate components that function independently. Fodor argues that 'module' is the innate cognitive ability with the unique expertise to process a particular data type within a specific processing system (Fodor, 1983). According to this approach, cognition is not constructed of mental processes which are the result of a joint operation of the general recognition mechanisms, but rather it is constructed of specific independent mechanisms. The findings of the research indicate a significant variance in the distribution of the levels of thinking among the three content domains. Namely, the thinking ability of the participants depends on the content. According

to the 'Modularity Theory,' while performing the test, the participants activated different internal modules depending on the content of the task. Although the second and the third tests dealt with a content domain that relates to science in two different subjects, there were gaps in the results and the achievements of the participants in both tests.

These findings negate the concept of one general intelligence factor that serves all content domains. This view argues that a positive relationship exists between all the intelligence tests a person carries and that one cognitive factor underlies the process of solving many problems.

Already Thurstone (1941) argues that intelligence is not a single, general capability but a series of independent primary abilities (Thurstone & Thurstone, 1941). A person can be more intelligent in a particular domain than in another. This argument supports the research findings when showing that the function of the subjects was not uniform in performing all tasks.

Core Knowledge is another theory that emphasizes the existence of basic knowledge systems that specialize in different domains. This theory believes that children are born with innate cognitive mechanisms which help them survive. Human beings have been awarded many systems for representing and reasoning (Carey & Spelke, 1996; Spelke, 2003).

Spelke (2000) claims that babies have at least four separate core systems, so each one is specialized in performing tasks in a specific domain (Spelke, 2000). These knowledge systems start in infancy and develop into intuitive thinking during childhood and adolescence (Carey & Spelke, 1996). Apparently, they affect the individual's behaviour and cognitive ability in older age. In the current research, the subjects' cognitive function was related to the task content. Kinzler & Spelke (2007) add that the four core knowledge systems present entities from both the concrete as well as abstract worlds (Kinzler & Spelke, 2007). Core knowledge systems seem to respond according to the content domain (Domain Specific) when people grow up, not only among infants. This study showed the importance of task content on the functioning of the subjects.

## Conclusion

The modularity of the brain is an innate hereditary system. The surrounding cannot affect it, nor can we change it. It exists within the cognitive structures of the individual. There is an approach that strengthens the metaphor of the current study: there is a toolbox in the brain (operations), which is used to solve different problems. Up to the concrete stage, 36 toolboxes or operations were developed, which are responsible for solving problems such as classification, retention, ordering, connection, etc. At the formal reasoning stage, a group of operations called INRC is added to the toolbox, enabling abstract logical thinking and making combinations of operations for solving infinite problems.

'Modularity Theory,' the core knowledge and the metaphor of the "toolbox," indicates the effect of the learned content domain on the participants' way of performance and, later on, the distribution of the thinking levels within the population. A fact that exists within the scientific community is that scientists at the level of formal and post-formal stage level lead and specialize in specific content domains and not in all domains of knowledge. Nobel Prize is awarded according to the domain of expertise: physics, chemistry, physiology, medicine and literature. In other words, even those who reach higher levels of thinking have a special ability in a defined content domain and not all the domains.

## Declarations

**Funding**: No funding sources are reported
**Ethical Approval:** Not applicable
**Conflict of interest**: Authors do not have any conflict of interest.
**Data availability statement**: Data is available and will be provided at the editor's request.
**Author Contributions**: The authors have contributed to writing, designing, compiling and editing the final manuscript.

## References


1. Carey, S., & Spelke, E. (1996). Science and core knowledge. *Philosophy of science*, *63*(4), 515-533.
2. Fodor, J.A. (1983). *The modularity of mind*. MIT press.
3. Gopnik, A., Meltzoff, A.N., & Kuhl, P.K. (1999). *The scientist in the crib: Minds, brains, and how children learn*. William Morrow & Co.
4. Kinzler, K.D., & Spelke, E.S. (2007). Core systems in human cognition. *Progress in brain research*, *164*, 257-264.
5. Spelke, E.S. (2003). What makes us smart? Core knowledge and natural language. *Language in mind: Advances in the study of language and thought*, 277-311.
6. Smith, N.V., & Tsimpli,I.-M. (1995). *The mind of a savant: Language learning and modularity*. Blackwell Publishing.
7. Coltheart, M. (1999). Modularity and cognition. *Trends in cognitive sciences*, *3*(3), 115-120.
8. Jerry, F. (2003). Hume Variations. In: New York: Oxford University Press.
9. Shayer, M., & Adey, P. (1981). *Towards a science of science teaching: Cognitive development and curriculum demand*. Heinemann Educational Publishers.
10. Zohar, A. (1996). To learn, to think, and to learn to think. *Jerusalem, Israel: Branko Weiss Institution for Development of Thinking*.
11. Thurstone, L., & Thurstone, T. G. (1941). Factorial studies of intelligence. Chicago: Univer. In: of Chicago Press.
12. Spelke, E.S. (2000). Core knowledge. *American psychologist*, *55*(11), 1233.


Received: 05.02.2023 Accepted: 22.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/43-48

**Eldar Cəfərov**
Bakı Dövlət Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
eldarjafarov@bsu.edu.az
**Tural Nağıyev**
Bakı Dövlət Universiteti
magistrant
nagiyevtural92@gmail.com

# QLOBAL MƏDƏNİYYƏT MİLLİ MƏDƏNİYYƏTLƏRƏ TƏHDİD KİMİ

**Xülasə**

Beynəlxalq münasibətlər müstəvisində dövlətlərə təsir edən bir çox faktorlar var. Bu faktorlar dünya inkişaf etdikcə yeni forma alır və anlam qazanır. Hazırda dünyada gedən əsas tendensiya qloballaşma prosesidir. Qloballaşma prosesinin bir aktor kimi dövlətə və onun dəyərlərinə aşıladığı təsirlər müxtəlif cür ola bilər. Dünyanın qloballaşması qlobal mədəniyyətin formalaşmasına təkan verir. Həmin qlobal mədəniyyətin daşıyıcıları dünyanın böyük dövlətləridir. Onların formalaşdırdığı həyat tərzi, qaydalar, ideyalar qloballaşma prosesinin daxilində dünyanın dörd bir tərəfinə aşılanır. Bu tendensiya müsbət bir proses kimi görünsə də, bu belə deyil. Qlobal mədəniyyətin yayılmasının əsas mənfir təsiri milli mədəniyyətlərə qarşıdır. Milli mədəniyyətlər bu prosesin qarşısında öz identikliyini itirib, qlobal mədəniyyətə assimiliyasiya təhlükəsi ilə üzləşir. Bu zaman isə milli mədəniyyətin məhvi prosesi başlamış olur. Bunun qarşısını almaq üçün, qlobal mədəniyyətin milli mədəniyyətə yaratdığı təhdidlərin araşdırılması və müəyyən məsələlərin işıqlandırılması vacibdir.

***Açar sözlər:*** *qloballaşma, mədəniyyət, identiklik, dəyərlər, beynəlxalq münasibətlər*

**Eldar Jafarov**
Baku State University
Ph.d in Political Science
eldarjafarov@bsu.edu.az
**Tural Naghiyev**
Baku State University
master student
nagiyevtural92@gmail.com

## Global culture as a threat to national cultures

**Abstract**

At the level of international relations, there are many factors that affect states. These factors take a new form and gain meaning as the world develops. Currently, the main trend in the world is the process of globalization. The effects of the process of globalization on the state as an actor and its values can be different. The globalization of the world gives impetus to the formation of global culture. The bearers of that global culture are the great states of the world. The way of life, rules and ideas formed by them are instilled in the four corners of the world within the process of globalization. Although this trend may seem like a positive process, it is not. The main negative effect of the spread of global culture is against national cultures. National cultures have lost their identity in the face of this process and face the threat of assimilation into global culture. At this time, the process of destruction of national culture begins. In order to avoid this, it is important to examine the threats posed by global culture to national culture and highlight certain issues.

***Keywords:*** *globalization, culture, identity, values, international relations*

## Giriş

Qloballaşma milli-iqtisadi, sosial-siyasi və digər sistemləri bir-birilə əlaqələndirən nəhəng bir prosesdir. Bu əlaqələr tədricən mürəkkəbləşərək qlobal şəbəkə əmələ gətirir. Bu sistem sanki bir orqanizm kimi fəaliyyət göstərir və Yer kürəsinin istənilən nöqtəsində baş verən hadisə milli sərhədləri aşaraq,qlobal rezonans doğura bilir.Hətta ən ucqar ərazilərə belə təsir imkanına malik olur.

Milli mədəni dəyərlər qarşılıqlı zənginləşməyə məruz qalmalı, başqa millətlərin mədəni dəyərlərindən nəsə götürülməlidir. Amma burada qarşılıqlı zənginləşmə prosesi diqtə xarakteri daşıyır. Yəni hakim güclərin milli dəyərləri bir növ diqtə şəklində kiçik xalqların, müstəqilliyini yenicə qazanmış xalqların mədəni həyatına bu və ya digər formada zorla çırpılır, daxil edilir və buna da mədəniyyətə təcavüz deyirlər. Mədəniyyətə təcavüz millətin dilindən tutmuş, millətə aid olan komponentlərin hamısını ya sıradan çıxarır, ya da ona güclü təsir göstərir. Bu mənada qloballaşmanın mədəniyyətdə təzahürü çox ağrılı və ziyanlı bir proses kimi özünü göstərə bilər. Politoloqlar deyir ki, mədəni və mənəvi cəhətdən güclü olan xalqlar bu aşınmanın qarşısını ala bilir. Amma elə xalqlar var ki, bu aşınmadan heç cür xilas ola bilmirlər və nəticə etibarı ilə qloballaşmanın təsir altına düşürlər. Onun təsiri ilə məcburiyyət qarşısında həmin dəyərləri qəbul etməyə məcbur qalırlar (Əhədova (Əliyeva), 2014).

Mədəni qloballaşma ideyaların, mənaların və dəyərlərin bütün dünyaya sosial münasibətləri genişləndirmək və intensivləşdirmək üçün ötürülməsinə aiddir. Bu proses İnternet, populyar mədəniyyət mediası və beynəlxalq səyahətlər tərəfindən yayılan mədəniyyətlərin ümumi istehlakı ilə xarakterizə olunur. Mədəni qloballaşma insanların fərdi və kollektiv mədəni kimliklərini əlaqələndirdiyi ortaq norma və biliklərin formalaşmasını nəzərdə tutur. Bu, müxtəlif əhali və mədəniyyətlər arasında artan qarşılıqlı əlaqə yaradır. Mədəni qloballaşma insanları bir araya gətirməklə yanaşı, yerli mədəniyyətlər, dillər və adət-ənənələr üçün də təhlükə yarada bilər.

Vikikitab və dərsliklər. Vikikitablar birgə yazı üçün virtual məkan yaratmağı qarşısına məqsəd qoyan yazı mediası layihəsidir. Hər kəsin redaktə etmək üçün istifadə edə biləcəyi açıq məzmunlu dərsliklərdir. "Vikidərsliklər dərslik konsepsiyasında əsaslı dəyişikliyi qeyd edən dərsliyi inkişaf etdirmək və yaymaq üçün viki texnologiyasından istifadə etməklə yazılmış dərsliklərdir. Vikidərslik dərsliyin, elektron kitabın və vikinin atributlarını özündə birləşdirir. Bu hibrid konstruksiyalar e-kitabların və vikilərin verdiyi üstünlüklərdən istifadə edərsə və dərsliklərin bəzi məhdudiyyətlərini təkmilləşdirərsə uğur qazanacaqdır" (Ravid, Kalman and Rafaeli, 2008: 8).

M.Pur öz kitabında sinifdə vikidən istifadə ilə bağlı bir çox üsul təklif edir:

- Müəllimlər vikidən tələbələr üçün bələdçi sənəd kimi istifadə edə bilərlər. Müəllimlər vikidə kurs proqramı, tapşırıqlar və tədris təlimatını keçə bilər.
- Müəllim tələbələrdən qrup şəklində işləməyi və müəyyən mövzu ətrafında bir viki qurmağı xahiş edə bilər.

- Müəllimlər tələbələrin müzakirə bacarıqlarını artırmaq üçün tələbələrdən viki müzakirə forumundan istifadə etməyi xahiş edə bilərlər.
- Müəllimlər tələbələrdən Vikipediyada yeni buraxılış haqqında məqalə yazmağı xahiş edə bilərlər.
- Müəllimlər tələbələrə tez-tez verilən suallar və ya lüğətlər şəklində müəyyən mövzu haqqında məlumat mənbəyi tərtib edə bilərlər.

Müəllimlər tələbələrə zəncirvari hekayələr yaratmağı tapşırmaqla onların yaradıcılığını təkmilləşdirə bilərlər. Onlar, tələbələri cüt-cüt yerləşdirə və hər bir cütdən növbə ilə xəyali hekayələr yazmağı xahiş edə bilərlər (Poore, 2013: 70).

Facebook. Facebook müəllimlər və onların tələbələri arasında qarşılıqlı əlaqəni yaxşılaşdırmaq üçün faydalı mənbələrdən biri hesab olunur. Facebook həm müəllimlər, həm də şagird və tələbələr üçün akademik şəraitə təsir göstərir. Facebook tələbələri ev tapşırıqlarını yerinə yetirməyə təşviq edir, xarici dillərin öyrənilməsini asanlaşdırır və dil bacarıqlarının öyrənilməsinə müsbət təsir göstərir. Bu sosial şəbəkə, tələbələrin sosial davranışlarını yaxşılaşdırmağa kömək edir. B.Hamilton aşkar etmişdir ki, Facebook yeniyetmə oxucuları və naşirləri birləşdirmək və onlar arasında ədəbiyyat dairələrini artırmaq üçün uyğun mühit yaradır (Hamilton, 2019: 14). G.Blattner və M.Fiori vurğulayır ki, Facebook xarici dil öyrənənlər arasında rəqabəti inkişaf etdirə və onlara təsadüfi lüğətləri öyrənməyə kömək edə bilər (Blattner, Fiori, 2009: 17). D.Şafhauzer müəyyən edir ki, Facebook və digər sosial şəbəkələr dil öyrənənlər arasında ünsiyyət məhdudiyyətini aradan qaldırır və onlara ünsiyyət üçün məlumatları araşdırmağa kömək edir (Schaffhauser, 2009: 13). Facebook sosial şəbəkəsindən tələbələrin təlim prosesində iştirakını artırmaq üçün etibarlı təlim mühiti kimi istifadə edilə bilər.

Facebook-un öyrənmə vasitəsi kimi müsbət təsirləri qeyd edilsə də, onun bəzi mənfi cəhətləri də vardır. Məsələn, bəzi universitet tələbələri universitet işçilərinin profillərinə daxil olmalarını məhdudlaşdırıblar və tələbələrin virtual və ənənəvi ofis saatlarından istifadə etməsində ciddi fərq olmadığını bildirirlər. Digər tərəfdən, Facebook şagird və tələbələrin yazı yazmaq üçün istifadə etdiyi proqramdır, lakin bu, şagird və tələbələrin təhsil mühitində yazdıqları akademik yazı ilə eyni deyil. Tələbələr ünsiyyət üçün Facebook, bloqlar və Twitter-də qeyri-rəsmi mətn yazır. Amma məktəb və universitetlərdə tələbələr məşq etmək üçün yazır, onlar akademik yazı bacarıqlarını inkişaf etdirirlər.

WhatsApp. L.Çetinkayanın araşdırmasının nəticələri sübut edir ki, dərs prosesində tələbələrin WhatsApp istifadəsinin həm müsbət, həm də mənfi cəhətləri kifayət qədər çoxdur (Chetinkaya, 2017). L.Çetinkayanın araşdırması bir neçə kurslar üzrə həyata keçirilmişdir. Onun araşdırmasına əsasən müəyyən olunmuşdur ki, WhatsApp sosial şəbəkəsi xarici dil öyrənənlər üçün dəstəkləyici bir texnologiya hesab olunur. Dil öyrənənlərin şəkilli mesajlardan istifadəsi onların xarici dili öyrənməsi üçün daha təsirli vasitə ola bilər. WhatsApp sosial şəbəkəsinin mənfi xüsusiyyətlərinə gəldikdə isə, aparılan araşdırma göstərmişdir ki, bu sosial şəbəkəyə əsaslanan dil öyrənmə şüursuz ola və zərərli dostluqlarla rastlaşma ehtimalı müəyyən edilə bilər. Tədris prosesində bu kimi sosial şəbəkələrdən istifadə edərkən ilk olaraq müəllimlər sosial şəbəkədən istifadəni bilməli və onlardan düzgün istifadəni tələbələrə öyrətməlidilər (Falhumaid, 2020: 469-470).

S.Manca və M.Ranieri tərəfindən aparılan araşdırma göstərir ki, sosial media və ya rəqəmsal mediadan istifadə daha stimullaşdırıcı və həvəsləndiricidir (Falhumaid, 2020: 470). Tədris və öyrənmə üçün sosial medianın tətbiqləri olduqca faydalı hesab olunur. Müəllimlər və tələbələr tərəfindən qəbul edilə bilən bəzi variantlar S.Manca tərəfindən sinif, qrup işi, fikir mübadiləsi və davamlı müəllim təhsili üçün xüsusi icmalar kimi təqdim olunur (Falhumaid, 2020: 470). İcma resursları videoların, keçidlərin, sənədlərin, mətn və ya səsli mesajların daxil edilməsinə imkan verir. Sosial şəbəkələr kimi əməkdaşlıq məkanından istifadə etməklə müəllim öz növbəsində tələbələr arasında mətn yazmaq bacarığı, yazıda inkişafı təkmilləşdirmək, mövzu ilə bağlı araşdırma aparmaq, rəy bildirmək və debat təşkil etmək kimi aspektləri təkmilləşdirmək imkanı əldə edir.

Müasir təhsilin tendensiyalarından biri innovativ təhsil texnologiyalarının tədris prosesinə getdikcə daha çox inteqrasiyasıdır, lakin bu, heç də multimedia proqramlarından hər hansı

istifadənin uğurlu təlim nəticələrinə gətirib çıxaracağı anlamına gəlmir. Əksinə, indi müəllimlər və pedaqoqlar innovativ təhsil texnologiyalarını seçərkən həmişəkindən daha çox diqqətli olmalı və bu texnologiyaların ən səmərəli şəkildə həyata keçirilməsinə imkan verəcək prinsiplərə əməl etməlidirlər (Gordon, 2004). Məsələn, tədris vasitəsi kimi kifayət qədər yaxşı qurulmuş PowerPoint təqdimatları, texnologiyadan istifadə etməklə öyrənmənin effektivliyini artırmağa imkan verən prinsipləri nəzərə alınmayan zaman, onlardan istifadə həmişə effektiv olmur. Belə ki, M.Miller innovativ texnologiyalardan istifadə üçün zəruri olan aşağıdakı prinsipləri nəzərə alır və diqqətləri bu prinsiplərə cəlb edir:

- ***Siqnal prinsipi (Signaling Principle).*** Bu prinsipə əsasən, tədris prosesində materialın yalnız ən vacib tərəfləri xarici dil müəllimləri tərəfindən vizual olaraq vurğulanmalıdır.
- ***Məkan yaxınlığı prinsipi (Spatial Contiguity Principle).*** Bu prinsipdə deyilir ki, materialın daha yaxşı mənimsənilməsi üçün mətni və təsviri bir-birinə mümkün qədər yaxın yerləşdirməli, qrafiklərdən istifadə edərkən mətni onların ən əhəmiyyətli hissələrinin olduğu yerə yerləşdirilməlidir.
- ***Müvəqqəti yaxınlıq prinsipi (Temporal Contiguity Principle).*** Bu prinsipə əsasən, təsvirlər və izahatlar qrafiklərin və şəkillərin nümayişi ilə eyni vaxtda daxil edilməlidir, çünki hətta kiçik vaxt dövrləri də istənilən nəticənin əldə edilməsinə mane olacaqdır.
- ***Seqment prinsipi (Segmenting Principle).*** Çətin materialı izah edərkən və ya mövzu ilə yaxşı tanış olmayan tələbələrlə işləyərkən material daha qısa seqmentlərə ayrılmalı, həmçinin, tələbələrin bir seqmentdən digərinə keçmə sürətinə nəzarət etməyə imkan verilməlidir.
- ***Təlimdən əvvəl prinsip (Pretraining Principle).*** Tələbələr təqdimatda istifadə olunacaq terminologiya ilə tanış deyillərsə, əsas anlayışları ətraflı izah etmək üçün ayrıca modul yaradılmalıdır.
- ***Modal prinsip (Modality Principle).*** Əgər mətndə texniki terminlər yoxdursa və ya tələbələr başqa dildə danışan deyillərsə, qrafik təsvirlər mətn deyil, audio müşayiəti ilə dəstəklənərsə, şagirdlər materialı daha yaxşı yadda saxlayarlar (Miller, 2014: 155).

## Nəticə

Beləliklə, "Təhsildə sosial media və rəqəmsal vasitələrdən istifadə" adlı məqalədə göstərilən nümunələr, aparılan tədqiqatlar bir daha sübut edir ki, tədris prosesində sosial media və rəqəmsal vasitələrdən istifadə şagird və tələbələrin tənqidi təfəkkür və yaradıcılığının artmasına, qarşılıqlı əlaqə və əməkdaşlığın qurulmasına təşviq edir, onların öz bilik, bacarıq və təcrübələrini başqa insanlarla bölüşməyə həvəsləndirən kommunikativ mühit yaradır. Həmçinin, qlobal kompüter şəbəkəsinin resurslarından və informasiya kommunikasiya texnologiyalarından istifadə mədəniyyətlərarası ünsiyyətin inkişafına xidmət edir, tələbələrə onları maraqlandıran elmi, peşə və sosial mövzulara dair məlumatların tapılmasına əhəmiyyətli dərəcədə kömək edir. Aparılan araşdırmalar şagird, tələbə və müəllimlərin təlim prosesində sosial media vasitələri və rəqəmsal texnologiyalardan təkcə ünsiyyət vasitəsi kimi deyil, həmçinin öyrənmə və idraki fəaliyyət vasitəsi kimi istifadə edə biləcəklərini sübut edir.

## Ədəbiyyat

1. Falhumaid, K.H. (2020). Qualitative Evaluation: Effectiveness of Utilizing Digital and Social Media in Education. Utopía y Praxis Latinoamericana, vol.25, pp.465-475.
2. Amin, M.N., Hasnan, A.S., and Besar, N.N. (2020). The Utilization of Web 2.0 for Knowledge Sharing: The Case of Tertiary Education in Brunei Darussalam. In Handbook of Research on Managerial Practices and Disruptive Innovation in Asia, pp.1-25.
3. Ajjan, H. and Hartshorne, R. (2008). Investigating faculty decisions to adopt Web 2.0 technologies: Theory and empirical tests. The internet and higher education, 11(2), pp.71-80.

4. McCarroll, N., Curran, K. (2013). Social Networking in Education. International Journal of Innovation in the Digital Economy, 4(1), pp.1-15.
5. Poore, M. (2013). Using Social Media in the Classroom. Replika press.
6. Ravid, G., Kalman, Y.M., and Rafaeli, S. (2008). Wikibooks in higher education: Empowerment through online distributed collaboration. First Monday, 5(3).
7. Hamilton, B. (2009). Young adult literature. Library media Connection, 28(3), p.14-15.
8. Blattner, G., Fiori, M. (2009). Facebook in the language classroom: Promises and possibilities. Instructional Technology and Distance Learning, (ITDL), 6(1), p.17-28.
9. Schaffhauser, D. (2009). Boundless opportunity. T.H.E. Journal, 36(9), pp.13-18.
10. Chetinkaya, L. (2017). The impact of WhatsApp use on success in education process. International Review of Research in Open and Distributed Learning, 18(7).
11. Gordon, L. (2004). The Internet and Young Learners. Oxford University Press.
12. Miller, M.D. (2014). Minds online: Teaching effectively with technology. Cambridge, Massachusetts: Harvard University Press.

Göndərildi: 20.02.2023 Qəbul edildi: 29.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/61-66

**Telli İbrahimova**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
69_cicek_69@ rambler.ru
**İradə Zamanova**
Bakı Dövlət Universiteti
zirada04@gmail.com

# AZƏRBAYCAN ORTA MƏKTƏBLƏRİNDƏ DİSTANT TƏHSİLİN İDARƏOLUNMASINDA DƏYİŞƏN PERSPEKTİVLƏR

**Xülasə**

Təqdim olunan məqalə Azərbaycanda ümumi təhsil məktəblərində distant təhsil sahəsində problemlərin aradan götürülmüəsi sahəsində müasir perspektivlər və yeni modellərin öyrənilməsindən bəhs edir. Məlumdur ki, distant təhsi haqqında müxtəlif sayda tədris proqramlar, təlim materialları, proqram təminatları və yeni sistemlər mövcuddur. Buna baxmayaraq, ümumi təhsil müəssisələrində distant təhsilin idarə olunması sahəsində mövcud problemlər üzə çıxır. Bu problemlər əsasən distant təhsilin pedaqoji-peşəkarlıq, didadktik, texnoloji və təşkilati mexanizmlərinin öyrənilməməsi və bu təhsilin idarə olunmasında sistemli mexanizmin olmamasıdır. Bu məqsədlə, məqalə ümumi təhsil məktəblərində distant sistemli idarə olunması sahəsində bir neçə müasir modelləri təqdim edir. Məqalədə peşəkar, didaktik, texnoloji və təkilati alt sistemlə idarəolunma perspektivlərini təqdim edir, məsafəli təhsilin tarixi inkişafı yollarını, ənənəvi və müasir növləri təklif edir. Məsafəli təhsilin təşkili və idarəolunması sahəsində tədrisin çatışmazlıqları və problemlərin aradan qaldırılması sahəsində bu modellərin idarəetmə mexanizmləri kimi rolu əvəzolunmazdır. Bu məqsədlə, məqalə distant təhsil texnologiyalarının əhəmiyyətli seçimi öyrənənlərin marağına səbəb olacaq və orta məktəblərdə diatnt təhsilin tətbiqi metodikası sahəsində müəllim və şagirdləri maraqlı məlumatlarla təmin edəcəkdir.

***Açar sözlər:*** *distant təhsil, perspektivlər, peşəkar, diadktik, texnoloji, təşkilati sistem*

**Telli Ibrahimova**
Baku Slavic University
Ph.D. in Philology
69_cicek_69@ rambler.ru
**Irada Zamanova**
Baku State University
zirada04@gmail.com

## Changing perspectives in the management of distance education in secondary schools of Azerbaijan

**Abstract**

The presented article deals with the study of modern perspectives and new models in the field of solving problems in the field of distance education in general education schools in Azerbaijan. It is well known that there is a wide variety of distance learning programs, training materials, software, and new systems available. Nevertheless, existing problems in the field of distance education management in general educational institutions are revealed. These problems are mainly the lack of study of the pedagogical-professional, didactic, technological and organizational mechanisms of distance education and the lack of a systematic mechanism for the management of this education. For this purpose, the article presents several modern models in the field of remote system management in general education schools. The article presents the perspectives of

management with professional, didactic, technological and innovative subsystems, suggests the ways of historical development of distance education, traditional and modern types. In the field of distance education organization and management, the role of these models as management mechanisms is irreplaceable in the field of teaching deficiencies and elimination of problems. For this purpose, the article will attract the interest of students who are studying a significant selection of distance education technologies and will provide teachers and students with interesting information in the field of the methodology of the application of distance education in secondary schools.

***Keywords:*** *distance education, perspectives, professional, didactic, technological, organizational system*

## Giriş

Təhsildə texnoloji inkişaflar qlobal informasiya cəmiyyətində yeni perspektivlərə yol açır və yeni təhsil modelləri üçün zəmin yaradır (Anderson, 2008). Ümumi təhsil sistemində innovasiyaların öyrənilməsi və tətbiqi interaktivlik və virtual rekonstruksiyanı özündə birləşdirir, yeni təlim mühitinin yaranmasına səbəb olur. Bu cür təlim mühitinin əsas xarakterik cəhəti virtual məkanlar və virtual mühitin yenidən qurulmasına əsaslanır (2; İsmayılova, 2014; Kuliyeva, Rasulova, 2016).

Ümumi təhsil məktəblərində *"distant təhsil"* anlayışı İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) sahəsində sürətli inkişafı ilə sıx bağlıdır. Son iki il ərzində bu anlayışın daha çox işlənməsi təhsildə daha çox işlənməyə başaldı və təlimin təşkilində qabaqcıl müəllm kütləsinin yaranmasına səbəb oldu. Məlumdur ki, virtual ünsiyyət və sosial cəmiyyətdə rəqəmsal texnologiyaların öyrənilməsi və tətbiqi cəmiyyətin tələbləri və baxışlarını düzgün formalaşmasına xidmət etməlidir. Bu məqsədlə, təhsilin bu forması təkcə texnoloji bilikləri deyil, eyni zamanda texnoloji davranı mədəniyyətini də formalaşdırır və təhsildə sinergetik sistemin imkanlarını artırır. Aydındır ki, distant təhsil üzrə məktəb təkcə məlumat və bilik mənbəyi deyil, eləcə də rəqəmsal dünyanın dinamik bir məkanına çevrilməli və vituallğın sehrini izah edə bilməlidir. Məktəblərdə distant təhsilin idarəolunmasında kompüter vasitəsi ilə müəllim, şagird və valideynlərin birgə fəaliyyətlər əsasında virtual icmaların formalaşması və yeni modellərin yaradılmasına baxışlar yarandı. Məktəblərdə yaradılmış bu virtual icmalar sosial həyatın, o cümlədən təhsilin yenidən konseptuallaşdırılmasına ehtiyac duyur və məqalənin məqsədini zəruri edir (Zhil'tsova, 2007; 7).

**Distant təhsilin tarixi və növləri**

Distant təhsilin orta məktəblərdə tətbiqi metodikasını ilk dəfə elmə gətirən Mur (Moore) Murun fikrincə, *"distant təhsil"*, yəni *"məsafəli təhsil"* termini İKT-nin istifadəsi ilə sıx əlaqəli olduğundan, bəzən bu təlimi *teletəlim, onlayn öyrənmə və elektron təhsil* adı ilə təhsilimizə daxil oldu. Məsafəli təhsil müəyyən bir kommunikasiya texnologiyasından istifadəni vurğulayır, paylanmış təhsil və distant təhsil kimi daim diqqət mərkəzində qalır (Ol'nev, 2011; Brown, 2012).

Son araşdırmalar sübut edir ki, təlimdə açıq öyrənmə və çevik öyrənmə distant təhsil alanların ənənəvi təhsildən fərqli olaraq əldə etdikləri təlim növləridir. *Distant təhsil, virtual təlim, açıq məktəb və açıq təlim* kimi anlayışlar tarixən bir-birini əvəz edərək sonda müəllim və şagirdlərin birgə qlobal ünsiyyətə və təhsildə baş verən yeniliklər üzrə problemlərin həllinə qoşulmağa imkan yaradır (1; Kuliyeva, Rasulova, 2016; 6).

Müasir distant təhsilin məktəblərdə idarə olunmasını reallaşdıran təhsil növləri onun istifadə yollarını dərindən mənimsəməyə əsaslanır. Bir çox inkişaf etmiş ölkələrdə ən çox istifadə olunan distant təhsil sistemləri bunlardır:

- *BlackBoard*
- *Web-CT*
- *Adobe Connect*
- *Openmeetings*
- *Moodle*
- *E-Nocta*

Bu təhsil növləri öz idarəetmə mexanizminə əsaslanır və dəqiqləşdirilmiş iştifadə qaydalarına tabe olmağı tələb edir. İKT tarixinə nəzər saldıqda aydın görmək olar ki, tədqiqatçıların və texnoloqların əsas diqqəti bu təlim növlərindən yerli-yerində istifadə etməyi və uğurlu təlim nəticələri əldə etməyi vacib hesab edirlər. Distant təhsilin bu növləri rəngarəng proqram təminatına, kompüterlə qarşılıqlı əlaqəyə və qlobal kommunikasiya və əməkdaşlıqla bağlı məsələləri həll edə bilir (Brown 2012).

**Hibrid təhsil modeli**

Andersonun (2008) fikrincə, son on ildə virtual məktəblərin artma sürətli təhsildə İKT-nin inteqrasiyası kimi müəllim və şagirdlərin uğur hekayəsinə çevrildi. Bu məqsədlə, distant təhsil tədris və öyrənmənin məkan və zaman baxımından ayırır və bəzi hallarda məktəbi tərk etmə probleminə səbəb olur. Yeni nümunə tədris modeli kimi, *"hibrid"*, yəni qarışıq tədris modeli məktəblərin distant təhsilin idarəolunması sisteminə daxil oldur. Hibrid modeli keys-texnologiyanın və məktəbə qayıdış kimi fiziki dərslərin qarışıq modeli kimi başa düşülür. Bu təlim modeli qarışıq formalar da meydana çıxdı və qarışıq öyrənmə termini tətbiq olundu. Qarışıq öyrənmə proqramlarına real vaxt rejimində virtual əməkdaşlıq proqram təminatı, təhsildə veb-əsaslı kurslar, işə daxil edilmiş elektron performansa dəstək sistemləri kimi öyrənmə vasitələrinin bir neçə forması daxil ola bilər.

Qarışıq öyrənmə üz-üzə sinif otaqları, canlı elektorn təlim və bəzən də öz-özünə öyrənmə də daxil olmaqla müxtəlif hadisə əsaslı fəaliyyətləri birləşdirir. Bu ənənəvi forma müəllimlərin rəhbərlik etdiyi təlim, sinxron onlayn konfrans və ya təlim, asinxron öz-özünə öyrənmə və ya mentordan strukturlaşdırılmış iş başında təlimin qarışığı kimi başa düşülür. Qarışıq öyrənmə adətən korporativ təlim kimi məktəb təhsilinə də nüfuz edərək təlim keyfiyyətini, şagirdlərin ali məktəbə hazırlığı və müəllimin peşəkar inkişafı sahəsində cəlbedici bir təhsil modelidir. Bundan əlavə, Amerika və Avropada hibrid təhsili müstəqil bir təhsil forması kimi başa düşülür və bu təhsil distant təhsilin bir forması kimi yeni texnologiyaların tətbiqi sahəsində aktual bir təhsil növü kimi qəbul edilir (Vygotsky, 1930/1978).

**Distant təhsilin idarə olunması modelləri**

Ümumi təhsil məktəblərində keçirilən dərslərin məsafəli formaya keçməsi bir sıra alt-sistemnlərdən ibarətdir. Bu təhsilin idarə olunmasında, xüsusilə distant tədris və təlim prosesinə aid planlı və təşkil edilmiş təhsil formaları vardır. Burada təlim məqsədyönlü şəkildə planlaşdırılır və tədris planı onlayn vasitəsilə şagirdlərə ötürülür. Şagirdlərin nəyə yiyələnməli olduğunu əvvəlcədən müəyyənləşdirilir; tədris və təlim materialları məntiqi ardıcıllıqla seçilir və zamana bağlı vahidlər silsiləsi kimi hər mərhələsində əvvəlcədən proqnozlaşdırılan metod və üsullar planlaşdırılır, sistemli və düşünülmüş şəkildə müəyyən edilir. Nəhayət, distant tədris və təlim mütəşəkkil fəaliyyət kimi konkret məkanda, müəyyən vaxtda müəllim tərəfindən həyata keçirilir. Distant tədris və təlim prosesinin sistemli iadrəolubnmasında dörd mühüm interaktiv alt sistem bir-biri ilə əlaqəli şəkildə həyata keçirilir. Bunlara: *peşəkar, texnoloji, təşkilati və didaktik alt sistemlər* daxil edilir (Kuliyeva, Rasulova, 2016; 6).




**Şəkil 2. Distant təhsilin məktəblərdə idarəolunması modeli (2008)**

a) Distant tədrisdə *peşəkar alt sistemi* tədris və təlim materiallarının qısa və uzunmüddətli hazırlanmasına əsaslanır (şəkil 2). Burada şagirdlrə mövzu və onlayn resursların seçilməsi imkanl verilir. Müəllim eyni mövzunu şagirdlər müxtəlif formada öz bilikləri çərçivəsində hazırlamağı tapşırır. Bu mövzualr müxtəlif fənlər çərçivəsində verilə bilər və şagirdlər öz peşəkar bacarıqlarıni inkişaf etdirməlidirlərr. Bu idarəetmə sistemində müxtəlif veb-2 alətlərinin tətbiqi, vebquestlərdən və müxtəlif proqramlardan istifadə edib maraqlı performanslar nümayiş etdirməlidirlər. Şagirdlərin müəllim kimi fəaliyyət göstərə bilməsi onun bilikləri əsasında dəqiq xüsusi məlumatı seçmək bacarığı qazandırır. Bu təlim modeli kurrikulumun tərkib hissəsi kimi fənlərin tədrisi qaydasını, habelə onlara verilən vaxt müddəti, fənn üzrə əldə etməli olduqları biliklərin həcmi təyin edilir, nəzərdə tutulan məqsədlərin həyata keçirilməsinə kömək edən dərs planını nəzərə almağı qeyd olunur. Beləliklə, peşəkar alt sistem dəqiqliyə və düzgünlüyə, bundan əlavə tədris və təlim materiallarının uyğunluğuna, eləcə də sistemli idarəetməyə əsaslanır. Bu sistem şagirdin inkişafında göstərilən hörmətə və onun nəzəriyyə ilə praktika arasında əlaqə yaratmaq qabiliyyətinə əsaslanır. Bu alt sistem şagirdlərin irəliləyişlərini və uğurunun qiymətləndirilməsi və təkmilləşdirilməsini də göstərir.

- *Uyğunluq, yəni tədris proqramına uyğun olamlıdır;*
- *Real, yəni obyektiv təlim mühiti olmalıdır;*
- *Rasional,yəni əlim psixologiyası nəzəriyyələrinə əsaslanmalıdır;*
- *Qiymətləndirməyə əsaslanmalıdır, yəni tədris və təlim prosesində şagirdin əldə etdiyi bilik və bacarıqlar müxtəlif üsullarla qiymətləndirilməlidir.*

b) Distant tədrisin və təlimin *texnoloji alt sistemi* təlimin keyfiyyəti üçün istifadə olunan təhsil texnologiyalarından asılıdır, onları əsasən iki qrupa bölmək olar - bir tərəfdən inkişaf texnologiyaları və təlim materiallarının işlənib hazırlanmasında istifadə olunan proqram və texniki vasitələrdən ibarətdir. Beləliklə, texnoloji alt sistem aşağıdakıları müəyyən edir (Simonson, 1999):

- Yekun məhsullar, yəni tədris və təlim materialları, məsələn, çap materialları, veb-əsaslı materiallar, səs əsaslı materiallar, videolar və s.;
- Distant tədris və təlim proseslərinin icrasını təmin edən proqram alətləri;
- Proqram alətləri yəni, proqramlaşdırma dilləri, qrafik alətlər, multimedia vasitələri, müəllif sistemləri və s.;
- Lazım olan əsas avadanlıqlar tədris və təlim materiallarının inkişafı.

c) *Didaktika alt sistemin* distant təhsildə idarə olunması təhsilin informasiyalaşdırılması şəraitində müxtəlif fəaliyyət formalarını təklif edir. Bütün təhsil sistemləri kimi distant təhsil sisteminin də öz struktur məqsədi, məzmunu, metodları, alətləri və təşkilati formaları daxildir. Məlumdur ki, distant təhsil sistemi didaktik şərtlərə əsaslanan təlim sistemidir. Buna misal olaraq diatant təhsilin didaktik alt sistemi əsasən *audio-video informasiyaların, tədris-əyləncə, eksperimental-tədqiqat, məlumatları əldə etmək, saxlamaq, emal etmək və tövsiyə* etmək üçün müstəqil fəaliyyətləri seçir. Didaktik aspektlərinin məsafəli təhsildə ümumiləşdirilməsi müəllim və şagirdlərin əlaqəli fəaliyyət sahələrində reallaşır (Zorpe, 2001):

- distant təhsilin didaktik təminatı psixoloji, pedaqoji, informasiya və təhsil resursların praktiki fəaliyyətlə, ətraf mühit, sosial məkannın seçilməsinə, əyləncəli fraqmentlərin təyin edilməsinə və yaradıcı işlərin nümayişinə inteqrasiyası nəticəsində mümkündür;
- hər hansı informasiya və təhsil resursu şagirdlər tərəfindən fənnin dörd səviyyədə mənimsənilməsini, *reproduktiv, alqoritmik, evristik, tədqiqat kimi* nəzərdə tutan inkişaf etdirici təhsilə mənimsənilməsinə yönəldilməlidir;
- informasiya və təhsil resurslarının məqsədi bütün fənlərin tədrisində texnoloji yanaşmanın həyata keçirilməsinə istiqamətlənməlidir;
- fəal didaktik yanaşma distant təhsildə müstəqil və ya fərdi fəaliyyət amilini həyata keçirir və təlimin yaradıcılığını təşkil etməlidir;
- Distant təhsilin effektivliyinin ən mühüm amili virtual təhsil mühitində təlim fəaliyyətinin unikallığını nəzərə almaqla onun psixoloji əsaslarıdır (Vedemeyer, 1981).

d) *Təşkilati alt sistem* distant təhsil sisteminin optimallaşdırılması və rasionallaşdırılmasına əsaslanır. Təşkilati alt sistemdə şagirdlərin virtual təlimə qoşulması üçün təşkilati işlər planlaşdırılır. İlk öncə, şagirdlərin sayı, təlim məkanı seçilir, texniki avadanlıqlar çevikliyi proqnozlaşdırılır və nəzərdən keçirilir. Virtual səhifənin hazırlığı üçün proqram təminatı təşkilati alt sistemə daxil olan sahələr aşağıdakı kimi müəyyən edilir (Vheeler, 2002).

**Cədvəl 1.**
**Distant təhsilin təşkilati alt sistemlə idarəolunması**

| Təşkilatı alt sistem | Fəaliyyətlər |
|---|---|
| Dərs cədvəli | Dərslər intervalla verilməsi yoxlanılır |
| Zoom (teams) cədvəli | Zoom və ya teams linki yerləşdirilir |
| Elektron jurnal | Elektron jurnal üzrə şagirdlərin adı, familiyası və davamiyyəti yerləşdirilir |
| Təqvim planı | Dərslərin həftənini hansı günündə olması qeyd olunur |
| Siniflər və uşaq sayı | Hər sinif üzrə şagird sayı yoxlanılır |
| Tədris materialları | Yarımilliklərdə keçiriləcək mövzular daxil edilir |
| Elektron resurslar | Şagirdlər üçün onlayn resurslar və linklər əlavə edilir |
| Ev tapşırığı | Ev tapşırığının həcmi və vaxtı qeyd olunur |
| Qiymətləndirmə | Qiymətləndirmə meyarları və bal sistemi təyin edilir |

Verilmiş modeldə təşkilati işin keyfiyyətli alınması yolları mütəqil təhsil modelindən paylanmı sinif otağı və aşıq sinif modeli üzrə fəaliyyətlər də tarixə əsasən dəyişilərək verilir (cədvəl 1).

- Müstəqil təhsil modeli
- Paylanmış sinif otağının modeli və
- Açıq və sinifdə təhsil modeli

## Nəticə

Beləliklə, orta məktəblərdə distant təhsilin idarəolunması sahəsində müasir modelləri və yeni perspektivləri bu təhsilin keyfiyyətli nəticələrinin əldə olunasmına xidmət edir. Araşdırmalar sübut edir ki, orta məktəblərdə distant təhsilin idarə olunması dəqiqləşdirilmiş bir sistemlə idarə olunmalıdır. Müəllim və şagirdlərin üzləşdiyi çətinliklərin aradan götürülməsində müasir model kimi hibrid təhsil sistemi məktəb təhsil sistemindən kənarlaşmamaq məqsədi ilə şagirdlərin yorğunluğunu aradan götürür və yenidən məktəbə qayıdış həvəsini artırır. Məqalə eyni zamanda distant təhsilin sistemli idarə olunması sahəsində yeni perspektivlər kimi şagirdlərin peşəkar, didaktik, texnoloji və təşkilatı alti sistemnimin həm texnoloji biliklərin artmasında, həm də texnoloji mədəniyyətin formalaşmasında rolunu geniş izah edə bilmişdir. Məqalə həm elmi cəhətdən, həm də metodiki cəhətdən məktəb idarəçiləri, müəllimlər və şagirdlər üçün ən uğurlu bir məlumat mənbəyi ola bilər.

## Ədəbiyyat

1. Anderson, T. (2004). Toward a Theory of Online Learning. In Anderson, T. & Elloumi, F. (Ed.). The theory and practice of online learning. Athabasca University Press, 33-60.
2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2014-cü il tarixli Sərəncamı.
3. İsmayılova, B. (2014). Distant təhsil: üstünlüklər, çatışmazlıqlar və müsbət təcrübə. “Elektron dövlət quruculuğu problemləri” I Respublika elmi-praktiki konfransı, 4 dekabr.

4. Kuliyeva, Sh., Rasulova, Z.D. (2016). Formirovaniye professional'no-pedagogicheskoy kompetentnosti budushchikh spetsialistov na osnove informatsionnykh tekhnologiy. Molodoy uchonyy, 112:8, s.977-978.
5. Zhil'tsova, V.I. (2007). Predmetnyye informatsionnyye sistemy v distantsionnom obuchenii. V.I.Zhil'tsova. Izvestiya Ural'skogo gosudarstvennogo universiteta. № 50, s.36-40.
6. Aslantash T. (2014). «Distance Education, Distance Education Technologies and an Application in Turkey». http://www.tankutaslantas.com/wp-content/uploads/2014/04/Uzaktan-E%C4%9Fitim-Uzaktan-E%C4%9Fitim-Teknolojileri-ve-T%C3% BCrkiyede-bir-Uygulama.pdf
7. Ol'nev, A.S. (2011). Ispol'zovaniye novykh tekhnologiy v distantsionnom obuchenii. Aktual'nyye problemy sovremennoy nauki. №1, s.96.
8. Brown, J.L. (2012). Online Learning: A Comparison of Web-Based and Land-Based Courses. Quarterly Review of Distance Education, 13(1).
9. Vygotsky, L.S. (1930/1978). Mind in Sosiety: Ze development of hiğer psyçologisal prosesses. Sambridge, M.A. Harvard University Press.
10. Simonson, M. (1999). Equivalensy zeory and distanse edusation. TechTrends, 43(5), 5-8.
11. Zorpe, M. (2001). Rezinking learner support: ze challenge of sollaborative online learning. Paper presented at SSROLLA Symposium on Informing Prastise in Netvorked Learning, Glasgov, 14 November, Retrieved July 6, 2008 http://vvv.ssrolla.as.uk/papers/s1/zorpe_paper.html.
12. Vedemeyer, S. (1981). Learning at ze bask door: Refl estions on non-traditional learning in ze lifespan. Madison: University of Vissonsin Press.
13. Vheeler, S. (2002). Student Perseptions of Learning Support in Distanse Edusation. Quarterly Reviev of Distanse Edusation, 3(4): 419-430.

Göndərildi: 22.01.2023 Qəbul edildi: 15.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/67-72

**Sevda Novruzəliyeva**
Azərbaycan Tibb Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevda.novruzaliyeva@mail.ru
**Nüşabə Əliyeva**
Azərbaycan Tibb Universiteti
nushabe.aliyeva@bk.ru

# KOMMUNİKATİV PROSESDƏ POZİTİV SÖZ

**Xülasə**

Az söylənən söz, xoş söylənən söz kommunikativ prosesə bəzək verən faktorlardır. Bu ikisi danışanla dinləyən arasında xoş ovqat, qarşılıqlı etibar və məmnunluq yaradır.

Məqalənin girişində sözün pozitiv və neqativ qollarından danışılır. Mətn hissəsində az söylənən sözdən, xoş söylənən sözdən 16 sitatın işığında bəhs açılır. Nəticə hissəsində məqalədə alınan nəticə açıqlanır.

Ümid edirik ki, yenilikçi ruhda yazılan bu məqalə oxucuların diqqətini çəkəcək, onlarda xoş təəssürat yaradacaq.

***Açar sözlər:*** *kommunikasiya, internet, pozitiv söz, neqativ söz, az söylənən söz, xoş söylənən söz*

**Sevda Novruzaliyeva**
Azerbaijan Medical University
Ph.D. in Philology
sevda.novruzaliyeva@mail.ru
**Nushaba Aliyeva**
Azerbaijan Medical University
nushabe.aliyeva@bk.ru

## Positive word in the communicative process

**Abstract**

A little spoken word, a kind spoken word are factors that embellish the communicative process. These two create a pleasant feeling, mutual trust and satisfaction between the speaker and the listener.

The introduction to the article speaks of the positive and negative branches of the word. In the text part, the mention opens in the light of 16 quotes from the word that is said little, the word that is said pleasantly. In the conclusion section, the conclusion obtained in the article is disclosed.

We hope that this article, written in an innovative spirit, will attract the attention of readers and make a good impression on them.

***Keywords:*** *communication, internet, positive word, negative word, little said word, kind word*

*Be careful with your words. Once they are said,*
*they can only be forgiven, nor forgotten.*

**Sözlərinizə diqqət edin. Bir dəfə söyləndilərmi,**
**onları unutmaq yox, ancaq bağışlamaq olar.**
Budda

## Giriş

İnsan düşüncəsindən qaynaqlanan, kommunikativ prosesin dominantı (aparıcısı) olan söz pozitiv və neqativ olmaqla iki qola ayrılır. Söz gərəkli, xoşa gəlimli, motivasiya edici, ümid verici, tərbiyə edici, nəzakət yayıcı, sevgi paylayıcı, barış ötürücü, qərəzdən, qeybətdən, eqodan uzaq olanda, yerində səslənəndə pozitiv olub ürəklərə yol açır, arzulara qol-qanad verir, insanların potensialını (mənəvi gücünü, bacarığını, istedadını) üzə çıxarır, yaşayıb yaratmaq həvəsini artırır. Söz gərəksiz, xoşa gəlməz, motivasiyadan yayındırıcı, ümidsizlik verici, savaş gətirici, ədəbsiz, nəzakətsiz, sevgisiz, qərəzli, dedi-qoduçu, eqolu olanda, yerində səslənməyəndə neqativ olub ümid və sevgi bağlarını qırır, yaradıcı həvəsləri yox edir, motivativ planları puç edir, həyatın bir cəhənnəmə dönməsinə yardımçı olur.

*Mətn.* Dəyərli sözün ömrü bitmir, zaman keçdikcə siqlətini (potensialını) itirmir. Beyində fikrin, danışıqda cümlənin formalaşmasında sözün rolu danılmazdır. Professor Fikrət Aslananovun fikrincə, "*Dilin ən kiçik müstəqil vahidi olan sözün iştirakı olmadan fikrin ifadəsinə xidmət edən cümlələrin formalaşması qeyri-mümkündür*" (Aslanov, 2016: 13). Zamanın ruhu olan, olub keçənləri gələcək nəsillərə ötürən söz ulu Tanrının insanlara bağışladığı ən ali bir mənəvi nemətdir. Qumrunun naləsi də, bülbülün ötməsi də, küləyin əsməsi də, yağışın yağması da, bir sözlə, təbiətin qoynunda baş verən hər proses bir sözdür, bir informasiya daşıyıcısıdır. Xalq yazıçısı Sabir Rüstəmxanlı demişkən, "*Bu dünyada hər şey keçib gedir. Saraylar dağılır, xəzinələr dolub boşalır, zülm və istibdad maşınları acı xatirəyə dönür, ancaq Söz qalır*" (Rüstəmxanlı, 2019: 547).

Söz ayrılıqda tutumlu olmur, bütün incəliklərini göstərə bilmir. "Agac" ayrılıqda budaqları və bərk gövdəsi olan bitkidir. Amma o, konkret kontekstə girəndə yüzlərlə mənaya yüklənir. Professor Səlim Cəfərov tam doğru buyurur ki, "*Söz dil vahidi kimi öz təbiətinin dolğunluğunu və həqiqi mənasını əlaqəli nitq daxilində biruzə verir*" (Cəfərov, 2007: 12).

**Az söylənən söz pozitiv nitq olaraq**

Dünya elə yaranıb ki, orda hər şey gözəl, könül oxşayan, zövq verici, ömür uzadıcı olandır, bu şərtlə ki, onlar balanslı olsun (aşırı olmasın, ölçünü keçməsin). Balansdan aşağı və yuxarı olanlar təbiətin qanunlarına qarşı olduğu üçün fayda verici olmurlar. Balansa (müvazinətə) uyğun olanlar həyat verici olurlar. Varlıqlar içində söz üstün bir varlıqdır, insanın kimliyini ortaya qoyan bir Tanrı payıdır. Söz bir gözəl nemət olaraq ikiqat dəyərə, sayğıya sahiblənər, əgər aşırı olmayıb az ola. Az sözün gücü, potensialı, təsir imkanları, manevr etmə bacarığı, yaddaşlara həkk olma şansı, reeallaşma yolu daha asandır, çox söz isə bu sayılan faktorlardan məhrumdur. Böyük yunan filosofu Pifaqor (e.ə 623-544) çox sözlə az mənanı qınayaraq, az sözlə çox mənanı öyərək, 27 əsr öncə insanlara (müdrik olmaq istəyən, sayğı və sevgiyə yiyələnmək arzusunda olan kimsələrə) ərməğan olaraq deyib ki, "*Do not say a little in many words, but a great deal in few*" (Avreliy, 2011). Sözlərinin sayı az olan, amma məna tutumu əbədiyaşar olan bu sitatı ingiliscədən belə çeviririk, *"Çox sözlə az şey deyil, bir neçə sözlə çox şey söyləyin".* Filosofun dediyindən bu mesajı alırıq, bir neçə sözlə o kəs çox şey deyə bilər ki, onun elmi olsun, ingilislərin "mind", rusların "razum", azərbaycanlıların və türklərin "zəka" adlandırdığı bir anlayışa yiyə dursun. Deməк, elm ilə zəkanın bədii nikahından qaynaqlanan söz qısa və lakonik olsa da, möhtəşəm olur.

Əgər birisi sözünün lakonik (qısa və aydın) olub, siqlətli (məna baxımdan tutumlu) olmasını, ürəklərə yol tapmasını, sevgi və sayğıya vəsilə olmasını istəyirsə, gərək o kəs müdrik ola (elmi, zəkası, xeyirsevərliyi, pozitivliyi olsun).

İngilislərin "wise", rusların "mudrıy", türklərin "müdrük", azərbaycanlıların "müdrik" anlayışa çatmağın ilkin və aparıcı şərti çox susub insanları dinləmək bacarığıdır. Bu prosesi keçmədən bir kimsə müdrik ola bilməz, olmaq istəsə də. Pifaqor buyurur ki, "*Listen, you will be wise. The beginning of wisdom is silence*". Sonsuza qədər diri qalacaq bu kəlamı bütün dünyanın dominant (aparıcı) dilindən azərbaycancaya bu cür tərcümə edirik, "*Dinləyin ki, müdrik olasınız. Müdrikliyin başlanğıcı susmaqdır".*

Bu həyatda dahilər xoşbəxtlik anlayışı üçün yüzlərlə örnək veriblər. Biz bu məqalədə Qautama Buddanın variantı üzərində dayanırıq. Onun dedikləri daha sadə, daha həyati, daha real gözə

çarpırlar. "Xöşbəxtlik üçün yeddi pillə" anlamında "Seven steps to happiness" başlığında o, yeddi pilləni önəminə görə sıralayır, az çoxa qarşı olmaqla (Annayeva, 2011):

| | |
|---|---|
| *1.Think less, feel more.* | *Az düşün, çox hiss et.* |
| *2. Frown less, smile more.* | *Az qaşqabaq tök, çox gülümsə.* |
| *3.Talk less, listen more.* | *Az danış, çox dinlə.* |
| *4.Judge less, accept more.* | *Az suçla, çox məmnun ol.* |
| *5.Watch less, do more.* | *Az bax, çox çalış.* |
| *6.Complain less, appreciate more.* | *Az gileylən, çox dəyərləndir.* |
| *7.Fear less, love more.* | *Az qorx, çox sev.* |

Bu başlığın önəmi odur ki, o, insanları neqativ olanlardan – aşırı düşüncədən, aşırı qaşqabaqdan, aşırı danışıqdan, aşırı suçlamadan, aşırı baxmaqdan, aşırı gileydən, aşırı qorxudan saqındırır. İkinci önəmi odur ki, insanlara pozitiv olanları – çox hiss etməni, çox gülümsəməni, çox dinləməni, çox məmnun olmanı, çox çalışmanı, çox dəyər verməni, çox sevməni aşılayır.

Həyatda hər şeyin başı düşüncədir. Başqa sözlə, düşüncə doğru olsa – insan doğru olar, yalnış olsa – insan yanlış olar. Bu başlığın da birinci pilləsi düşüncədir. Həyatda hər şey sevgiyə bağlıdır. Bütün kainatı yönəldən yalnız sevgidir. Sevginin olduğu yer gözəllik oylağı olur, olmadığı yer isə xarabalıq olur. Bir insanın Tanrının yaratdıqlarına sevgisi olsa – Tanrının qulu olur, sevgisi olmasa – şeytanın qulu olur. Bu başlığın da sonu sevgi ilə bitir.

Ana təbiətin insana keçici olaraq verdiyi hər orqanın ən azı bir funksiyasi var. Gözlər yaxşını da, pisi də görüb, sintez (yoxlanış) üçün beyinə ötürürlər. Qulaqlar yaxşını da, pisi də eşidib, sintez üçün beyinə yollayırlar. Bircə dil vardır ki, sintezdən keçənləri səsləndirir. Deməк, insan pis nəsə deyirsə, pis nəsə edirsə, onun gözləri, qulaqları və dili məsuliyyət daşımırlar, yalnız qəlbi məsuliyyət daşıyır. Odur ki, xöşbəxt olmaq istəyən insan öz qəlbini saf saxlamalıdır. Qəlbin saflaşmasının bir yolu var, o da düz danışmaq, xeyirsevər olmaq, əməksevər olmaqdır. Bu üçündən tam keçən tam xoşbəxt olur, qismən keçən isə qismən xobəxt olur. "İki göz + iki qulaq + bir dil" əməliyyatından bu anlaşılır ki, insan iki görməli, iki eşitməli, bir deməlidir. Doğrusu, ağıllı insanın dediyi onun gördüyünün və eşitdiyinin beşdə biridir. Göründüyü kimi, ağıllı insanın dinlədiyi dörd söz olur, səsləndirdiyi isə bircə söz. Yunan filosofu Sokrat (e.ə.470-399) tam yerində buyurub ki, *"Nature has given us two eyes, two ears, but only one tongue so that we look and listen more than we speak"* (Borokhov, 2003). Bu əbədiyaşar kəlamı dünyanın dominant dili olan ingiliscədən dilimizə belə çeviririk, *"Təbiət bizə iki göz, iki qulaq, yalnız bircə dil verib ki, biz dinib danışmaqdan çox baxaq və dinləyək"*.

Təklik ulu Yaradanın dəyişməz özəlliyidir. Qalan bütün varlıqlar, o sıradan insanlar ikili (bir-birinə qarşı olan) özəlliklərə sahibdirlər. İnsanların ağıllısı olduğu kimi, sarsaq olanı da var. Ağıllı və sarsaq olanın fəlsəfə və psixologiyada açıqlamaları çoxdur, bəlkə də yüzlərlədir. Dünyanın ən böyük filosofu Aristotel (e.ə 384-322) bu iki insan tipini bir-birindən ayıraraq, çox görüb (çox dinləyib) az deyəni "müdrik" adlandıraraq, bildiyindən çox danışanı isə "sarsaq" vurğulayaraq deyir ki, "*The difference between a wise and foolish man is this: the former sees much, but says little, the latter speaks more than he knows" (*Aristotel, 1989: 130). Bu müdrik kəlam ingiliscədən təqdimatımızda belə səslənir, *"Müdrik ilə sarsaq arasında fərq budur: ilkin olan çox görür, amma az deyir, ikinci olan bildiyindən çox danışır"*. Bu kəlamın ingiliscə variantında müdrik üçün "deyir" mənasında "says" feili, sarsaq üçün "danışır" anlamında speaks" feili işlənib. Demək, says "deyir" feili az sözə, speaks "danışır" feili isə çox sözə ünvanlanır. Bu dahinin qədim yunanca bu kəlamı necə yazdığını bilmirik, lakin ingiliscə olanının məna tutumunu, özəlliklə cümlənin taleyini çözüb ortaya qoyan feillərin ruhunu yüzə yüz saxladıq. Göründüyü kimi, bildiyinin çox azını deyən müdrik olur, bildiyindən çox danışan isə sarsaq olur.

Yəhudilərin qanun kitabı olan "Tövrat"da etik məsələlərə çox toxunulur. Onların arasında bu məqalənin araşdırdığı dinləmə və söz söyləmək ilə bağlı olanlar da var. Çox dinləmənin və az danışmanın faydalarından söz açan elmi kitablar, elmi məqalələr çoxdur. Tövratda tövsiyə olunur ki, "*Всякий человек да будет скор на слушание, медлен на слова, медлен на гнев"* (Bibliya, 2005: 245). Bu örnəkli kəlamı ruscadan belə çeviririk, "*Qoy hər kəs dinləməyi tezlətsin, sözlərini*

*yubatsın, hirslənməyi yubatsın*". Burada 3 şairanə ifadə rastlanır. Belə ki, "dinləməyi tezlətsin" çox dinləməyə, "sözlərini yubatsın" az danışmağa, "hirslənməyi yubatsın" az hirslənməyə eyham vurur. Doğrusu, qafiyəsi olmayan nəsr örnəyi eyhamla söz açanda poetik bir səhnə yaranır.

Ağız- sözlərin qorunub saxlandığı bir saxlancdır və saxlanc ona görə bağlı olur ki, ordakılar itbata düşməsin. Saxlancın yiyəsi onu hər zaman yox, gərəkli anlarda açdığı kimi, sözün yiyəsi olan zəkalı insan da ağzını hər zaman yox, yalnız gərəkli anlarda açır ki, ordan inci sözlər, yerinə düşən kəlmələr, barış gətirən ifadələr, ümid bəslədən öyüdlər, motivasiya edici tövsiyələr, çəkindirici bildirmələr süzülsün. Budda 27 əsr öncə ağızdan çıxan az sözü önəmsəyərək, insana dəyər libası geydirən susmanı ondan da üstün sayaraq deyirdi, "*Open your mouth only if what you are going to say is more beautiful than silence"*. İnsan yaşamına gözəl yön verən bu aforizmanı ingiliscədən belə ötürürük, *"Ağzını yalnız onda aç ki, demək istədiyin susmaqdan daha gözəldir*". Demək, az danışmaq gözəlsə, susmaq ondan da gözəldir. Xoş halına o kimsənin ki, onun iki belə özəlliyi var.

Dərmanın azı kimi sözün azı faydalı olur. Aşırı olan dərman orqanizmi heydən salır, iç orqanların işini, ahəngini pozur, bədənə diskomfort gətirir, bir çox fəsadlara, hətta sağalmaz olanlara yol açır. Qənaətlə keçinərək haram tikə yeməyən, ömrü boyu düz davranan, dərin düşüncə sahibi olan həzrət Əli söz ilə dərmanı yan-yana qoyaraq vurğulayır ki, "*Слово как лекарство: малое исцеляет, большее убивает"* (Kojevnikov, 2006: 304). Bütün zamanlar üçün etika və tibb baxımından aktual olan bu kəlamı ruscadan belə veririk, "*Söz dərman kimidir: azı sağaldır, çoxu öldürür*". Dərmanın azı sağaldıb, çoxu öldürüsə, kommunikativ prossesin bir növ dərmanı olan sözün azı həyatverici olur, çoxu həyatı çökdürüb zindana döndərir.

Söz su kimi faydalı bir varlıqdır. Su insan bədəninə düzən verən faydalı bir nemətsə, söz insan mənəviyyatına düzən verən dəyərli nemətdir. Su az içiləndə bədənə nuş olur, normal axarda bədənin çalışmasına səbəb olur. Söz də eynən belədir. Görülən su ilə görülməyən sözü poetik obyekt seçən, suyun və sözün azlığında ölçüyə gəlməz faydaların var olduğunu dərindən anlayan dahi Azərbaycan şairi Nizami Gəncəvi bir öyüd olaraq yazır ki (Nizami, 2014: 107),

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da.
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz.

Şair doğru olaraq az sözü, az danışmağı inciyə (qızıla, brillianta, mirvariyə, bahalı daş-qaşa) bənzədir. Bu dəyərli metallar az olduğundan bütün zamanlar boyu dəyər tapıblar, əziz olublar, qızgəlinlərin gözəlliyinə gözəllik qatıblar, baxanların zövqünü oxşayıblar. Şair çox sözü, çox danışmağı kərpicə bənzədib. Kərpicin nə dəyəri var ki, çox sözün də olsun. İnsanı dəyərə, sayğıya çatdıran hər şeyin, o sıradan sözün azlığıdır, əsla çoxluğu deyil.

Ağıllı insanın nəyi var, onun azını deyər, azını göstərər, qalanını gizli saxlayar. Ağıllı insan bildiyinin azını deyər, qalanını gizli saxlayar. Hər iki durumda o, qazanır. Çünki varının, sözlərinin hamısını bilsələr, onun varına, biliyinə göz dəyər, get-gedə uğursuzluğa tuş gələr, üstəlik, varına göz dikərlər, sözlərindən ona qarşı istifadə oluna bilər. Demək, olanının azını göstərmək, bildiyinin azını söyləmək doğru və faydalı bir işdir. Hər iki durum ağıldan qaynaqlanır, bunları ağılsızın birisi edə bilməz. Dahi ingilis dramaturqu Vilyam Şekspir (1564-1616) vurğulayır ki, *"Have more than you show, speak less than you know"* (Kojevnikov, 2005: 109). Bu ingiliscə aforizmanı dilimizə belə çeviririk, *"Çoxunu saxla - azını göstər, bildiyin nə oldu, azını söylə"*.

**Xoş söylənən söz pozitiv nitq olaraq**

Hər şeyin ən gözəli var, sözün ən gözəli, qənaətimizcə, xoş söylənən sözdür. Xoş söz sərhəd tanımır, ürəkləri fəth edir, düşmənçilik bağlarını kəsib qırır, dostluq körpülərini qurur, barış üçün maneələri aradan qaldırır, sevgi və sayğı toxumlarını səpir. Belə söz xoş bir aura və ovqat yaradır,

insanların ruhunu oxşayır, qəlbin mərhəmət qapılarını açır. Xoş söz dünyamızı gözəlləşdirən bir mənəvi müalicə olub, küsülü və kinli ürəkləri yumşaldır. Xoş söz həyatı mənalı bir məkana çevirir, onun gözəlliyinə məna və gözəllik qatır. Xoş söz ömrü uzadır , insanın iç dünyasına güvən, ümid və motivasiya sızdırır. Xoş söz səmimi bir söz olaraq sevgi, sayğı, mərhəmət, şəfqət adlı platonik dördlükdən törənir. Xoş söz sadalanan dördlüyü daşıyan bir ürəkdən pərvazlanıb, küsülü, kinli, acıqlı, incinmiş ürəklərə eniş edərək, orada pozitiv dəyişikliklərə yol açır. Xoş bir sözü ziyafətdən (yiyib-içmə məclisindən) üstün sayan Çanakya adli qədim Hind qaynağının informasiyasına görə, *"Не столько угощением доволен человек, сколько теплым словом и уважением"* (Kojevnikov, 2006: 212). Ruscadan tərcuməmiz belə səslənir. *"İnsan səmimi bir sözdən və sayğıdan məmnun olduğu qədər ziyafətdən məmnun olmur".*

Allaha və Axirət gününə inanmaq din olaraq islamı qəbul etmənin iki aparıcı şərtidir. Bu iki önəmli faktora çatan insan pis işlərdən uzaq durmalı, yaxşı işlər görməli , xoş sözlər söyləməlidir. O, düşdüyü bir durum üzündən pis söz deməyə məcbur olsa da, o sözü deməli deyil, belə halda susmalıdır. Çünki susmaq pis söz deməkdən həm dini, həm etik baxımdan daha faydalıdır. İslam Peyğəmbərinin dediyinə görə "*Allaha və Axirət gününə inanan kimsə ya xoş söz söyləsin ya da sussun*" (Fəzilətli əməllər, 2022: 518).

Hər bir dahinin necə insan olduğunu, hansı əqidə daşıyıcısı olmasını, hansı davranışa sahib olduğunu onların insanlara ərməğan qoyduğu hikmətli kəlamlardan bilinir. Belə ki, Nizami Gəncəvi xeyirxah, az danışan , xoş danışan, kimsəyə pislik etməyən, tanrısevər olduğunu əsərlərində dəfələrlə vurğulayır. ABŞ-ın siyasi xadimi Bencamin Franklin (1706-90) kimsənin pisinə danışmayıb, tanıdığı hər kəsin ünvanına yalnız xoş sözlər deyib. O yazir ki, *"Я ни о ком не буду говорить плохо, но расскажу все хорошее, что знаю о каждом"* (Kojevnikov, 2005: 303). Ruscadan tərcüməmiz belə səslənir. *"Bir kimsə üçün pis demərəm, amma tanıdığım hər kəs üçün yalniz yaxşını danışacağam".* Ürəkdən söylənən xoş sözlər dinləyənin ruhunda və ürəyində xoş izlər qoyur, gözəl ovqat yaradır. Xoş duyğularla söylənən xoş sözlər ürəyi yumşaldır, tonusunu oxşayır, ritmini rahatladır. Fransız riyaziyatçısı, yazarı Blez Paskal (1623-62) xoş sözlərin ünvanına deyir ki, *"Добрые слова оставляют в душах людей прекрасный след. Они смягчают, утешают и исцеляют сердце того , кто их слышит"* (Kojevnikov, 2005: 41). Ruscadan tərcüməmiz belə səslənir, "*Xoş sözlər insanların qəlblərində gözəl bir iz qoyur. Onlar dinləyənin ürəyini yumşaldır, rahatladır və sağaldır*".

Xoş sözlər qısa ola bilər, uzun da. Təklikdə söylənə bilər, bir çoxunun yanında da. Çəkinə-çəkinə deyilə bilər, çəkinməyərək də. Fərq etməz, xoş sözlər hər zaman və hər yerdə arzu olunan, gərəkli olan, gözəl atmosfera yaradandır. Xristianlıqda xeyirxahlığın, sevginin və sayğının carçısı kimi tanınan Tereza Ana (1910-97) vurğulayır ki, "*Kind words can be short and easy to speak. But their echoes are turly endless".* Xoş aura yaradan, sevgiyə platonik görkəm verən bu kəlamı ingiliscədən bu cür tərcümə edirik, *"Xoş sözlər qısa və asan söylənə bilər, amma onların əks-sədası, doğrudan da, əbədiyaşardır".*

## Nəticə

Kommunikativ prosesdə pozitiv söz bütün zamanlarda dünyanın hər yerində aktual olub, indi də aktualdır.

Bu məqalənin aktuallığı odur ki, ünsiyyət zamanı az söylənən sözün, xoş söylənən sözün pozitivliyini (faydalı olmasını) ingiliscə və rusca olmaqla 16 sitatın işığında, məqalə müəllifinin tərcüməsində və kimsənin rəyindən qaynaqlanmayan açıqlamalarında təqdim olunur. Bu yenilikçi yanaşma imkan verər ki, filoloq, psixoloq, filosof olan elm adamları məqalənin incəliklərindən gərəyincə bəhrələnsinlər.

Pozitiv söz təkcə az söylənən söz, xoş söylənən söz deyil. Pozitiv söz həm də zəngin olan söz, aydın söylənən söz, yerində deyilən söz, sevgi gətirən söz, sayğı artıran söz, barış gətirən sözdür. Gələcək yazılarımızda sözün mənəvi gücünü ortaya qoyan bu altısına toxunacağıq.

## Ədəbiyyat


1. Aslanov, F. (2016). Cümlədə söz sırası və cümlə üzvlərinin sırası. ADU-nun Elmi Xəbərləri jurnalı, № 2, s.13.
2. Rüstəmxanlı, S. (2019). Özümüzdən böyük sözümüz. Bakı: "Qanun", 656 s.
3. Cəfərov, S. (2007). Azərbaycan dili. Leksika. II hissə. Bakı: "Şərq-Qərb", 192 s.
4. Avreliy, M. (2011). Nayedine s soboy. Moskva: "Astrel", 200 s.
5. Annayeva, L. (2011). Zolotyye zakony Pifagora. Moskva: "Amrita", 153 s.
6. Borokhov, E. (2003). Entsiklopediya aforizmov. Moskva: "AST", 686 s.
7. Aristotel'. (1984). Sochineniya, Tom 4. Moskva: «Mysl'», 828 s.
8. Bibliya. (2005). Moskva: «Mysl'», 821 s.
9. Kozhevnikov, A. (2006). Mudrost' vekov. Vostok, Sankt-Peterburg: «Neva», 544 s.
10. Nizami Gəncəvi. (2014). Leyli və Məcnun. Bakı: "Şərq-Qərb", 220 s.
11. Kozhevnikov, A. (2005). Mudrost' Zapada. Sankt-Peterburg: «Neva», 443 s.
12. Fəzilətli əməllər. (2022). IV nəşr. Bakı: "Elm və təhsil", 477 s.


Göndərildi: 19.01.2023 Qəbul edildi: 20.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/73-80

**Arəstə Xudiyeva**
AMEA Folklor İnstitutu
dissertant
lalka81@live.co.uk

# ANQLO-SAKSONLARDA VƏ AZƏRBAYCAN TÜRKLƏRİNDƏ ADVERMƏ VƏ ANTROPONİMLƏRİN TİPOLOGİYASI (EPİK MƏTNLƏR ƏSASINDA)

**Xülasə**

Epik onomastikanın incələnməsi göstərir ki, dünyanın əksər xalqlarında ad təkcə nominativ əhəmiyyət kəsb etməyib, insanın mənşəyi, etnik-milli kimliyi, dini, psixikası, görkəmi, xarakteri haqqında informasiya daşıya bilir. Bunlardan əlavə, ad ibtidai təfəkkür üçün bəlkə də birinci dərəcədə əhəmiyyətli sayılan magik funksiya yerinə yetirir. Sözsüz ki, anlo-sakson və türk-oğuz şəxs adlarının (o cümlədən epik adların) tərkibində hərbi və sosial məzmun daşıyan komponentlərlə əlaqəli kəlmələrin olması müəyyən tarixi kəsimdə xüsusi əhəmiyyət və anlam daşımışdı. Lakin qeyd edilməlidir ki, əksər belə qədim adlar döyüş tematikasına bağlı olsalar da və nə qədər əzəmətli səslənsələr də, ilk öncə magik funksiya yerinə yetirirdilər. Xüsusən, Azərbaycan (Oğuz) eposunun adlar sistemi göstərir ki, adla adı daşıyan obyekt arasında daxili əlaqə, bir çox hallarda adla daşıyıcının funksional bağlantısı olmalı idi. Biz bunu “Oğuz kağan”, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” və başqa dastanlarda izləyə bilirik. Azərbaycan və ingilis xalqlarının qədim advermə ənənəsində patriarxatla bağlı nüanslar da özünü göstərir. Lakin oğuzların inam sistemində atalar kultunun xüsusi önəmli yer tutması bu məsələdə onları xüsusilə seçdirir.

***Açar sözlər:*** *epik onomastika, Azərbaycan antroponimləri, qədim ingilis adları, qəhrəmanlıq eposu, advermə, Azərbaycan folkloru*

**Arasta Khudiyeva**
ANAS Institute of Folklore
dissertatist
lalka81@live.co.uk

# Typology of giving a name and anthroponyms in Anglo-Saxons and Azerbaijan Turks (Based on epic texts)

**Abstract**

The clarification of epic onomastics shows that for most peoples of the world, the name has not only a nominative meaning, but can carry information about the origin of a person, ethnicity, religion, psyche, appearance, character. In addition, the name performs a magical function, perhaps the most important for primitive thinking. It goes without saying that the presence in the Anglo-Saxon and Turkic-Oghuz personal names (including epic names) of words related to the military and social components had a special meaning and meaning in a certain historical period. However, it should be noted that most of these ancient names were associated with the theme of war and, no matter how majestic they sounded, they performed primarily a magical function. In particular, the naming system of the Azerbaijani (Oghuz) epic shows that there must have been an internal connection between the name and the object bearing the name, and in many cases a functional connection between the name and the bearer. We see this in the epics "Oguz Kaghan", "Kitabi-Dada Gorgud", "Koroghlu" and others. The nuances associated with patriarchy are also manifested in the ancient advertising tradition of the Azerbaijani and British peoples.

***Keywords:*** *epic onomastics, Azerbaijani anthroponyms, ancient English names, heroic epic, naming ritual, Azerbaijani folklore*

## Giriş

Dünyanın əksər xalqlarının mədəniyyətində yeni doğulan körpəyə, inisiasiyadan keçmiş gəncə, müəyyən həyat mərhələsinə qədəm qoyan şəxsə və s. ad verilməsi mühüm bir sosial nizama və qaydaya xidmət edən və bu səbəbdən də ritualla müşayiət olunan folklor hadisəsi sayılır.

Folklorda ad təkcə nominativ əhəmiyyət kəsb etmir, o, insanın mənşəyi, etnik-milli kimliyi, dini, psixikası, görkəmi, xarakteri haqqında informasiya daşıya bilir, eləcə də ibtidai təfəkkür üçün bəlkə də birinci dərəcəli əhəmiyyətli sayılan magik funksiya yerinə yetirir. Uşağa Allah, tanrıça, mələk, peyğəmbər, imam, övliya, səhabə və digər dini müqəddəslərin adlarının verilməsi (Xızır, İsa, Musa, Məhəmməd, Əhməd, Davud, Süleyman, Yusif, Cəbrayıl, Əli, Həsən, Hüseyn, Rza, Məryəm, Fatimə, İohan (İvan), Georgi, İbrahim və b.) və ya müqəddəs adlarının orada bir komponent kimi iştirakı (Allahverdi, Allahyar, Tanrıverdi, Xudaverən, Xudaverdi, Xudayar, Xanhüseyn, Xanəhməd, Yarməmməd, Əlizamin, Əliqulu, Əlyar, Həsənqulu, Hüseynqulu, Rzaqulu, Pənahəli, Mehrəli, Fatmagül, Fatmanisə və s.) keçmişdə olduğu kimi indi də insanlarda adın qoruyucu funksiyasına inamına bağlıdır.

**Türk xalqlarında və anqlo-saksonlarda advermə və epik adların tipologiyası.** Türk xalqlarının adət-ənənəsində uşaq doğulandan sonra ona ilk adı verilirdi. Advermə adətən gecikdirilmirdi, çünki adsız uşağa (adın qorumadığı uşağa) şər qüvvənin daha tez təsir göstərə biləcəyindən qorxurdular. Hesab edirdilər ki, adsız uşaq tez xəstələnib, ölə bilərdi. Hətta başqırdlara görə, ad qoyulanadək ölən uşaqların ruhu Atsız (yəni "adsız") adlı şər qüvvəyə çevrilir və valideynlərinin evlərinə yaxın çöllükdə, meşələrdə, dərələrdə, bəzən qəbiristanlıqlarda gəzib-dolaşırdı (Yagafarova, 2016: 156-157).

Azərbaycanlıların ənənəsində uşağın ilk adını onun qulağına pıçıldamaq adəti yəqin ki, çox qədim zamanlardan qaynaqlanır. İlk ad oğlan uşaqlarında kişilik və ya qəhrəmanlıq adından fərqli olaraq, demək olar ki, tamamilə qoruyucu-magik məna kəsb edirdi.

Adlar qoruyucu həmaillər – gözmuncuğu, dua, "hal dişi" kimi uşağı mütəlif gözəgörünməz təhlükələrdənm mühafizə etməli idi. Azərbaycanda islamın qəbulundan başlayaraq son dövrlərədək niyyət edilib "Quran" açmaqla müqəddəs kitabdan hansısa sözün ad kimi verilməsi adəti də uzun müddət yaşamışdı. Vaxtilə Yuləd, Yasin, Aləm, Sənəm, Surə, Bəkir, Əhəd, İslam, İnsan, Cuma, Nəbi, Nisə, Qələm, Tükəzban və başqa bu kimi adların böyük bir qismi məhz bu usulla qoyulmuşdu.

Eyni zamanda uşaq ölümü olan ailələr yeni doğulmuş körpəyə şər qüvvənin diqqətini cəlb etməmək üçün "xoşagəlməz" adlar qoya bilərdilər. Bəzən başqa dinə məxsus, özgə adları da uşağa qoyula bilirdi.

Yəqin ki, bu gün "ad günü" dediyimiz təvəllüd, doğum günü qədim türklərdə əsl ad günündən (ad alma günü) fərqləndirilmişdi. Qədim Çin mənbələrindən çıxış edərək deyə bilərik ki, qədim türklər bu yazdan gələn yaz arasında doğulan bütün uşaqları eyni yaşlı hesab edirdilər. Onlar üçün təvəllüd günü yaş kateqoriyası üçün əhəmiyyət daşımırdı.

Ölü və ya yaşayan ata-babaların adının körpəyə verilməsi də əksər xalqların, o cümlədən azərbaycanlılar və ingilislər arasında mövcuddur. V.Toporov ölən qohumun adının yeni doğulmuş uşağa qoyulmasını adın bu adın daşıyıcısından müstəqil olaraq mövcudluğuna inamla bağlamışdır (Toporov, 1996: 7).

Belə düşünmək olar ki, ad qəhrəmana deyil, qəhrəman öz adına yaraşmalı, adı doğrultmalı idi. "İgid ölər, adı qalar" Azərbaycan atalar sözündən də görünür ki, azərbaycanlılar da adın ayrıca yaşaya bildiyinə inanırdılar. Adla bu adı daşıyan obyekt arasında eyniyyətin və ya daxili əlaqənin yaradılması, başqa sözlə, advermə mifopoetik ənənədə xüsusi səlahiyyətli adverənlərə (mədəni qəhrəmanlara, peyğəmbərlərə, tanrılara) şamil edilirdi.

Oğuz eposunda "Adını mən verdim!" formulu bu bağın qurulmasına məsul insanın yüksək sakral statusundan xəbər verir. Dədə Qorquda aid bir mətndə gördüyümüz kimi, adla adı daşıyan obyekt arasında daxili əlaqə, adla daşıyıcının funksional bağlantısı olmalı idi. Azərbaycan xalqı

arasında Qorqud atanın bütün nəsnələrə ad verdiyi, lakin dörd şeydə səhf edib peşiman olması barədə əfsanə də bu fikri isbat edir:

Gəlinə ayran demədim mən Dədə Qorqud.
Ayrana doyran demədim mən Dədə Qorqud.
İynəyə tikən demədim mən Dədə Qorqud.
Tikənə sökən demədim mən Dədə Qorqud (Sadiq, 2016: 214).

Mifopoetik ənənəyə görə advermə ilahi akt idi və bu səbəbdən müxtəlif mədəniyyətlərdə onun həyata keşirilməsi tanrılara və ya ilahinin təmsilçilərinə şamil edilir. Dünya xalqlarında ilkin və sonrakı – ikinçi və ya əlavə adalma müxtəlif mənalar daşıyırdı. Məsələn, qədim hind mədəniyyətində "əlavə" – ikinci ad müəyyən mənada xoşbəxtliklə assosiasiya olunurdu (Toporov, 1996: 7).

Qədim german tayfalarının advermə mədəniyyətini tədqiq edən alimlərə görə də, germanlarda, o cümlədəm anqlo-sakson tayfalarında sosial ierarxiyanın yüksək pilləsində qərar tutmuş nümayəndələri əsasən iki tərkibli adlar daşıyırdılar və belə quruluşa malik adlar müxtəlif hind-Avropa xalqlarının dilində tipoloji olaraq oxşar, "hərbi demokratiya" deyilən mədəni-tarixi mərhələni əks etdirirdi (Toporov, 1996: 3). Bu tendensiya sonralar ad-soyad formulunu ortaya çıxarmışdır. Oğuzlarda da nəslin, soyun, ata-baba adının insanın adı ilə yanaşı işlənməsi xüsusi statusdan və münasibətdən xəbər verirdi. Məsələn, "Kitabi-Dədə Qorqud"da Bayındır xan öz şəxsi adı ilə deyil, yalnız soy adı (Bayındır) ilə, Qazan xan isə öz adı ilə (Ulaş oğlu Qazan) bərabər soyadı ilə də (Salur Qazan) verilir. Oğuz eposunda Arşın oğlu Dirək, Qonur Qoca oğlu Sarı Çoban kimi adlar qohumlar arasında (burada ata və oğul adları) yaxın mənalı və ya eyni mövzulu adqoyma ənənəsindən də xəbər verir.

Hərbi və sosial mahiyyətli komponentlərə malik anqlo-saks adlarının verilməsi müəyyən tarixi kəsimdə xüsusi əhəmiyyət və anlam daşımışdı. Bu adların tərkib komponentləri həmin dövrün ab-havasını ifadə edir:

- laf (irs, davamçı, xələf);
- wig (döyüş, cəng);
- hild (döyüş);
- mund (əl; qoruyan, mühafiz);
- red (məsləhətçı, hakim);
- gar (nizə) və s.

Belə hesab edilir ki, bu komponentli adların ənənədə geniş yayılması müharibələrin, hərbi yürüşlərin, yeni ərazilərin zəbtinin qədim anglo-saksonların həyatında nə qədər vacib əhəmiyyət kəsb etdiyindən xəbər verir. Bununla yanaşı, qeyd edilməlidir ki, əksər qədim anglo-sakson adları döyüş tematikasına bağlı olsalar da və nə qədər əzəmətli səslənsələr də, ilk öncə magik funksiya daşıyırdılar. Çünki, qədim türklər kimi anglo-saksonlar da advermədə adın "qoruyucu" funksiyasına əsaslanırdılar. Məsələn, anglo-sakson antroponimlərindəki (Edmund, Osmund və s.) "mund" hissəciyi appelyativ kimi özünün abstrakt mənasında (qoruma, hifz etmə) bunu açıq şəkildə ifadə edirdi.

Belə adlar insanlara verildikdə, adın həmin insanı hifz edəcəyinə inanırdılar. "Mund" kəlməsinin abstrakt mənasından belə anlamaq olur ki, bu hissəciklə olan insan adı özü bir magik söz, ifadə kimi tanrıları, ruhları, eləcə də digər insanları həmin adamı qorumağa "məcbur" edəcəkdir. İngilislərin, ümumən german-skandinav xalqlarının inancına görə, həmin şəxs belə ad sayəsində xöşbəxt həyat sürəcək, hətta ağıl sahibi olaraq, digər insanların da xoşbəxt yaşamasına yardım etmiş olacaqdı. Belə ki, onun ağıl və hörmət sahibi olması digərlərinə də doğru qərar verməkdə yardım etməsinə imkan verəcəkdi. "Adların dili" ("The Language of Names") kitabının müəllifləri Castin Kaplan və Anne Bernaysın müşahidələrinə görə, belə ad daşıyıcıları hətta xalqın problemlərini həll etməyi, ixtilafları dayandırmağı bacaran insanlar olmalı idilər (Kaplan, Bernays, 1999: 223-224).

Epik abidələrə baxsaq hərb, cəngavərlik mövzusu aktual olduğu çağda ingilislərin əcdadlarında, eləcə də qədim oğuzlarda kişi adları içərisində gözəllik ifadə edən kateqoriyalı adlara, demək olar ki, rast gəlmirik. Estetik anlamlı komponentlər oğuzlarda və ümumən qədim türk eposunda adətən qadın adlarında yer alır. Lakin daha sonrakı tarixi mərhələlərdə, hərbi mövzusunun aktuallığını itirməsi ilə Azərbaycanda estetik məzmunlu kişi adları da geniş yayılmağa başlayıb. Xüsusən bir eşq tərənnümçüləri olan aşıqların dastan yaradıcılığında bu yön özünü açıq biruzə verir.

Bu mövzuda danışarkən son əsrlər Azərbaycan qadın və kişi adlarında “gül” komponentinin aktiv iştirakını da qeyd etməliyik. Maraq üşün qeyd edək ki, Sovet dönəmindən əvvəl Azərbaycanın cənub zonasında qadın adlarının əvvəlində və ya sonunda “gül” kəlməsinə çox rastlandıldığından qadınların bir-birlərinə adlarını bilmədikləri halda belə “Gülü” deyə müraciət edərdilər. Xalqımız arasında “gül” hissəciyinin iştirak etdiyi kişi adları da az deyildir (Güloğlan, Gülağa, Güləli, Gülbala, Gülhüseyn, Gülməmməd, Güləhməd və s.).

“Gül” komponentli qadın adları oğuz mənşəli xalqların ad vermə sistemində geniş rastlanır. Tarixi mənbələrdən məlumdur ki, Xəzər xaqanının Bizans imperatoruna ərə getmiş qızının adı da Çiçək olmuşdur. Qeyd edək ki, türklər arasında qadın adı kimi yayğın olan Çiçək adı təkcə estetik mahiyyət daşımamışdır. Bilirik ki, bir çox xalqların mifologiyasında güllər müxtəlif tanrılarla assosiasiya edilirdi. Məsələn, qədim romalılar verbena gülünü Venera ilahəsinin gülü sayır, onun ailə səadəti və məhəbbətlə bağlayırdılar. Yunan miflərinə görə, tanrıların yerə düşən qan, süd və ya göz yaşı damcılarından müxtəlif güllər yaranmışdır. Bəzi güllər isə ümumiyyətlə tanrıların transformasiyası idilər. Buddizmdə tanrı cicəyi lotos (nilufər) müqəddəs idi və onun təsvirinə səadət simvolu kimi Orta Asiya xalqlarının maddi mədəniyyət abidələrində geniş rastlanılır. Orta Asiyanın bəzi yerlərində gül kultu vardı və onun izləri özbəklər və taciklər arasında yaşamaqdadır (Sukhareva, 1989: 31-41).

Beləliklə, biz deyə bilərik ki, Banuçiçək adı kimi epik qadın adları, arxaik çağlarda qadına cicək, gül kəlmələri ilə adların verilməsi həm də magik mahiyyət daşıyır, onun gələcək səadətinin və fiziki gözəlliyinin təmininə xidmət göstərirdi.

Azərbaycan xalq gülüş mədəniyyətini tədqiq edən alim Muxtar Kazımoğlu xalq nağıllarında güllə bağlı motivlərdə və şəxs adlarında mifoloji təsəvvürlərin izlərini görərək yazmışdı: “Pəri qızların qəhqəhəsindən gül-çiçək əmələ gəlməsinə bir həqiqət kimi baxan insan yavaş-yavaş öz gücünə də inanmağa başlayıb və müqəddəsləşdirdiyi ətraf təbiəti özünə daha çox yaxınlaşdırmaq istəyib. Bu inam və istək dildə də öz ifadəsini tapıb. Gülxanım, Güllü, Gülbadam, Gülbuta, Çiçək, Bənövşə, Gülağa, Güloğlan və s. şəxs adları, “gül kimi adam”, “gül kimi söz”, “gül kimi iş” dəyişikliyə uğrayıb ironik çalar qazanmış “gül ağzını açmaq” və s. ifadə və deyimlər indi metaforik məzmun daşısa da, əslində onlar mifoloji düşüncənin məhsulu kimi meydana çıxıb. Xatırlatdığımız adlar, ifadə və deyimlər insanın güllə mifoloji bağlılığını qabarıq şəkildə əks etdirir” (Kazımoğlu, 2005: 24-24).

Azərbaycan şəxs adları ilə müqayisədə, qədim ingilis adları içərisində estetik məzmunlu, o cümlədən gül-cicək anlamlı adlar çox azdır. Adətən qadınların daşıdığı bu adların (Annabell – əsli fransızcada “gözəl”, Ryana – əsli irlandca “balaça şəhzadə”, Posy – “çiçək”, Wudi – “ağac, meşə” və s.) bir qisminin alınma olması da diqqət çəkir. Qədim epik qadın adları içərisində obrazın xarakteri, əməli, peşəsi və s. bu tipli adlar görə bilirik. Kral Arturun həyat yoldaşının adı da – Qrenvifar (Guinevere) irland mənşəli söz olub, “Ağ sehrbaz” mənasını verir. Qrenvifar birmənalı müsbət obraz deyildir. Bu da onun arxaik semantikası ilə bağlı ola bilər.

Xristianlığın yayılması ilə əsl ingilis (anqlo-sakson) mənşəli adların qoyulması kəskin azalmışdır. Bundan əlavə, ingilislər arasında bəzən uşağa eyni zamanda iki (və ya daha artıq) ad qoyma ənənəsi formalaşmışdır ki, bu da ada əlavə məna vermək, fərqləndirmək arzusundan əmələ gəlmişdir (Anne Marie, Richard Wayne, Alexander William və s). Bundan başqa, belə qoşa addan biri əzizləmə, tərif mənası daşıya bilir (məsələn, Little Pixie, Angel Evan və s.)

Dünya xalqlarının mifologiyası və folkloruna nəzər yetirsək, ad vermənin ümumi şəkildə mədəni qəhrəmanlara xas əlamətlərdən biri olduğunu görə bilərik. “Oğuz kağan” dastanına görə, Oğuz bir çox tayfalara – qalaclara, kanqlılara, bozoklara, üçoklara ad vermişdir. Həmin dastanda

maraq çəkən məqam digər burasıdır ki, Rəşidəddin "Oğuznamə"sinə görə Oğuz bir sakral qəhrəman olaraq özü-özünə ad verir (Rəşidəddin, 1992: 11).

Azərbaycan və ümumiyyətlə türk xalqları eposunda adların tipologiyasından danışarkən ad alma və ya ad vermə ritualı xüsusi diqqət cəlb edir. Adalma mədəni hadisə kimi, dövrün ictimai formasiyası və sosial-mədəni durumu ilə sıx bağlıdır. Bəzən şəxs adı çox böyük tarixi-siyasi hadisənin, faktın bəyanı, elanı olurdu. Çingiz xanla bağlı rəvayətlərə görə, monqol dövləti qurulanda, onun qurucusu Temuçinə Çingiz adı ümumxalq qurultayında, baş şaman tərəfindən verilmişdi.

Azərbaycanlılar arasında rəhmətə getmiş ata-baba, eləcə də nənə adlarının yeni doğulmuş körpəyə verilməsində əcdad kultunun böyük rolu vardı. Hesab etmək olar ki, əcdad-eponimin, ata-baba adlarının uşağa verilməsi ilə əcdadın gücünün uşağa keçəcəyinə inanılırdı. Digər tərəfdən bu, uluların adının yaşaması və "ucaldılmasına" xidmət göstərirdi.

Belə uşaqları adı ilə tənbeh etmək, söymək, lağa qoymaq və s. ailədə çox pis qarşılanırdı. Çünki uşağa deyilən söz, eyni zamanda onu daşımış ata-babaları da təhqir kimi qəbul edilirdi. "Kitabi-Dədə Qorqud"da bütün igidlərin adının önündə atalarının adı yer alır: Qamğan oğlu Bayındır xan, Ulaş oğlu Salur Qazan, Dirsə xan oğlu Buğac, Bəkil oğlu Əmran, Duxa qoca oğlu Domrul, Uşun oğlu Səgrək, Qazan oğlu Uruz bəy, Qanlı Qoca oğlu Qanturalı, Qəflət Qoca oğlu Şir Şəmsəddin və s.

Əbülfəs Quliyev "Kutabi-Dədə Qorqud"dakı adların tarixi-filoloji təhlilini verərkən qeyd edir ki, anrtoponimlərdə ata adından istifadə pədərşahlığın meydana gəlməsi ilə əlaqədardır. Alim yenə V.Nikonova istinadən göstərir ki, qədim dövrdə atropomorfik modeldə ata adlarından istifadə cəmiyyətdə şəxsin sosial statusunu göstərməyə xidmət etmişdir (Quliyev, 2015: 119; Nikonov, 1974: 20). Bu fikirləri də nəzərə alaraq, türk xalqlarında antroponimikasında ata adının qabarıq təzahürünü onlarda uzun müddət atalar (əcdad) kultunun mövcud olmasına bağlaya bilərik. Ola bilsin, bu səbəbdən Avropa xalqlarandan fərqli olaraq, türk xalqlarında heyvanlara insan adları (antroponimlər) qoymaq ənənəsi olmamışdır.

Azərbaycan epik yaradıcılığında qəhrəmanın ad alması onun fərdi bacarığını, igidliyini isbatlamasına bağlanır. Sosial akt olaraq o, bir statusdan başqa statusa keçməni ayrıca olaraq ifadə edir. Bununla yanaşı, Oğuz eposunda ad verilməsi həm də bir növ dini hadisədir və ilahi iradəsinə bağlıdır. "Kitab-Dədə Qorqud"a baxsaq görərik ki, bəy, xan kimi titulları Bayındır xan, Qazan, digər xanlar verə bilirsə, adı yalnız "vilayət issi", övliya Qorqud ata verir. Lakin qəhrəman adının verilməsi xanın, bəylərin təklifi, təqdimatı ilə həyata keçirilir:

"Oğuz bəgləri gəlüb oğlan üstinə yığnaq oldılar, təhsin dedilər. "Dədəm Qorqut gəlsün, bu oğlana ad qosun, biləsincə alub babasına varsun, babasından oğlana bəglik istəsün, taət alı versün," - dedilər. Çağırdılar, Dedəm Qorqut gəlür oldı. Oğlam alıb babasına vardı. Dədəm Qorqut oğlanın babasına soylamış, görelim, xanım, nə soylamış – aydır:

Hey Dirsə xan, bəglik vergil bu oğlana
Taxt vergil, erdəmlidir!
Boynı uzun bədəvi at vergil,
Binər olsun hünərlidir!
Ağayıldan tümən qoyun vergil bu oğlana,
Şişlik olsun, ərdəmlidir!
Qaytabandan qızıl dəvə vergil bu oğlana,
Yüklət olsun hünərlidir!
Altun başlu ban ev vergil bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çigin quşlu cübbə don vergil bu oğlana,
Geyər olsun, hünərlidir!

Bayındır xanın ağ meydanında bu oğlan cəng etmişdür. Bir buğa öldürmüş sənin oğlun, adı Buğac olsun! Adını bən verdüm, yaşını Allah versün! − dedi (Kitabi-Dədə Qorqud, 1988: 36).

Qorqud atanın "Adını mən verdim, yaşını Allah versin!" duasında qəhrəmanın adı ilə taleyi arasında əlaqənin müəyyən qədər təzahür etdiyini deyə bilərik.

"Kitabi-Dədə Qorqud"un informasiyasına görə, ər, igid adı almaq xüsusi qəhrəmanlıq göstərmək tələb edirdi. Məsələn, "Bəybörənin oğlu Bamsı Beyrək boyu"nda deyilir ki, o zamanlar bir oğlan baş kəsməsə, qan tökməsəydi, ona ad qoyulmazdı. Yenə bu boyda verilən məlumatdan anlaşılır ki, qəhrəman adından əvvəl igidin valideynləri tərəfindən verilmiş uşaqlıq adı varmış. Həmin qolda Beyrək xilas etdiyi tacirlərdən hədiyyə kimi ayğır, at və yay istəyəndə onlar Bəybörənin oğlunu Bamsı adlandırırlar:

Oğlan aydır: "Mərə, bəgüniz oğlı kimdir?".

Ayıtdılar: Baybörənin oğlu vardır, adına Bamsı deyirlər» (Kitabi-Dədə Qorqud, 1988: 53).

Dədə Qorqud da bu oğlana ad qoyduqda valideynlərinin uşağa qoyduğu adı xatırladır:

"Dədəm Qorqut gəldi, oğlana ad qodu. Aydır: "Sözüm dinlə, Baybörə bəg! Allah-təala sanə bir oğul vermiş, tuta versün! Ağır sancaq götürəndə müsəlmanlar arxası olsun! Qarşu yatan qara qarlı tağlardan aşar olsa, Allah-təala sənin oğlına aşut versün! Sən oğlunu "Bamsım" deyü oxşasan; bunın adı Boz ayğırlıq Bamsı Beyrəg olsun! Adını bən dedim, yaşını Allah versün!" (Kitabi-Dədə Qorqud, 1988: 54).

Hətta ad verildikdən sonra adın uğurlu olması üçün dua edilir: "Qalın Oğuz bəgləri əl götürdilər, dua qıldılar. "Bu ad bu yigidə qutlu olsun!" – dedilər" (Kitabi-Dədə Qorqud, 1988: 54).

Bamsı Beyrək adının mənası hələ də tam aydın deyildir. Bu adın birinci hissəsi Manas, Alp Manış, Alpamış və s. kimi türk xalqlarının folklorundakı məşhur epik qəhrəmanın adının bir variantıdır.

Mümkündür ki, Beyrək adı "Bəy Ərək"dən yaranmışdır. Ərək sözü bir çox türk xalqlarında (xüsusən qazax, qırğız) indi də kişi adı kimi aktiv işlədilir. Bu söz "mərd adam", "erkək", "kişi" kimi məna kəsb edir. "Əriq", "erik" sözlərinə Mahmud Kaşqarlının "Divanü lüğət it-türk" əsərində rast gəlirik:

"Bilgə əriq edhqü tutup sözin eşit,
Ərdəhmini ögrənibən işqa sürə"
Bilikli (müdrik) adamı əziz tut, sözünü eşid,
Onun ərdəmini öyrənibən, işə tətbiq et.

Bu sözün cəld, qaçağan (heyvanlara münasibətdə) mənasında işləndiyinə də rast gəlirik.

Ola bilər yaxın səsləşən Ərək (Bamsı Beyrək) və Çiçək (Banuçiçək) adlarının epik-lirik bir əhvalat qəhrəmanlarının adları kimi seçilməsinin həm də linqvopoetik əsası vardır.

Seyfəddin Rzasoy "Kitabi-Dədə Qorqud"da rastlaşdığımız oğuz adlarında kosmoloji mahiyyətin ifadə olunmasını önə sürərək, Beyrək adının "börü", "qurd" anlamı verdiyini iddia etmişdir. Alimin tədqiqatına görə Beyrəyin öldürülməsi iki totem – at (Dış Oğuz, Aruz) və qurd (İç oğuz, Salur Qazan, Beyrək) qarşıdurması kontektində izah oluna bilər (Rzasoy, 2004: 108-110). Eposda Beyrəyin üzü niqablı gəzməsi onun Oğuz elindəki sakral funksiyasının göstəricisi sayılır. Biz də türklərin mifoloji təsəvvürlərini əsas tutaraq bu epik qəhrəmana adında qurdal bağlı olduğunu doğru sayırıq.

Türk xalqlarında, o sıradan azərbaycanlılarda advermə ənənəsində qadağalar da vardı və bu hal zəif də olsa indi də davam edir. Belə qadağa adlar sırasına ilk növbədə "lənətlənmiş", böyük günah sahibi sayılan tarixi şəxslərin adları aid idi. Hesab olunurdu ki, belə şəxsin adını daşımaq, mənfi insanın adını layiq olmadan yaşatmaqdan başqa, həm də onun ruhuna söylənən lənətdən də "pay" almaq demək idi. Digər tərəfdən, təsəvvürlərə görə qadağan adı daşıyan şəxs həmin adın günahkar daşıyıcısının həyatını yaşıya bilərdi. Şiə azərbaycanlılar üçün, məsələn, Əməvi xəlifələrindən Müaviyə və Yəzidin, Rəşidi xəlifələrindən Ömər və Osmanın, İmam Hüseyni Kərbala çölündə qətlə yetirən Şümrün və s. adları qadağa adlar sırasına daxil idi.

Bəzən də kişi qohumlardan ölən adamın, əsasən ata-babaların adlarını yeni doğulan körpəyə qoymurdular ki, gəlin və ya uşağın atası qəflətən uşağın adını çəkməklə acı söz deyə, onun üstünə

acıqlana, qışqıra bilərdi. Bu isə həm ədadlara qarşı hərmətsizlik idi, həm də vəfat etmiş ata-babalar bunu öz ünvanlarına qəbul edə bilərdilər.

Bundan başqa, Azərbaycan və digər türk xalqlarında əvvəllər gəlinə ərin yaxın qohumlarını öz adı ilə çağırmaq kimi qadağalar vardı.

Qədim ingilis adlarının tədqiqatçıları müəyyən etmişlər ki, böyük bir qrup anqlo-saks adları artıq həmin ailədə ailə üzvlərinin daşıdığı adların azacıq dəyişməsi və ya təkrarından ibarət olmuşdur. Bir sıra ingilis hakim sülalələrinin məsələn Mersiya əyalətinin kralı, özünün ulu babası saydığı Offanın adını daşımışdı. Güman edilir ki, Offa bu sülalədən daha bir neçə kralın adı ola bilərdi. Alimlər, mənbələrdə Essek kral sülaləsinin adlarında "s" səsinin alleterasiyasına da diqqət çəkir və bunun bir ənənədən xəbər verdiyini qeyd edirlər: Sledda, Saebert, Saeward, Sexbald, Sexred, Sigeberht Little, Sigeberht Blessed, Swithhelm, Sighere, Sebbi, Swaefred, Sigeheard, Swaefbert və b. (Tsventukh, 2015: 53).

Bu zaman ailədə artıq daşınmış adın mənasına, aid olduğu mövzuya uyğun yeni adlar verilməsi adəti də vardı.

Azərbaycan və ingilis dastanlarında da ata və oğul adlarında söz kökünün təkrarı müşahidə olunur və burada müəyyən alleterasiya diqqət çəkir:

Bəybörə oğlu Beyrək
Yalançı oğlu Yalıncıq
Qanlı Qoca oğlu Qanturalı
Duxa Qoca oğlu Domrul.

Bir-neçə yerdə qardaş adlarında sonluq hissənin təkrarlandığını müşahidə edirik:

Qanbangüçü və Dəmirgücü (Qaraca Cobanın qardaşları);
Əgrək və Səkrək (Uşun Qocanın oğulları).

Burada qeyd edək ki, gerçək həyatda bəzən adın estetik xarakteri üçün onun daşıdığı mənadan çox, akustik kompleksi dəyərli hesab edilirdi. Lakin bu hal epos üçün xarakterik sayıla bilməz. Baxmayaraq, eposun dili, məsələn, "Kitabi-Dədə Qorqud"un poetik dili üçün alliterasiya xarakterik olduğundan, ad səviyyəsində assonans və alliterasiya hallarının çoxluğu normal sayıla bilər. Yəni burada adın estetik səslənişi, məna yükünə əlavə çalar qatır. Demək lazımdır ki, "Beovulf"da dastanına baxdıqda da anqlo-sakslarda eyni nəslin və ya ailənin üzvlərinin adlandırılmasında alliterasiya prinsipinin otaya çıxdığını görmək olar. Bir sıra obrazlarda bu ata-oğul adlarının həmahəngliyi səviyyyəsində müşahidə olunur. Belə ki, Scyld Scefinq, Wulf Wonrcping kimi adlar "Scyld, the son of Sceaf" (Şif oğlu Skild), "Wulf, the son of Wonred" (Vunred oğlu Vulf) kimi izah edilir. "Beovulf" dastanında yaxın qohum adlarının alleterasiya və assonanslığlına çoxsaylı misallar göstərə bilərik:

Viqlafın (Wiglaf) Beovulfun yaxın silahdaşı − Veostanın (Weohstan) oğlu;
Breka (Breca) – Beanstanın oğlu;
Edqils (Eadgils) – Enmundun (Eanmund) qardaşı;
Hredrik (Hrethric) – Hrodqarın böyük oğlu;
Hrotmund – Hrodqarın (Hrothgar) kiçik oğlu;
Hrodulf (Hrothulf) – Kral Hrodqarın qardaşı oğlu;
Siqurd − Siqmundun (Siqemund) oğlu və s.

## Nəticə

Epik mətnlərdə yer alan qədim adlar göstərir ki, ingilis və Azərbaycan xalqlarında ad vermə müəyyən prinsiplərə əsaslanır. Epik obrazının adı personaji xarakterizə etməkdən əlavə, sosial və mədəni mahiyyət daşıyır. Epik adlar xalqın inam və arzuları ilə yanaşı konkret hallara, fəaliyyətlərə münasibətini, baxışını ifadə edir. Azərbaycan və ingilis xalqlarına aid epik abidələrdə yer alan adlar arasında oxşar və fərqli cəhətlər də məhz bunlarla əlaqəli olur.

## Ədəbiyyat

1. Yagafarova, G.N. (2016). Fol'klornyye imena: o chem oni govoryat. Izvestiya UrFU. Seriya Gumanitarnyye nauki, t. 18, № 2 (151). Yekaterinburg: Izdatel'stvo Ural'skogo Universiteta, s.155-168.
2. Toporov, V.N. (1996). Kul'tura v zerkale yazyka: drevnegermanskiye dvuchlennyye imena sobstvennyye. M.: Shkola «YAzyki russkoy kul'tury», 253 s.
3. Sadiq, H.M. (2016). "Dədə Qorqud" dastanları haqqında. Türk folkloru dünya alimlərinin gözü ilə. Bakı: Elm və təhsil, s.199-123.
4. Kaplan, J., Bernays, A. (1999). The Language of Names. New York: Simon & Schuster. 260 p.
5. Sukhareva, O.A. (1989). Prazdnestva tsvetov u ravninnykh tadzhikov (konets KHKH-nachalo KHKH v.). Drevniye obryady, verovaniya i kul'ty narodov Sredney Azii. Moskva: Nauka, s.31-46.
6. Kazımoğlu, M. (2005). Gülüşün arxaik kökləri. Bakı: Elm, 188 s.
7. Rəşidəddin, F. (1992). Oğuznamə. Fars dilindən tərcmə edən, ön söz və şərhlərin müəllifi R.M.Şükürova. Bakı: Azərnəşr, 72 s.
8. Quliyev, Ə. (2015). "Dədə Qorqud"dakı bəzi şəxs adlarının tarixi-filoloji təhlili. Epos və etnos. Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və təhsil, s.117-122.
9. Nikonov, V. (1974). Imya i obshchestvo. Moskva: Nauka, 278 s.
10. Kitabi-Dədə Qorqud. (1988). Tərtib və transkripsiya edənlər: F.Zeynalov, S.Əlizadə. Bakı: Yazıçı, 265 s.
11. Rzasoy, S. (2004). Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 200 s.
12. Tsventukh, T.S. (2015). Drevneangliyskiye imena sobstvennyye. Zhur. "Chelyabinskiy gumanitariy", № 3(32). Chelyabinsk: Izdatel'stvo "Entsiklopediya", s.52-55.

Göndərildi: 20.02.2023 Qəbul edildi: 28.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/81-86

**Nərgiz Rzayeva**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
dissertant
nargiz_rzayeva@hotmail.com
https://orcid.org/0000-0002-1288-5710

# MÜASİR DÖVR AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA MİLLİ ƏNƏNƏLƏR

**Xülasə**

Məqalədə müasir dövr Azərbaycan heykəltəraşlığında milli ənənələrdən bəhs edilir. Müasir dövrdə yaradıcılıqlarında milli ənənələrə müraciət edən görkəmli heykəltəraşlarımız kifayət qədərdir. Bu mənada Əsgər Kərimovun “Muğam” (1991), “Kuzəli qız” (2003), Xanlar Əhmədovun “Ana” (1993), Arif Qazıyevin “Qarabağ şikəstəsi” (1993), “Quşbaz” (1995), “Kamanın naləsi” (2010), Sahib Quliyevin “Muğam” (1999), “Möminəxatun” (2003), “Şanapipik” (2005), “Bahar” (2012), Akif Əsgərovun “Məğrur qız” (2002), Zakir Əhmədovun “Heyvagülü” (1998), “Üçlük” (2005), Vüqar Quliyevin “Qobustan keçisi” (2007), Nurlan Məmmədovun “Gəmiqaya” (2012) və s. əsərlərini qeyd etmək olar. Adları qeyd olunan bu əsərlər özündə tarixi keçmişimiz və milli kimliyimizi, eyni zamanda ənənə və müasirliyi ehtiva edən maraqlı heykəltəraşlıq əsərləridir.

Müasir dövr dəzgah heykəltəraşlığı eyni zamanda özünün bədii ifadə və forma-biçim axtarışları ilə seçilir. Bütün bu məziyyətlər hələ XX əsrin ortalarında dəzgah heykəltəraşlığımızda müşahidə olunan ifadə və mövzu zənginliyinin müasir dövrdə daha yeni və daha maraqlı bir dönəmə keçid etdiyini deməyə əsas verir. Müəyyən mənada Qərbdə mövcud olan “izm”lər Azərbaycan heykəltəraşlığında təsir qoysa da, lakin Azərbaycan heykəltəraşlığının xüsusilə yaşlı və orta nəsil nümayəndələri öz yaradıcılıqlarında milli ənənələrə sadiqliyini nümayiş etdirmişlər.

***Açar sözlər:*** *müasir dövr, Azərbaycan heykəltəraşlığı, milli ənənələr, dəzgah heykəltəraşlığı, yaradıcılıq*

**Nargiz Rzayeva**
Azerbaijan State Art Academy
dissertatist
nargiz_rzayeva@hotmail.com
https://orcid.org/0000-0002-1288-5710

## Contemporary interpretation of national traditions in Azerbaijani fine art

**Abstract**

The article talks about national traditions in contemporary Azerbaijani sculpture. In modern times, there are enough of our prominent sculptors who turn to national traditions in their creations. In this sense, Asgar Karimov's "Mugham" (1991), "Kuzeli giz" (2003), Khanlar Ahmadov's "Mother" (1993), Arif Gaziyev's "Karabagh Shikastesi" (1993), "Birdbird" (1995), "The Bow's Wailing" (2010), Sahib Guliyev's "Mugam" (1999), "Mominakhatun" (2003), "Shanapipik" (2005), "Spring" (2012), Akif Askerov's "Proud Girl" (2002), Zakir Ahmadov's "Heyvagul" (1998 ), "Trinity" (2005), Vugar Guliyev's "Gobustan Goat" (2007), Nurlan Mammadov's "Gamigaya" (2012), etc. works can be mentioned. These named works are interesting sculptural works that contain our historical past and national identity, as well as tradition and modernity.

Contemporary bench sculpture is distinguished by its artistic expression and search for forms. All these merits suggest that the wealth of expression and theme observed in our bench sculpture in the middle of the 20th century has passed into a newer and more interesting era in the modern era. In a certain sense, "isms" existing in the West had an impact on Azerbaijani sculpture, but

especially the elderly and middle-generation representatives of Azerbaijani sculpture showed their loyalty to national traditions in their works.

***Keywords:*** *modern period, Azerbaijani sculpture, national traditions, easel sculpture, creativity*

## Giriş

Azərbaycan heykəltəraşlığında yaradıcı fəaliyyət müasir dövrə təsadüf edən görkəmli heykəltəraşların – Arif Qazıyev, Əsgər Kərimov, Xanlar Əhmədov, Natiq Əliyev, Fazil Nəcəfov, Sahib Quliyev, Akif Əsgərov, Zakir Əhmədov və b. həm yeni mövzulara müraciət etməsi, həm də fərqli materiallardan istifadə etməklə ərsəyə gələn milli motivlərə özünəməxsus – fərdi bədii-estetik məziyyətlər bəxş etmələri ilə diqqət çəkir.

"Qeyd etmək lazımdır ki, tişə ustalarımızın milli köklərə tapınmalarında 1986 və 1988-ci illərdə Bakıda keçirilən daş üzrə Beynəlxalq simpoziumun da müsbət təsiri olmuşdur. Sənətkarlıq mübadiləsinə çevrilən belə toplantılarda daşın material kimi istifadəsi onun iştirakçılarına, sadə olduğu qədər mürəkkəb olan daşın bədii-texniki xüsusiyyətlərini yaddaqalan məna-məzmun daşıyıcılığına çevirməyə imkan vermişdir" (Əliyev, 2016: 121).

Bütün bu məziyyətlər hələ XX əsrin ortalarında dəzgah heykəltəraşlığımızda müşahidə olunan ifadə və mövzu zənginliyinin müasir dövrdə daha yeni və daha maraqlı bir dönəmə keçid etdiyini deməyə əsas verir. "Sosialist realizmi ideyasının əsas daşıyıcıları və təbliğatçıları olan rus rəssamlarına nisbətən Azərbaycan rəssamlarının vəziyyəti müəyyən mənada bir qədər yaxşı idi. Belə ki, incəsənətdəki novatorluq, orijinal və qeyri-normativ cəhətləri "milli xüsusiyyət"lərlə izah etmək mümkün olurdu" (Axundzadə, 2011: 63).

Azərbaycan heykəltəraşlığında özünəməxsus dəst-xəttilə seçilən Əsgər Kərimovun müxtəlif mövzulu heykəltəraşlıq nümunələrində müraciət etdiyi motivlərin digərlərində yarada biləcəyi ilkin təəssüratın olduqca incə bədii-plastik formada ifadəsini görmək mümkündür. Onun "Muğam" (1991), "Məğrur qız" (2002), "Kuzəli qız" (2003) əsərlərində milli motivlərin uğurlu bədii təfsiri ilə rastlaşırıq. Yaradıcılıq fəaliyyəti boyu ərsəyə gətirdiyi obrazların plastik tutumunda çalışmışdır ki, fiqurların bir qədər canlı və ifadəli olmasına nail olsun.

Muğamın hər bir insanın həyatında tutduğu yer və roluna, o cümlədən insanı müəyyən təsirə məruz qoyması gücünə dərindən bələd olan görkəmli tişə ustası Əsgər Kərimovun milli-mənəvi dəyərlərimizin göstəricisi olan muğam sənətinə müraciət etməsini heç də təsadüfi hesab etmək olmaz. Muğamı ruha qida kimi qəbul edən Əsgər Kərimov bu mövzuda bir-birindən maraqlı bir neçə heykəltəraşlıq əsəri ərsəyə gətirməsini bu mənada birmənalı qəbul etmək olar.



**Əsgər Kərimov. "Muğam". 1991.**

Heykəltəraşın 1991-ci ildə yaradılmış "Muğam" kompozisiyasında diqqət çəkən məqamlardan biri budur ki, muğam üçlüyünü qadın ansamblı təşkil edir. Daha dəqiq desək, tar, kamança və dəfdə ifa edənlər məhz qadın obrazları ilə canlandırılıb. Hər üç qadın obrazının bir-biri ilə təması

kompozisiyanın tamlığına və obrazların vəhdətinə işarədir. Onların milli geyimlərinin və uzun saçlarının yüksək plastik həlli əsərin daha baxımlı olmasını şərtləndirən amillərdəndir.

"Bütün təzadlarla dolu həyatı və axtarışlarla zəngin yaradıcılığı boyu gördüklərindən heyrətlənməyi bacaran heykəltəraş zaman-zaman insanı kifayət qədər duyğulandıra biləcək, öz-özlüyündə bir-birindən fərqli fikir daşıyıcılığına malik olan əsərlər yaratmağa nail olmuşdur. Əgər çoxsaylı bu əsərlər toplusunda analıq-qadın mövzusu aparıcı yer tutur desək, həqiqəti ifadə etmiş olarıq" (Səfərli-Ağasoy, 2016: 22).

Ümumilikdə Əsgər Kərimovun yaradıcılığında milli motivlər və qadın obrazları özünün ən fərqli forma-biçimi ilə seçilir. Eyni zamanda onun bu məzmunlu əsərləri onu seyr edən tamaşaçıda xüsusi lirik-poetik ovqat yaradır ki, bu da öz növbəsində diqqət və sevginin bədii ifadəsini özündə əks etdirən heykəltəraşlıq əsərlərində ənənə və müasirliyin ayrılmaz vəhdətini nümayiş etdirir.

"Respublikada xalqımızın çoxəsrlik tarixinin bədii salnaməsini yaratmaq üçün davamlı addımlar atılmaqdadır. Bu yöndə görülən işlərin arasında müxtəlif müsabiqələr mühüm əhəmiyyət kəsb edir. Bu mənada 2013-cü ildə Bakıda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Rəssamlar İttifaqının Azərbaycan tarixi mövzusunda keçirdiyi "Əsrlər-nəsillər" müsabiqə-sərgisində az da olsa tarixi tutumlu plastik nümunələr də vardı" (Quliyev, 2013: 203-204). Həmin sərgi-müsabiqədə iştirak edən görkəmli tişə ustalarından biri məhz Xalq rəssamı Xanlar Əhmədov idi. Heykəltəraşın yaradıcılığını diqqətlə izlədikdə onun nə qədər uzun və şərəfli yol keçmiş milli tariximizə bağlılığını, nə qədər vətənpərvər olduğunu görmək mümkündür. Bu mənada görkəmli heykəltəraşın "Ana" (1993), "Hacı Zeynalabdin Tağıyev" (1994), "General Əliağa Şıxlinski" (2014), "General Səmədağa Mehmandarov" (2014) kimi dəzgah heykəltəraşlığı əsərləri özünün yüksək bədii həlli ilə seçilir. Qeyd edək ki, Xanlar Əhmədov yaratdığı tarixi qəhrəman obrazlarının zahiri görünüşü ilə yanaşı onların daxili aləmini, mübarizə əzmini, görkəmli şəxsiyyət simasını olduqca peşəkarlıqla təqdim edə bilmişdir.

Görkəmli tişə ustası Arif Qazıyevin janr və mövzu əlvanlığı ilə seçilən müasir dövr yaradıcılığı eyni zamanda özünün milli motivlərə bələnmiş heykəltəraşlıq əsərlərinin zənginliyi ilə də seçilir. "Qarabağ şikəstəsi" (1993), "Quşbaz" (1995), "Canlı qala" (1997), "Kamanın naləsi" (2010), "Qaçqın ana" (2000), "Nuru Paşa" (2014) kimi dəzgah heykəltəraşlıq əsərləri Arif Qazıyevin milli ənənələrə bağlılığının, xalq yaradıcılığına və ictimai həyat amillərinə marağının əyani göstəricisidir.

Arif Qazıyevin 2014-cü ildə yaratdığı Nuru Paşanın heykəli görkəmli türk komandanının at belində döyüşə hazır vəziyyətdə məğrur duruşlu obrazını əks etdirir. "Müəllifin təqdimatında düşmənlə mübarizədə ad çıxarmış Nuru Paşanın özünə inamlı duruşunda və tamaşaçıda bu inamı yaradan ifadəli siluetin əldə olunmasında yüksək icra sənətkarlığının əlamətləri qabarıq görünür. Bütün əsərlərində olduğu kimi, bu kompozisiyasında da Arif Qazıyev yumşaq yapma manerasına üstünlük verməklə, ümumi plastik tutumun aydınlığına və təsirliliyinə nail olduğunu bir daha sərgiləyib. Onun hazırda Türkiyə Respublikasının Bakıdakı səfirliyinin həyətindəki büstü (2012) də Arif Qazıyev tərəfindən hazırlanmışdır" (Sadıqov, 2018: 109).



**Arif Qazıyev. "Canlı qala". 1997.**

Azərbaycan heykəltəraşlığının görkəmli nümayəndələrindən olan Xalq rəssamı, professor Fuad Salayev təsviri sənət məkanında özünəməxsus dəst-xətti ilə seçilən heykəltəraşlardandır. Məzmun və formanın kamilliyi, mövzu seçiminin orijinallığı, kamil kompozisiya quruluşu, plastika yığcamlığı, obrazların bədii həllində dəqiqlik və ümumiləşdirmə görkəmli heykəltəraşın yaradıcılığının səciyyəvi xüsusiyyyətlərindəndir.

Məna-məzmun baxımından daha çox fəlsəfi, düşündürücü və rəmzi xarakterli əsərlər yaradan Fuad Salayev eyni zamanda özündə milli ənənələri əks etdirən heykəllərin müəllifidir. Bu mənada onun uzun yol qət etmiş və əzmkarlıq nümayiş etdirən “Öndər” (1991), “Səyyah” (1992) və “Kələfin ucunu axtaranlar” (1997) əsərlərini qeyd edə bilərik.

“Milli ənənələrdən, eyni zamanda dünya sənətkarlığından və ənənələrindən bəhrələnən Fuad Salayev yaradıcılığı Azərbaycan incəsənətinə yaddaqalan töhfələr bəxş etmişdir. Qeyd etməliyik ki, heykəltəraşın yaradıcılığı milli incəsənətimizin həm formaca, həm məzmunca zənginləşməsinə, ümumi inkişafına xeyli xidmət göstərmişdir” (Ələkbərov, 2016: 16).

Fuad Salayevin “Səyyah” (1992) əsərində uzun yol qət etdiyi üçün üzündə yorğunluq nümayiş olunan səyahətə çıxmış atlı obrazı bədii görüntüyə gətirilmişdir. Səyyahın məna-məzmun etibarilə arzu-muradı simvolizə edən atın üstündə verilməsi onun artıq muradına - arzuladığı mənzilbaşına çatmasına işarədir. Obrazların ifadəli həlli, ritmik vəhdəti, formanın aydın və baxımlılığı yüksək ustalıqla icra edilmişdir.

Müasir dövr Azərbaycan dəzgah heykəltəraşlığı sahəsində milli ənənələrə sadiqliyini nümayiş etdirən görkəmli tişə ustalarımızdan biri də Xalq rəssamı Natiq Əliyevdir. Bu mənada onun “Həvva” (1990), “Qadın fiquru” (1991), “Misirli qadın” (2008) əsərlərini qeyd edə bilərik. Bu əsərlərin adlarından belə Şərq ruhu aydın sezilir. Odur ki, milli ənənələrimizdən kifayət qədər bəhrələnən Natiq Əliyevin özünəməxsus yaradıcılıq yolu Azərbaycan təsviri sənətinə böyük töhfə hesab edilməklə yanaşı, həm də onun məzmun və forma baxımından daha da zənginləşməsinə, ümumilikdə isə inkişaf dinamikasına böyük təkan verdiyini sərgiləməkdədir.

“Bu gün Natiq Əliyev sənətinin el məhəbbəti və dünyəvi şöhrət qazanmasının kökündə həm də milli ənənələrə bu qədər yeni və gözlənilməz görkəm, çoxqatlı məna - məzmun verə bilməsi durur. Onun milli keyfiyyətləri özündə əks etdirən heykəl-obrazları ənənələrimizə və digər mənəvi qaynaqlarımıza yaradıcı və analitik münasibəti süni və zahiri effekt mahiyyəti daşımayıb, özünü bədii şərhin mahiyyətində, kompozisiya həllinin, baxış nöqtəsinin, onların miqyasının, fəza-məkanda necəliyində təzahür etdirir” (Qasımov, 2014: 117).

Qədim milli ənənələrimizə özünəməxsus yaradıcı və analitik münasibətlərini ifadə etməklə olduqca maraqlı əsərlər yaradan Fazil Nəcəfovun “Ağrı” (2000), “Kişi və qadın” (2001), “Yuxarı baxan” (2001) əsərlərini müasir dövr Azərbaycan heykəltəraşlığında fərqli görüntülərindən hesab etmək olar. “Fazil Nəcəfovun əsərləri müxtəlif materiallarda yaradılmışdır. Lakin o daşı hamısından üstün tutur. Bu da təbiidir, çünki Azərbaycan ərazisində ilahiləşdirilmiş təbii obyektlərdən ən qədimi daş olmuşdur. Azərbaycanda daşa sitayiş, daşdan müalicə vasitəsi kimi istifadə etmək, ondan insan, heyvan heykəlləri düzəltmək uzaq keçmişlərdə olmuşdur” (Əfəndi, 2007: 265).

Heykəltəraşın plastika nümunələri bədii şərhinə görə nə qədər müasir görünsələr də, bir o qədər də qədimliyi ilə seçilir. Ancaq sadəlik və primitiv sənət ənənələrindən əxz olunmuş bədii ifadə ünsürlərin qovuşağından “boylanan” bu obrazlar daşıdıqları məna-məzmun yükünü müəllif niyyəti yüksəkliyində tamaşaçıya çatdırmaq gücündədir. “Fazil Nəcəfovun əsərlərindəki ənənə və millilik probleminə yenidən nəzər salmaq üçün onun dünya mədəniyyətinə fəal müraciəti yönündə baxış genişliyini qeyd etmək lazımdır. Çünki bu heykəltəraşın əsərlərinin təhlili var gücü ilə onun keçmişin milli ənənəsinə, o cümlədən qədim Misir, Assuriya, şumerlərin ilkin sülalə dövrü, eləcə də arxaik dövrə aid qəhrəmanlıq plastikasına olan yüksək marağını aşkara çıxardı” (Qasımov, 2015: 11).

Bədii yaradıcılığında qədim milli ənənəni müasir formada davam etdirən heykəltəraşlarımı arasında Zakir Əhmədovun adı xüsusi qeyd edilməlidir. Bu mənada rəssamın əsərlərini diqqətlə nəzərdən keçirdikdə onun milli ənənəyə xas özəllikləri müşahidə etmiş olarıq. Heykəltəraşın “Heyvagülü” (1998), “Üçlük” (2005), “Döyüşçü” (2009), “Müdafiəçi” (2009) adlı əsərləri məhz

yuxarıda qeyd etdiyimiz bədii məziyyətləri özündə ehtiva edir. Bu əsərlərdə eyni zamanda bədii obrazların həmahəngliyə əsaslanan bədii şərhi aydın şəkildə görünür.

Müasir dövr dəzgah heykəltəraşlığı eyni zamanda özünün bədii ifadə və forma-biçim axtarışları ilə seçilir. Belə ki, Sahib Quliyevin xüsusilə metal səthi müxtəlif oymalarla zənginləşdirməsi, o cümlədən mərmər və qranitlə tuncun ifadəli vəhdəti sayəsində mövcud materialın bədii-estetik tutumunu daha da zənginləşdirməsi müasir dövr Azərbaycan heykəltəraşlığında bədii-texniki vasitələrdən yüksək ustalıqla istifadənin görüntüsüdür.

Sahib Quliyevin yaradıcılıq axtarışlarında obrazların daha çox şərti-rəmzi formalar və bədii ümumiləşdirmələrlə ifadəsi üstünlük təşkil edir. “Yaradıcılığa erkən yaşlarından başlayan heykəltəraş bu yolda qarşılaşacağı bir sıra çətinliklərə rəğmən öz əzmi və iradəsi ilə təsviri sənət aləmində yaradıcı bir insan kimi özünəməxsus - milli ruha əsaslanan axtarışları ilə heykəltəraşlıq sənətinin incəliklərini dərindən mənimsəyib və özündə ənənə ilə müasirliyin qovşağını əks etdirən çoxsaylı kiçik plastika nümunələrinin yaradıcısıdır” (Xəlilov, 2012). Bu mənada heykəltəraşın “Ana və uşaq” (1993), “Muğam” (1999), “Ritm” (2000), “Möminəxatun” (2003), “Şanapipik” (2005), “Bahar” (2012), “Atila Atli” (2012) əsərləri xüsusilə seçilir. Sahib Quliyevin kiçik həcmli “Şanapipik” (2010) adlı rəngli heykəltəraşlıq əsəri bədii həllinə görə xüsusilə seçilir. Belə ki, bu əsərin bədii plastik həllində qızıl suyu, mis, daş və emaldan istifadə edilmişdir.



**Sahib Quliyev. “Şanapipik”. 2005.**

Qeyd edək ki, bu əsər müasir dövr Azərbaycan heykəltəraşlığında bədii-texniki həllinə görə ilk heykəltəraşlıq nümunəsidir. Hətta heykəltəraşın həmkarları tərəfindən ona bu işin uğurla nəticələnməyəcəyini deyilsə də, Sahib Quliyevin yüksək əzmi və iradəsi sayəsində gözlənilən nəticə uğurla alındı və heykəltəraş bu işin öhdəsindən layiqincə gəlməyi bacardı. Bunu da vurğulayaq ki, Sahib Quliyevin yaradıcılığının əsas bədii xüsusiyyətlərindən biri də odur ki, o, mövzudan daha çox formaya, daha dəqiq desək, heykəltəraşın yaradıcılığının özünəməxsusluğunu şərtləndirən fərdi ifadə vasitələrinə önəm verir. Bu isə bilavasitə Sahib Quliyevi heykəltəraşlıq məkanında digərlərindən fərqləndirən başlıca cəhətlərdəndir.

Milli ənənələrə yaradıcı münasibətin müasir ifadəsi Azərbaycan təsviri sənətinin gənc nəslinin nümayəndələrindən olan, eyni zamanda Sahib Quliyevin oğlu Vüqar Quliyevin yaradıcılığında da öz əksini tapmışdır. Onun ərsəyə gətirdiyi dəzgah heykəltəraşlığı əsərləri milli ənənələrdən bəhrələnmiş, onu uğurla yaşadaraq yeni və özünəməxsus forma-biçimi ilə xarakterizə edilir. “Vüqar Quliyevin yaradıcılığında Azərbaycanın qədim və ilkin mədəniyyət ocaqlarından biri olan Qobustan qayaüstü təsvirlərinə münasibət xüsusi əhəmiyyət kəsb edir. Qayaüstü təsvirlərdən aldığı təəssüratlar nəticəsində Vüqar “Qobustan” adlı silsilə əsərlər yaratmışdır. Bu mənada həmin silsiləyə daxil olan kompozisiyalardan özünəməxsus plastik həlli ilə seçilən, at belində intizar çəkən aşiqi təsvir edən “Qobustan atlısı” (2006), forma-biçim kamilliyi və plastikliyi ilə seçilən “Qobustanlı qadın” (2007), üzərində müxtəlif məzmunlu qayaüstü təsvirlər həkk edilmiş “Qobustan keçisi” (2007) və Qobustan qayaları üzərində həkk edilmiş müxtəlif tipli gəmi təsvirlərini, xüsusilə də Böyükdaşdakı qayanın burnunda şüalanmış günəş şəkli həkk olunmuş gəmi təsvirini əks etdirən “Qobustan gəmisi” (2010) əsərlərini qeyd etmək olar” (Xəlilov, 2011). Gənc heykəltəraşın adları

qeyd olunan bu bədii heykəltəraşlıq nümunələrinə diqqətlə nəzər yetirdikdə onun Vətənə, doğma yurda və tarixi keçmişimizə böyük ehtiram və marağının, xüsusilə xalqımızın milli-mənəvi dəyərlərini necə yüksək qiymətləndirdiyinin bir daha şahidi oluruq. Ərsəyə gətirdiyi obrazların bədii səthinin Qobustan qayaüstü təsvirlərinə xas elementlərlə bəzədilməsini Vüqar Quliyev yaradıcılığını şərtləndirən özünəməxsusluq kimi qəbul edə bilərik.

Gənc tişə ustalarından olan Nurlan Məmmədovun milli məzmunda yaradıcılıq axtarışlarında da digər gənc heykəltəraşlara xas olan mövzu və janr rəngarəngliyi duyulmaqdadır. Onun qədim qaya təsvirlərini özündə ehtiva edən "Gəmi qaya" (2012) əsəri milli ruha bələnmiş forma-biçimdə yaradılmışdır. Qeyd edək ki, Nurlan Məmmədovun milli keçmişimizə yaradıcı münasibəti və bu xüsusda yaratdığı heykəltəraşlıq nümunələrini yeni bədii-plastik tutum verməsi onu digərlərindən fərqləndirən başlıca xüsusiyyətlərdəndir. Belə ki, gənc tişə ustasının müxtəlif mövzu və janrların bədii təfsirində nümayiş etdirdiyi fərdi dəst-xətt sadə realizmdən uzaq olmaqla, məhz yaratdığı obrazların ümumiləşdirmələrlə təqdim olunmasına əsaslanır.

## Nəticə

Nəticə etibarilə qeyd edə bilərik ki, Müasir dövr Azərbaycan heykəltəraşlarının yaradıcılığı Sovet dövründən fərqli olaraq müəyyən ideoloji asılılıqdan azadlığı ilə seçilir. Bu dövrdə fəaliyyət göstərən görkəmli tişə ustalarının yaradıcılığı olduqca azad, sərbəst kompozisiya həlli ilə seçilir. Müəyyən mənada Qərbdə mövcud olan "izm"lər Azərbaycan heykəltəraşlığında təsir qoysa da, lakin Azərbaycan heykəltəraşlığının xüsusilə yaşlı və orta nəsil nümayəndələri öz yaradıcılıqlarında milli ənənələrə sadiqliyini nümayiş etdirmişlər. Bunu da qeyd edək ki, XX əsr və Müasir dövr Azərbaycan heykəltəraşlığının görkəmli nümayəndələri arasında "Fuad Əbdürrəhmanov, Ömər Eldarov, Cəlal Qaryağdı, Tokay Məmmədov, Mirəli Mirqasımov, Fazil Nəcəfov, Fuad Salayev, Fuad Bakıxanov, Natiq Əliyev, Xanlar Əhmədov, Elxan Aslanov, Sahib Quliyev və b. müxtəlif biçimli əsərlərində ənənə ilə müasirliyin vəhdətini, sənətlərin sintezi probleminin uğurlu həllini tapdığı məqamlar kifayət qədərdir" (Əliyev, Xəlilov, 2010: 73).

## Ədəbiyyat

1. Əliyev, Z. (2016). XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələsi. Bakı: Elm və təhsil, 190 s.
2. Axundzadə, L. (2011). XX əsr dünya təsviri incəsənəti. Bakı: Azərnəşr, 224 s.
3. Səfərli-Ağasoy, H. (2016). Müstəqillik dövründə Azərbaycanın dəzgah heykəltəraşlığı: sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. Bakı, 130 s.
4. Quliyev, R. (2013). Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, "Letterpress", 220 s.
5. Sadıqov, S. (2018). Tablolarda yaşanan cümhuriyyət. Mədəniyət.az., №2.
6. Ələkbərov, E. (2016). Heykəltəraş Fuad Salayevin yaradıcılığı: sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. Bakı, 126 s.
7. Qasımov, F. (2014). Xalq rəssamı Natiq Əliyevin yaradıcılığı müasir Azərbaycan heykəltəraşlığı kontekstində: sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. Bakı, 131 s.
8. Əfəndi, R. (2007). Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 160 s., 112 s. (illüst.)
9. Qasımov, Q. (2015). Heykəltəraş Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirik: sənətşünaslıq üzrə fəlsəfə doktoru avtoreferatı. Bakı, 27 s.
10. Xəlilov, A. (2012). "Heykəltəraşın sənət dünyası" (Heykəltəraş Sahib Quliyevin yaradıcılığı haqqında). "Palitra" № 69 (1778), 26 iyun.
11. Xəlilov, A. (2011). "Cığır yola qovuşur". Gənc heykəltəraş Vüqar Quliyev haqqında. "Mədəniyyət" № 16 (815), 2 mart.
12. Əliyev, Z., Xəlilov, A. (2010). Azərbaycan incəsənəti: 3 cilddə. Bakı: Letterpress, s.1., 104 s.

Göndərildi: 20.01.2023 Qəbul edildi: 02.05.2023

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 5 / 87-95 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 5 / 87-95 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/90/87-95

**Tamerlan Hacıyev**
Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
tamerlan.haciyev.2000@mail.ru

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARININ BANİSİDİR

**Xülasə**

Demokratik ideallara bağlılıq Azərbaycan xalqının milli düşüncə sistemində daim özünə möhkəm yer tapmış, onun yüzilliklər boyu can atdığı müstəqil dövlətçilik idealının ümdə qayəsinə çevrilmişdir. Ənənəvi və modernləşmiş sivilizasiyaların qovuşuğunda yerləşmiş respublikamız müstəqillik əldə etdikdən sonra demokratik dəyərlər vasitəsi ilə qlobal dünyaya inteqrasiya və milli-mədəni özünəməxsusluq yolunu seçmişdir. Bu gün Azərbaycan çevik və müstəqil siyasət yeridərək yeni dünya nizamının formalaşması prosesinə töhfəsini verir və qloballaşan dünyanın tərkib hissəsinə çevrilir.

Müstəqilliyimizin bərpasının ilk illərində bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycanda bu sahədə, demək olar ki, əsaslı irəliləyiş baş verməmişdi. 90-cı illərin əvvəllərində ölkədə yaşanan siyasi kataklizmlər, vətəndaş qarşıdurması, siyasi xaos və özbaşınalıq, iqtisadi tənəzzül, təcrübəsizlik, eyni zamanda, yeni cəmiyyətin tələblərinə uyğun qanunların olmaması kimi neqativ amillər bu vəziyyətə öz mənfi təsirini göstərmişdir.

1993-cü ilin iyununda dünya şöhrətli ictimai-siyasi xadim, ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanın siyasi hakimiyyət rəhbərliyinə qayıdışından sonra ölkədə qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi prosesi geniş vüsət almışdır.

***Açar sözlər:*** *Heydər Əliyev, ümummilli lider, islahatlar, idarəçilik, hüquq sistemi, məhkəmə sistemi*

**Tamerlan Hajiyev**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
tamerlan.haciyev.2000@mail.ru

## National leader Haydar Aliyev is the founder of judicial and legal reforms in Azerbaijan

**Abstract**

Adherence to democratic ideals has always found a strong place in the National thinking system of the Azerbaijani people and has become the basis of the ideal of independent statehood, which it has been striving for for centuries. Located at the crossroads of traditional and modernized civilizations, our republic has chosen the path of integration into the global world and national-cultural identity through democratic values after gaining independence. Today, Azerbaijan, pursuing a flexible and independent policy, contributes to the formation of a new world order and becomes an integral part of a globalized world.

In the first years of the restoration of our independence, due to a number of objective and subjective reasons, there was practically no significant progress in this area in Azerbaijan. Negative factors such as political cataclysms, civil strife, political chaos and arbitrariness, economic decline, inexperience, as well as the lack of laws in accordance with the requirements of the new society in the country in the early 90s had a negative impact on this situation.

After the return of the world-famous public and political figure, great leader Haydar Aliyev to the leadership of the political power of Azerbaijan at the request of the people in June 1993, the process of implementing complex measures to restore legality and legal rules in the country became widespread.

***Keywords:*** *Haydar Aliyev, national leader, reforms, administration, legal system, judicial system*

## Giriş

1995-ci ildə ilk milli Konstitusiyanın qəbulundan sonra respublikamızda həyata keçirilən məhkəmə-hüquq islahatlarının əsas qayəsi və məqsədi də məhz vətəndaşların konstitusion hüquqlarının yüksək səviyyədə təminatına nail olmaqdan ibarət olmuşdur. Ulu öndər Heydər Əliyevin 21 fevral 1996-cı il tarixində Hüquqi İslahat Komissiyasının yaradılması barədə sərəncam imzalaması da bu niyyətdən irəli gəlmişdir. Həmin komissiya tərəfindən hazırlanan bir sıra qanunlar ölkədə hüquqi dövlət quruculuğu prosesinə uğurlu töhfə olmuşdur.

Beynəlxalq hüquqi aktların implementasiyası prosesinin nizamlanmasında Azərbaycan Respublikası Prezidentinin 16 avqust 1994-cü il tarixli “Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər” haqqında Sərəncamı mühüm rol oynamışdır. Bu proses 13 iyun 1995-ci il tarixli “Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası, denonsasiyası haqqında” Qanunu və 20 dekabr 1996-cı il tarixli “Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin bağlanması, icrası, denonsasiyası qaydalarının təsdiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə tənzimlənir (1). Bundan əlavə, 6 iyun 2000-ci il tarixdə “Beynəlxalq xüsusi hüquq” haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur (2).

Respublikamız, eyni zamanda, insan hüquq və azadlıqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, mühüm konvensiyalara qoşulmuş, ümumbəşəri mütərəqqi dəyərlərin inkişafında maraqlı olduğunu birmənalı nümayiş etdirmişdir. Azərbaycan Respublikası bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunmuş ümumi beynəlxalq müqavilələrdən olan 19 dekabr 1966-cı il tarixli “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Paktın, 19 dekabr 1966-cı il tarixli “Vətəndaş və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktın, “Vətəndaş və siyasi hüquqlar haqqında” Beynəlxalq Pakta birinci Fakultativ Protokolun, “Vətəndaş və siyasi hüquqlar haqqında” Beynəlxalq Pakta 15 dekabr 1989-cu il tarixli ikinci Fakultativ Protokolun, 4 noyabr 1950-ci il tarixli “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiya və onun 1, 4, 6, 7 saylı Protokollarının iştirakçısıdır (3). Bu sıraya həmçinin, 1966-cı il tarixli İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Pakt, BMT-nin 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyası, BMT-nin Qadınların siyasi hüquqlarına dair 1952-ci il tarixli Konvensiyası, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair 1979-cu il Konvensiyası, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair 1965-ci il Beynəlxalq Konvensiyası da daxil edilməlidir.

İnsan hüquq və azadlıqlarının təminatı ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktlar içərisində ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış 1998-ci il 22 fevral tarixli “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər” haqqında Fərman xüsusi əhəmiyyətə malikdir. Bu mühüm sənəddə insan hüquqlarının təminatı yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. Respublikamızda insan hüquq və azadlıqlarının təminatı sahəsində həyata keçiriləcək tədbirlərin konseptual istiqamətlərini özündə ehtiva edən bu sənəd ümumilikdə Azərbaycanda demokratik proseslərin dərinləşməsinə təkan vermişdir. BMT-nin insan hüquqlarına dair 1948-ci il 10 dekabr tarixli Ümumi Bəyannaməsinin qəbul edilməsinin 50 illiyi astanasında imzalanmış Fərman ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi, insan hüquqlarının qorunması sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi daşıyırdı.

Fərmanın preambula hissəsində vurğulanır ki, “Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının

təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Azərbaycan dövləti siyasi-hüquqi potensialından tam istifadə etməklə bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür" (4).

Fərman bir sıra dövlət orqanları, nazirlik və komitələr, məhkəmə, prokurorluq, daxili işlər orqanları qarşısında insan hüquq və azadlıqlarının təminatı ilə bağlı bir sıra mühüm məqsəd və vəzifələr müəyyənləşdirmişdir. Həmin vəzifələri nəzərə alaraq, Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti 1998-ci il iyunun 18-də daha bir sərəncam imzalamışdır. Strateji əhəmiyyətli bu sərəncamla "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiqlənməsi də siyasi-hüquqi mühitin liberallaşdırılması və insan hüquqlarının təminatı baxımından geniş imkanlar açmışdır.

Dövlət Proqramına əsasən Azərbaycanın qoşulduğu konvensiyalara, qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda, Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır (Azərbaycan Prezidenti İlham Əliyevin 17 iyun 2007-ci il tarixli fərmanı ilə 18 iyun tarixinin – "İnsan Hüquqları Günü" elan olunması da məhz bu əlamətlar tarixdən qaynaqlanır).

"Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda İnsan hüquqları üzrə Azərbaycan Respublikasının müvəkkili (Ombudsman) təsisatının yaradılması, respublikamızın insan hüquqları ilə bağlı mühüm beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması (söhbət İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutundan gedir. Bu institut Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 1998-ci il tarixli Sərəncamı əsasında Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 26 may 1999-cu il qərarı ilə yaradılıb), normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın inkişaf etdirilməsi və digər mühüm məsələlər əksini tapmışdır.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində qazandığı mühüm nailiyyətlərdən biri də Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə" haqqında Memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın icrası ilə bağlı ictimai və beynəlxalq təsisatlarla sıx əməkdaşlıq şəraitində iş aparılmış, mövcud xarici təcrübə təhlil edilərək, konkret strategiya müəyyən olunmuş və nəticədə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu qəbul edilmişdir. Qanuna əsasən Ombudsman institutunun təsis olunmasının əsas məqsədi kimi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi müəyyən olunmuşdur.

Düşünürəm ki, ombudsmanın statusunun Konstitusiya Qanunu səviyyəsində müəyyən edilməsi dövlət tərəfindən onun insan haqlarının təmin edilməsi sahəsində çox mühüm rol oynayan müstəqil, qərəzsiz, siyasətsizləşdirilmiş təsisat kimi tanınmasının bariz nümunəsidir. Bu heç də təsadüfi deyildir – Ombudsman təsisatı istər dövlət, istərsə də cəmiyyət üçün olduqca vacibdir. Ombudsman insan hüquqlarının həyata keçirilməsi üçün dövlət və cəmiyyət arasında vasitəçilik funksiyasını yerinə yetirir. Ombudsman cəmiyyətin maraqlarını dövlətə çatdırır, dövlət orqanlarının diqqətindən yayınan və ya yol verdiyi nöqsan və çatışmazlıqları müəyyən edir və onlara həmin nöqsan və çatışmazlıqların aradan qaldırılmasında kömək edir. Ombudsman təsisatının fəaliyyətə başlaması üçün hüquqi və maddi bazanın təşkili respublikamızda insan və vətəndaş hüquqlarının təminatı

istiqamətində həyata keçirilən hüquqi islahatların məntiqi davamı olub Azərbaycanın Avratlantik məkana sürətlə inteqrasiyasına zəmin yaratmışdır.

Demokratik quruluşun, vətəndaş cəmiyyətinin formalaşması prosesinin ayrılmaz tərkib hissələrindən biri də söz və mətbuat azadlığının yüksək səviyyədə təmin olunmasından ibarətdir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonrakı ilk illərdə − səriştəsiz qüvvələrin hakimiyyəti dövründə ölkədəki böhranlı ictimai-siyasi şəraitlə bağlı söz və mətbuat azadlığından danışmaq mümkün deyildi. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan mətbuatının inkişafında tamamilə yeni mərhələ başlandı. Respublikada ictimai-siyasi sabitliyin bərqərar olması, vətəndaşların təhlükəsizlik təminatının və qanunçuluğun tədricən gücləndirilməsi, sosial-iqtisadi problemlərin həlli istiqamətində ciddi addımların atılması KİV-in fəaliyyəti, söz və mətbuat azadlığının müdafiəsi sahəsində əsaslı irəliləyişlərin əldə olunmasına şərait yaratdı.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində hər kəsin informasiya əldə etmək hüququna təmininat verilmişdir. Konstitusiyaya bu müddəanın daxil edilməsi respublikamızın qoşulduğu beynəlxalq müqavilələrdən irəli gəlmişdir. İnsan Hüquqları Bəyannaməsinin (1948-ci il) 19-cu maddəsi, Mədəni və Siyasi hüquqların qorunmasına dair Konvensiyanın (1966-cı il) 19-cu maddəsi, Avropa İnsan Hüquqlarının qorunmasına dair Roma Konvensiyanın (1950-ci il) 10-cu maddəsi bütünlükdə hər kəsin məlumat azadlığını-informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi və yayılması hüququnun təmin edilməsinin hüquqi əsası kimi çıxış edir (4).

Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 iyun tarixli “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”, eyni zamanda, vətəndaşların Azərbaycan Konstitusiyasında əksini tapmış söz, mətbuat, fikir azadlıqlarının təminatına da əvəzsiz imkanlar açmışdır. Bu Dövlət Proqramından az sonra – Azərbaycan Respublikasının Prezidenti tərəfindən 6 avqust 1998-ci il tarixində imzalanan “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər” haqqında Fərman kütləvi informasiya vasitələrini senzuradan azad etmişdir. Mətbuat üzərində dövlət senzurasının ləğvi barədə fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, cəmiyyət həyatında onların səmərəli rolunun artırılması sahəsində geniş dövlət proqramının əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmini baxımından “Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında” 11 iyun 1999-cu il tarixli Qanun da müstəsna rola malikdir. Bu qanun Azərbaycan Respublikası Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirir, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Qanunun şikayətlərin verilmə qaydası adlanan 2-ci maddəsi dövlət orqanlarını vətəndaşlar qarşısında müəyyən öhdəliklərlə yüklü edir. Qeyd olunur ki, vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizlik) barəsində birbaşa məhkəməyə və ya tabelik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayətlə müraciət etmək hüququna malikdir. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, tabelik qaydasında yuxarı orqan şikayətə 1 aydan gec olmayan müddətdə baxmalı, şikayətə baxılmasının nəticəsi barədə həmin orqanın rəhbərliyi vətəndaşa cavab verməlidir (5).

İctimai münasibətlər sisteminin qanunamüvafiq qaydada tənzimlənməsində, insan və vətəndaş hüquq və azadlıqlarının təminatında mühüm rol oynayan məhkəmə hakimiyyətində kompleks islahatların həyata keçirilməsi də ulu öndər Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Həmin dövrdən ardıcıl surətdə aparılan məhkəmə islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə

demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin konseptual həlli olmuşdur.

1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının təməlini qoymuşdur. Ölkə Konstitusiyasına əsasən, hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmə hakimiyyəti dünyanın mütərəqqi təcrübəsinə əsaslanan modeldə formalaşdırılmışdır. Bu modelə əsasən, ölkəmizdə birinci instansiya, apelyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan yaradır. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə düzgün və obyektiv həllinə şərait yaratmış olur.

Ümumiyyətlə, Azərbaycan Respublikası Konstitusiyasının 7-ci fəslində məhkəmə hakimiyyətinin mahiyyəti, həyata keçirilməsi, funksiyaları, pillələri, səlahiyyət və vəzifələri və s. kimi fundamental məsələlər öz həllini tapmışdır. 125-ci maddədə göstərilir ki, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir (6).

Konstitusiyanın 126-cı maddəsində isə hakimliyə namizədlərə aid tələblər əksini tapmışdır. Burada göstərilir ki, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər. Hakimlər heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər. Yeri gəlmişkən qeyd edilməlidir ki, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 93-cü maddəsində hakim vəzifəsinə namizədlərə aid tələblərə fərqli yanaşma nümayiş etdirilmişdir. Qeyd edilmişdir ki, yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər. Fikrimcə, bu uyğunsuzluq magistrlərin tədqiqat obyekti ola bilər.

127-ci maddədə isə hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri dəqiq təsbit olunmuşdur. Həmin maddəyə görə hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.

Qanunvericilikdə qeyd edildiyi kimi, bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

Konstitusiyaya görə hakimlər toxunulmazdır və onların vəzifədən kənarlaşdırılması təşəbbüsünü onlar cinayət törətdikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 5 / 87-95 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 5 / 87-95 e-ISSN: 2708-986X

Respublikası Ali Məhkəməsinin rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürə bilər. Müvafiq rəyi Azərbaycan Respublikası Ali Məhkəməsi Azərbaycan Respublikasının Prezidentinin sorğusundan sonra 30 gün müddətində təqdim etməlidir (Maddə 128).

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin hakimlərinin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 83 səs çoxluğu ilə qəbul edilir; başqa hakimlərin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 63 səs çoxluğu ilə qəbul edilir (6).

Konstitusiyanın 130-cu maddəsində isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı məsələlər əksini tapmışdır. Bu normaya görə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunu və s. məsələləri həll edir. Bu məsələləri aşağıdakı kimi də təsnifləşdirmək olar:

1) iyerarxiya baxımından normativ hüquqi aktların Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu və özündən üstün hüquqi qüvvəyə malik olan digər normaya uyğunluğu məsələsini həll etmək;

2) Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının qanunda nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu məsələsini həll etmək;

3) bələdiyyə aktlarının Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlara uyğunluğu məsləsini həll etmək;

4) Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu məsələsini həll etmək;

5) qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll etmək;

6) Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş müvafiq orqanların sorğusu əsasında Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərh etmək;

7) İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili tərəfindən verilmiş sorğulara baxmaq;

8) Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək. Bu səlahiyyətlərin hüdudları Azərbaycan Respublikasının Konstitusiyasının müxtəlif maddələri ilə dəqiq müəyyənləşdirilmişdir (7).

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini həyata keçirən qurumlardan biri də Azərbaycan Respublikasının Ali Məhkəməsidir. Konstitusiyanın 131-ci maddəsində Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə bağlı müddəalar öz əksini tapmışdır. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir; məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir.

Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti sisteminə daxil olan apellyasiya məhkəmələri isə mülki, kommersiya və inzibati mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir.

Ümummilli lider tərəfindən aparılan məhkəmə-hüquq islahatlarının əhatə etdiyi məsələlərdən biri də Azərbaycan Respublikasının Prokurorluğu ilə bağlıdır. Prokurorluq haqqında müddəalar ölkə Konstitusiyasının Məhkəmə hakimiyyəti adlanan 7-ci fəslində yerləşdirilmişdir. 133-cü maddədə qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir. Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır. Bu orqan ümummilli liderin hakimiyyəti dövründə öz mahiyyətini dəyişmiş, insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmində xüsusi yer tutan bir quruma çevrilmişdir. Bununla bərabər qeyd edilməlidir ki, prokurorluqla bağlı hüquq ədəbiyyatında müxtəlif fikirlər mövcuddur. Bir qrup alimlər prokurorluğu məhkəmə hakimiyyətinin tərkib hissəsi olması fikri ilə razılaşmır və bu orqana daha çox səlahiyyət verilməklə onu dövlət hakimiyyətinin müxtəlif qolları arasında tarazlıq yarada biləcək bir dövlət qurumu statusunda görmək istəyirlər.

Məhkəmə-hüquq islahatları istiqamətində aparılan tədbirlər sırasında “Məhkəmələr və hakimlər haqqında” 10 iyun 1997-ci il, “Konstitusiya Məhkəməsi haqqında” 21 oktyabr 1997-ci il tarixli Azərbaycan Respublikasının qanunlarını, həmçinin, “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 iyul 1998-ci il tarixli və “Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 1998-ci il tarixli Fərmanlarını və 2000-ci ildə hakim korpusunun formalaşmasına yönəlmiş demokratik əsasları xüsusilə vurğulamaq lazımdır.

Aparılan məhkəmə hüquq islahatları nəticəsində yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən və insan haqlarının müdafiəsinə daha etibarlı təminat yaradan üçpilləli müstəqil məhkəmə sistemi yaradılmış, həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin görülməsi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilmiş, məhkəmələr üzərində prokuror nəzarəti ləğv edilmiş, bəzi istintaq hərəkətlərinə məhkəmə nəzarəti, habelə təhqiqat, istintaq və prokurorluq orqanlarının qanunsuz hərəkətlərindən məhkəməyə şikayət hüququ müəyyən olunmuşdur (8).

“Azərbaycan Respublikasında hakim vəzifəsinə namizədlərin seçilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” 17 yanvar 2000-ci il tarixli fərmanla Azərbaycan Respublikasında hakim vəzifəsinə namizədlərin seçilməsi qaydalarının təkmilləşdirilməsi, onların şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun seçilməsi, hakimliyə namizədlərin peşə hazırlığının, bu vəzifəyə layiq olmasının müəyyən edilməsi və hakim vəzifəsinə ixtisaslı və səriştəli şəxslərin təyin edilməsi hakim vəzifəsinə namizədlərin seçilməsi test üsulu ilə imtahan və müsahibə əsasında həyata keçirilçəsi təmin edilmişdir. Məhkəmə-Hüquq Şurası hakimliyə namizədlərin şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun seçilməsi məqsədilə test üsulu ilə imtahan və müsabiqənin keçirilməsini təmin etmişdir. Bu məqsədlə bir sıra zəruri tədbirlər görülmüş, müstəqil və demokratik məhkəmə hakimiyyətinin formalaşdırılması sahəsində zəngin ənənələri olan dövlətlərin qabaqcıl təcrübəsi öyrənilmiş, Azərbaycan Respublikasında hakimliyə namizədlərin seçilməsi qaydaları təsdiq edilmişdir. Hakimlərin seçilməsi prosesinin birinci mərhələsinin – test üsulu ilə yazılı imtahanın təşkilində Dövlət İmtahan Mərkəzi ilə işgüzar əlaqələr qurulmuş, imtahanın bütün mərhələlərini izləmək üçün prosesdə yerli və xarici KİV-in, habelə QHT-lərin iştirakına şərait yaradılmışdır. Hakimliyə namizədlərin seçilməsinin şifahi müsabiqə mərhələsində də şəffaflıq eyni qaydada təmin edilir.

Yuxarıda qeyd edildiyi kimi Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsi prokurorluğa həsr edilmişdir. Maddədə həm də qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Baş Prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir. Azərbaycan Respublikası Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlara rəhbərlik edən prokurorları, Naxçıvan

Muxtar Respublikasının Prokurorunu Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Ərazi və ixtisaslaşmış prokurorları isə Azərbaycan Respublikasının Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

Ulu öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 1999-cu il 7 dekabr tarixində qəbul edilmiş "Prokurorluq haqqında" Qanunda prokurorluq orqanlarında ciddi islahatların aparılması, bu mühüm orqanın funksiya və vəzifələrinin keyfiyyətcə müasirləşdirilməsi məsələləri konseptual əsasda öz əksini tapmışdır (9). Bu qanuna əsasən, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma, vahidlik, mərkəzləşmə, siyasi bitərəflik prokurorluğun fəaliyyətinin əsas prinsiplərini təşkil edir (Maddə 5). Eyni zamanda qanunla nəzərdə tutulmuş hallarda və qaydada cinayət işinə başlamaq, ibtidai istintaq aparmaq, ibtidai istintaqa prosessual rəhbərlik etmək və qanunlara riayət edilməsini təmin etmək, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət etmək, məhkəmədə iddia qaldırmaq (ərizə vermək), mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək, məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak etmək, dövlət ittihamının müdafiə etmək, məhkəmə qərarlarından protest vermək, habelə məhkəmələr tərəfindən təyin olunmuş cəzaların məqsədinə nail olunmasında iştirak etmək prokurorluğun fəaliyyət istiqamətlərinə aid edilmişdir (Maddə 4).

Sonrakı mərhələdə "Prokurorluq haqqında" Qanuna müvafiq olaraq sözügedən orqanda islahatlar keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, həyata keçirilən struktur və kadr islahatları onun demokratik mahiyyətdə yenidən formalaşmasını təmin etmişdir (10); (11).

Ümummili lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi haqqında" Əsasnaməyə uyğun olaraq 2002-ci ildən etibarən işə qəbul olunmaq istəyən hər bir namizədin bilik səviyyəsi, ümumi dünyagörüşü və digər şəxsi keyfiyyətləri iki mərhələdə – test imtahanları və yazılı müsabiqə yolu ilə öyrənilir, ən yaxşı namizədlər təyin olunur. 29 iyun 2001-ci il tarixində "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun qəbulu isə prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesinə yeni çalarlar əlavə etdi (12); (13).

## Nəticə

Ümummilli liderin təməlini qoyduğu hüquqi islahatların XXI əsrdə uğurla davamı, bu sahədə dünyada qəbul edilən irəliləyişlər təbii ki, öz nəticəsini göstərir, dünya miqyasında ölkəmizə olan münasibət yaxşılığa doğru dəyişir. Ölkəmizdə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun və real məzmun kəsb edir, vətəndaşların əsas hüquqlarının müdafiəsinin milli mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu siyasi xətt ölkəmizdə insan hüquqlarının etibarlı təminatına, Avropa və dünya hüquq məkanına inteqrasiyanın daha da inkişafına töhfələr verməkdədir.

## Ədəbiyyat

1. http://www.e-qanun.az/framework/9460
2. https://migration.gov.az/content/pdf/6987ba13c9601f741f42bcbdcbf14a08.pdf
3. http://www.e-qanun.az/alpidata/framework/data/4/f_4981.htm
4. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyun2009/82827.htm
5. http://www.e-qanun.az/framework/4763
6. http://www.e-qanun.az/framework/897
7. http://www.e-qanun.az/framework/5404
8. http://www.anl.az/down/meqale/azerbaycan/2011/oktyabr/205452.htm
9. http://www.e-qanun.az/framework/5229
10. http://anl.az/down/meqale/azerbaycan/2010/sentyabr/133669.htm

11. http://www.anl.az/down/meqale/azerbaycan/2013/fevral/295757.htm
12. http://www.e-qanun.az/framework/11357
13. http://www.e-qanun.az/alpidata/framework/data/12/f_12322.htm

Göndərildi: 24.01.2022 Qəbul edildi: 08.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/96-101

**Rauf Abiyev**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
rafsters99999@gmail.com

# MAIN TRENDS IN RISK MANAGEMENT IN PUBLIC ADMINISTRATION

## Abstract

The article analyzes the main trends in risk management in public administration, which currently have significant importance in the formation of a quality system capable of increasing the overall performance and efficiency of government agencies. In all of the trends mentioned below, methods and approaches aimed at improving them are indicated. In addition, international practices applied in these trends are shown, as well as analogies and tools of risk management practice in the public administration of the Republic of Azerbaijan, such as the Law of the Republic of Azerbaijan "On Combating Corruption," the National Strategy for Increasing Transparency and Combating Corruption, the "National Action Plan for 2022-2026 to Strengthen the Fight Against Corruption in Azerbaijan," Open Government, as well as the "Development Strategies of the Public Service in the Republic of Azerbaijan for 2019-2025."

***Keywords:*** *risk management, legislation, accountability, transparency, HRM, Azerbaijan, public administration*

**Rauf Abıyev**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
rafsters99999@gmail.com

## Dövlət idarəçiliyində risklərin idarə edilməsində əsas tendensiyalar

## Xülasə

Məqalədə hal-hazırda dövlət orqanlarının ümumi məhsuldarlığını və səmərəliliyini artıra biləcək keyfiyyət sisteminin formalaşmasında mühüm əhəmiyyət kəsb edən dövlət idarəçiliyində risklərin idarə edilməsinin əsas tendensiyaları təhlil edilir. Aşağıdakı tendensiyaların hamısı onları təkmilləşdirməyə yönəlmiş yolları, metodları və yanaşmaları göstərir. Bununla yanaşı, bu tendensiyalarda tətbiq olunan beynəlxalq təcrübə, habelə Azərbaycan Respublikasının dövlət idarəçiliyində risklərin idarə edilməsi təcrübəsinin “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya, “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022−2026-cı illər üçün Milli Fəaliyyət Planı”, açıq hökumət, o cümlədən “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya” kimi analoqları və alətləri göstərilir.

***Açar sözlər:*** *risklərin idarə edilməsi, qanunvericilik, hesabatlılıq, şəffaflıq, HRM, Azərbaycan, dövlət idarəçiliyi*

## Introduction

Risk management is becoming increasingly important in public administration around the world. It represents a systematic approach to identifying, assessing, and managing risks that may affect the tasks, goals, and missions of government organizations. The goal of risk management practice is to reduce uncertainty and variability in decision-making, as well as to prepare

government organizations to deal with potential risks that could harm their activities, reputation, or the safety of the population.

Modern risk management in public administration is characterized by several common trends that have emerged in recent years. One of the key trends is the *improvement of legislation*. In many countries, the legal framework for risk management in the public sector is outdated, fragmented, and lacks sufficient coherence. In this regard, there is an increasing recognition of the need to improve legislation in order to create a stronger foundation for effective risk management in public administration. These measures aim to enhance the uniqueness and quality of risk management in the public sector and contribute to strengthening the reputation of organizations, ensuring the safety of the population, and achieving set goals and missions.

One important method for improving *legislation* for risk management in public administration is to create a comprehensive legal framework that covers all aspects of risk management, including identification, assessment, and mitigation of risks. Such a structure can ensure that all risks are identified and managed properly, and decision-making is based on a clear understanding of potential risks. Thus, creating a comprehensive legal framework is an important approach to improving legislation and enhancing the effectiveness of risk management in the public sector (United Nations, 2012: 25).

Another important approach to improving legislation for risk management in the public sector is the creation of special laws and regulations aimed at addressing specific risks or industries. For example, many countries have adopted environmental protection laws that require government organizations to assess and manage risks associated with their activities. Similarly, there is increasing attention being paid to managing cyber risks, and many countries have developed special legislation to address this emerging threat.

The Health and Safety at Work Act (1974) enacted in the UK is an example of legislation aimed at improving risk management in the workplace. This act provides the framework for managing risks associated with health and safety in the workplace. It requires employers to identify and assess risks associated with their activities and take appropriate measures to reduce those risks. It also establishes a system of enforcement and penalties to ensure compliance with the law (2).

Another example of a legislative initiative related to risk management is the European Union's General Data Protection Regulation (GDPR), which came into force in 2016. It is designed to minimize risks associated with the processing of personal data and requires government organizations to take specific measures to ensure the confidentiality and security of personal information (3).

Regarding the Republic of Azerbaijan, the following fundamental regulatory acts can be cited that regulate risks in public administration:

− The Law of the Republic of Azerbaijan "On Combating Corruption. This law aims to identify, prevent and eliminate the consequences of offenses related to corruption, protect social justice, human and citizen rights and freedoms, create favorable conditions for the development of the economy, ensure legality, transparency and efficiency of the activities of state bodies and local self-government bodies, officials. This law also aims to strengthen public trust in state bodies, stimulate the entry of professional personnel into the service of state bodies and local self-government bodies, create conditions that exclude the commission of offenses related to corruption by these persons (4).
− National Strategy on Increasing Transparency and Anti-Corruption. The National Strategy for Combating Corruption and Increasing Transparency in the Republic of Azerbaijan, which was a continuation of the State Program on Combating Corruption (2004-2006), provides a comprehensive set of consistent and phased measures, both short-term and long-term, aimed at combating corruption and strengthening democratic principles in the country (5).
− 2022-2026 National Action Plan to Strengthen the Fight Against Corruption is a multifaceted plan that involves the consolidation of efforts of all state structures and civil society institutions in the fight against corruption. This action plan aims to eliminate corrupt practices in various

fields of activity and ensure systematic and coordinated efforts to combat corruption throughout the country (6).

Another important trend in public governance is the *increasing accountability* and transparency. In recent years, more and more citizens and stakeholders expect greater transparency and accountability from government institutions in risk management issues. This trend is driven by the development of technology and the wide access to information, which raises the standards of openness and accountability in all areas of public governance.

One way to promote accountability and transparency is through the use of open data initiatives. Open data initiatives aim to make government data more accessible to the public and stimulate the development of new applications and services that can use this data to provide value to citizens. By providing wider access to government data, open data initiatives can help expand public participation and involvement in government decision-making processes, as well as promote greater accountability and transparency in government activities (OECD, 2019: 8).

The federal government of Canada is an example of a government organization that pays great attention to enhancing accountability and transparency in risk management. In 2004, the Canadian Treasury Board Secretariat implemented a Risk Management Policy that emphasizes the importance of accountability, transparency, and engagement in risk management. In accordance with this policy, departments and agencies are required to develop and apply risk management plans that are approved by senior management and made available to the public on departmental websites (8).

The Australian government has also taken measures to increase transparency and accountability in risk management. In 2007, a new risk management standard was introduced that places special emphasis on these aspects. According to the standard, government organizations must develop risk management plans that are widely accessible to the public and contain a comprehensive analysis of risks and ways to manage them (9).

Open Government is a global initiative that was introduced on September 20, 2011 and quickly gained support from Azerbaijan. The aim of joining this organization is to combat corruption and improve governance in the Azerbaijani government through enhancing transparency and exchanging experience with other participating countries. The main three components of open government in the Republic of Azerbaijan are the "One-Stop Shop" principle, e-government, a project that is part of the "Electronic Azerbaijan" program, and the "ASAN Xidmət" service.

On February 27, 2020, the President of the Republic of Azerbaijan issued a decree approving the "National Action Plan on Promotion of Open Government for 2020-2022". This plan includes sections devoted to measures to prevent corruption and increase transparency in the activities of government agencies, financial transparency, combating money laundering and the financing of terrorism, improving public services, access to information, as well as accountability, transparency, and public participation in local self-government. As part of this plan, measures are also envisaged to increase transparency, accountability, and consumer satisfaction with communal services provided to the population (10).

The public interest in increasing transparency and accountability in risk management is likely to persist and grow, as citizens and stakeholders seek greater openness and honesty from governments.

Integrating Human Resource Management (HRM) into risk management is another key trend in public administration. HRM plays an essential role in risk management by ensuring that personnel are properly trained, have the necessary skills, and are held accountable for their actions. HRM can help in identifying, assessing, and mitigating risks associated with personnel, including recruitment, performance evaluation, and staff training (Edyta Bombiak, 2017: 124).

One way to integrate HRM with risk management is to use performance indicators to assess the effectiveness of personnel in risk management. Such indicators help identify areas where additional training is needed and also encourage personnel accountability for their actions.

Due to the constantly changing risks faced by government organizations, the integration of HRM into risk management is becoming increasingly important. HRM should be seen as an important element of risk management strategy, and the risk management culture should reflect this

by emphasizing the importance of the role of HRM in identifying and managing risks. To support HRM initiatives, appropriate resources must be allocated (Triant Flouris, Ayse Kucuk Yilmaz, 2010: 27).

The integration of HRM into risk management can contribute to the formation of a risk management culture based on responsibility and a proactive approach. Involving employees in the risk management process can help them understand their role in risk management and create conditions for identifying and reporting potential risks. As a result, employees become more responsible and interested in preventing possible risks, which can lead to improved risk management effectiveness in the organization.

In recent years, in the Republic of Azerbaijan, one of the largest breakthroughs in this trend is considered to be the Presidential Decree on the approval of the "Strategy for the Development of the Civil Service in the Republic of Azerbaijan for 2019-2025" (13). The main goal of the strategy is to improve the management of the state service system, develop the personnel potential of state agencies, and increase the efficiency of their activities through the formation of a corps of civil servants with knowledge, skills, and positive personal qualities based on high moral and ethical values.

The adopted strategy for the development of the system of public service includes large-scale and fundamental changes in such key areas as institutional development, personnel policies, rotation of civil servants, increasing their professionalism and effectiveness, introducing competency models and progressive motivation in public service, improving the information support of public service, and other related areas.

All these measures are aimed at a unique improvement of the work of the public service system as a whole. This strategy proposes the following directions for the qualitative development of human resources in the civil service, which can directly influence the regulation of risks in public administration:

1. Implementation of institutional reforms in the civil service. The civil service system in the Republic of Azerbaijan currently combines elements of both career and position-based models. However, the implemented reforms aim to strengthen the civil service system based on the position-based model and have shown positive results.
2. Development of personnel policy in the civil service. To implement effective personnel policy in government agencies, it is necessary for their leaders to prioritize working with human resources and take measures to educate and develop their subordinates in this area.
3. Rotation in the civil service. For the effective implementation of rotation of civil servants, it is also necessary to conduct systematic monitoring and analysis of its results in order to identify problems and adjust the process. An important aspect is ensuring transparency and openness of the rotation process in order to exclude the possibility of unlawful influence on decisions regarding the transfer of civil servants to new positions.
Azərbaycan musiqi tarixi və onun nəzəriyyəsi çoxəsrlik tariximizin tərkib hissəsi hesab olunur. Keçmişdə teatr xarakteri daşıyan hər bir tamaşanın tərkibində hökmən musiqinin və nəğmənin böyük rolu olurdu. Musiqi sənətiylə yanaşı, səhnə sənətinin ruşeymləri paralel inkişaf etmiş, əsrlər keçdikcə müəyyən müstəqil formalara ayrılmışdır. Azərbaycanda teatr musiqisinin inkişafı proessesi də tamaşalarda istifadə olunan müasir musiqinin əldə etdiyi yüksək nailiyyətlərlə bağlıdır. Belə ki, tamaşa hazırlığı prosesində musiqi tərtibatçılarının nəyə fikir verməli olması kimi aktual məsələlər həm də bu mövzunun tədqiqini zəruriləşdirir.

Dramatik teatrda musiqi tərtibatının özəlliklərinin araşdırılması, dramatik tamaşalarda musiqinin vəzifələrinin nədən ibarət olduğunun tədqiqi, dünya və Azərbaycan teatr tarixindən məşhur nümunələrin gətirilməsi ilə tamaşanın ideya mahiyyətinin açılmasında musiqinin nə kimi rol oynadığının müəyyənləşdirilməsi məqaləmizin başlıca vəzifələrindəndir.

Teatr mövcud olduğu gündən musiqi onunla bərabər mövcud olmuşdur. Buna görə də ilk teatr nümunələrinə söz, rəqs, oxuma və hərəkət daxil idi. Yarandığı gündən bu günədək tear sənətində istifadə olunan nəğmələr, bəstəkar musiqiləri bizə köklərimizin əslində nə dərəcədə bağlı olduğunu və hər iki sənətin bir-birindən ayrılmaz qarşılıqlı əlaqədə olduğunu göstərir. Belə ki, musiqinin əsas rolu, sözün təsirini artırırdı, bununla da tamaşanın mühim ifadə vasitələrindən birinə çevrilirdi. Lakin musiqinin bütün formaları qədim yunan teatrı tərəfindən dərk edilərək öyrənilmişdir. Elə Antik dövrün faciələrində musiqi və söz arasındakı sirkulyasiya amfiteatrların verdiyi xüsusi akustikayla gücləndirilmişdi. Təbii ki, Antik dövrün faciə müəllifləri olan, Esxil, Sofokl, Evripid kimi şairlər eyni zamanda musiqiçi olmaqla bu iki sənətin qarşılıqlı əlaqələrinin güclənməsində böyük rolları olmuşdur.

Müasir dövrümüzdə də musiqi bizə tamaşanın ab-havasını anlamağımıza, səhnədə baş verənləri duyaraq təxəyyülümüzün inkişaf etməsinə, izah olunmayan duyğuları hiss etməyimizə yardımcı olur. Musiqi dramatik teatrın ayrılmaz parçası, mühim elementidir və dram teatrında musiqi istər-istəməz tabe mövqe tutur. Lakin eyni zamanda musiqi tamaşada baş verən hadisələrin müstəqil şərhini verir, əsərin mövzusunu və ideyasını özünəməxsus şəkildə təfsir edir, hekayə xətlərinin inkişafına kömək edir, bununla da, tamaşaçının qavrayışına fəal təsir göstərir. Dramatik tamaşada musiqi elə bir vəzifəni yerinə yetirməlidir ki, o eşidilməlidir, lakin görünməməlidir. Musiqinin təsir gücü nə qədər çox olarsa, o qədər az dinləniləcək. Yəni tamaşaçı səhnədə baş verənlərdən çox diqqətini musiqiyə versə, bu zaman tamaşaçının fikri yayınacaq, səhnə və tamaşaçı arasındakı xətt qırılacaqdır. İlham Rəhimli tamaşa musiqisindən bəhs edərkən vurğulayır ki, "İstər zəif, istərsə də güclü musiqi yerində səslənməyəndə aktyor ifasının ümumi partiturasına uyuşmur, emosional təəssürata xələl gətirir" (1). Buna görə də səslənən musiqinin tonu və ritmi ilə səhnədəki hərəkətlər mütləq üst-üstə düşməlidir ki, tamaşaçı səhnədə baş verənləri dərk edə bilsin. Belə olan halda, musiqinin tonunu və ritmini dəqiqləşdirmək səs rejissorunun və quruluşcu rejissorun öhdəsinə düşür. Bu baxımdan rejissor hadisələrin inkişaf xətti ilə musiqinin harada və nə cür azalıb, artmasını müəyyənləşdirir.

Adətən dramatik tamaşalarda musiqi bəstəkar tərəfindən rejissorla, ifaçılarla, rəssamla sıx əməkdaşlıqda yaradılır. Yəni, tamaşa üçün bəstələnən musiqi səhnənin dekoruna qədər uyğun olmalıdır, səhnənin ümumi ab-havası ilə uyğunlaşmalıdır. Lakin onu da qeyd etmək gərəkdir ki, musiqinin tək vəzifəsi tamaşanı müşayiət etmək, tamaşaçılarda illüstrasiya təsiri yaratmaq deyildir. Tamaşada səsələnən musiqi səhnə hərəkətini zənginləşdirməlidir, obrazların daxili aləmlərini açaraq onları tamaşıçlarla tanış etməlidir.

Bəzən elə olur ki, dram tamaşalarının süjetinə yazılan musiqi rejissorun tamaşayla bağlı niyyətiylə üst-üstə düşmür və belə halda həmin musiqi teatr silsiləsindən kənar qalır. Misal üçün, musiqi lirik üslubdadır, lakin, səhnədə baş verənlər dinamik hadisələrdir. Hadisələr kulminasiyaya nöqtəsinə çatanda belə musiqinin təsirindən dolayı tamaşaçı o hissi yaşaya bilmir. Bu, sırf tamaşa üçün yazılan musiqilərə aid deyil, hətta əvvəllər yazılmış əsərlərdən seçilmiş musiqilərə də aiddir. Lakin ən yaxşı musiqi nömrəsi belə üzərində heç bir dəyişiklik etmədən istifadə edilsə, aktyorların ifasına eləcə də tamaşaçıların tamaşanı qavramasına mane ola bilər. Misal olaraq, Moskva Bədaye

Teatrında musiqi hissə müdiri və dirijoru olmuş bəstəkar İlya Satsın Meterlinkin "Mavi quş" əsərinin 1908-ci ildə K.S.Stanislavski tərəfindən quruluş verilmiş tamaşası üçün yazılan musiqisindən danışaq. Belə ki, burada səslənən musiqi parçaları kiçik və parlaq olsa da tamaşanın mahiyyəti ilə uyğunlaşmırdı. Tamaşanı izlədikcə görmək olur ki, səhnədə baş verən hadisələr bir-birinin ardınca heç bir əlaqə olmadan davam edir, musiqi nömrələri bir-birini təkarlayır, musiqi az qala heç bir motiv olmadan alətlərin səs-küyü üzərində qurulur və belə halda hər hansı bir formanı tutmaq çətin olur . "Mavi quş" tamaşası kimi uğursuz musiqi seçimi ilə eyni taleyi yaşayan bir digər tamaşa, "Pyer Qünt"dür. Dahi Norveç dramaturqu olan İbsenin məşhur "Pyer Qünt" əsəri üçün yazılan musiqinin bəstəkarı Edvard Qriqdir. O, məhz İbsenin xahişi ilə bu əsər üçün musiqi bəstələyir. Hər nə qədər Edvard Qriq İbsen pyesinin motivləri əsasında tamamilə müstəqil bir parça bəstələsə də, bəstəkarın parlaq musiqisi rejissorun niyyətinə tabe deyildi, ümumiyyətlə tamaşanın xarakteri və personajarın əhval-ruhiyyəsi ilə əlaqəsiz idi.

Maraqlıdır ki, səhnə əməlinə daxil olan musiqi zamanın ümumi qanunlarına tabe olmur. Bəzən səhnədə iki-üç dəqiqəlik musiqi səsi hiss baxımından normal həyatın 10-15 dəqiqəsinə bərabər olur. Bir qayda olaraq, musiqi parçası ona ayrılan vaxta tam uyğun olmalıdır - bir replikanın sonundan digərinin başlanğıcına qədər. Hətta bununla bağlı dahi rus bəstəkarı, dirijoru S.S.Prokfyov deyirdi ki: "Burada mənə 1 dəqiqə 15 saniyəlik musiqi lazımdır" deyiləndə mənim xoşuma gəlir" (2). Dramatik tamaşalarda musiqi bir neçə növə bölünür:

1. Üvertura;
2. Musiqili fasilələr (hərəkət və ya şəkilə giriş);
3. Aktın və ya tamaşanın musiqi finalı;
4. Səhnə hərəkəti zamanı musiqi nömrələri (Kozyurenko, 1975: 32).

Yuxarıda sadalananları izah edək: Üvertura, tamaşanın əvvəlində hələ pərdə qapalıykən səslənir və tamaşaçı ilə səhnə arasında ilk təmasın qurulmasına kömək olur. Yəni əgər musiqi şən və ritmik xarakterdədirsə, artıq tamaşaçıya az-çox tamaşanın süjeti məlum olur. Əgər bu bir drmatik və ya faciə xarakterli tamaşadırsa, bu zaman səslənən musiqi gərgin və yaxud qəmgin ritmdə səslənir. Üvertüradan sonra onu simfonik orkestrlar əvəz etməyə başlayır. Bəzən üverturada səslənən musiqi parçaları tamaşanın gedişində də davam etdirilə bilər. Çox vaxt musiqi tamaşanın əsas leytmotivinə çevrilir, müxtəlif məqamlarda tamaşa başlayandan bitənədək tərkib hissəsi kimi çıxış edir. Misal üçün, Mehriban Ələkbərzadənin quruluş verdiyi, baş rollarını Şükufə Yusifovanın və Sabir Məmmədovun canlandırdığı və ilk tamaşası olan Elçinin "Qatil" tamaşasında musiqi səhnənin əvvəlindən sonunadək səsləndirilərək tamaşanın tərkib hissəsinə çevrilmişdi. Belə ki, tamaşa lirik-psixoloji və həzin ruhda olduğundan tamaşanın musiqi bəstəkarı Aygun Səmədzadə sırf bu tamaşanın ümumi ruhuna uyğun musiqi bəstələmişdir .

Musiqili fasilələrdə, adətən səhnədəki dekorasiyaların yerləri tənzimlənir, səhnələrin yerləri dəyişdirilir və ya aktyorların geyimlərində dəyişikliklər edilir. Gərgin, kəskin templi, həm dramatik, həm də operalı tamaşalarda musiqi ilə yanaşı, fasilələr, tempin təzadları çox vaxt dekorasiya dəyişikliyi ilə müəyyən edilir (Maroqlin, 1986: 16). Lakin tamaşaçı bu hadisələri bütün çılpaqlığı ilə görmür, onu təsəvvür etməlidir. Eyni zamanda musiqili fasilə iki akt arasında əlaqəni saxlayır: əvvəlki səhnənin əval-ruhiyyəsini davam etdirir və növbəti səhnənin emosional ruhuna hazırlayır.

Tamaşanın sonunda səslənən musiqi isə sanki, son nöqtəni qoyur və bütün tamaşa üçün "simmetrik" çərçivə yaradır.

Bəzən musiqinin çoxşahəli rolu səhnə fəaliyyətinin gedişatına daxil edilir. Tamaşanın süjet xəttində köməkçi rol oynayır, bir parçasına çevrilir. Buna bəzən "süjet musiqisi" də deyilir. Süjet musiqisində daha çox məişət mahnıları, rəqslər, romanslar, marşlar və s. yer alır. Y.İ.Kozyurenko süjet musiqislə bağlı qeyd edirdi ki, "süjet musiqisində həmçinin "akademik" musiqi formalarının orijinal və ya klassik əsərlərindən, məsələn, simfoniyalar, oratoriyalar, ariyalar və s.-dən də istifadə etmək olar" (Kozyurenko, 1978: 25). Süjet musiqisini tamaşanın rejissoru özü tamaşaya daxil edir, harada, necə, hansı dəqiqədə səsləndirilməsini tənzimləyir. Məsələn, Mehdi Məmmdəovun 1970-ci ildə səhnələşdirdiyi Hüseyn Cavidin "Xəyyam" faciəsində bəstəkar Cahangir Cahangirovun bu tamaşa üçün bəstələdiyi musiqisi öz möcüzəvi və sehrli melodiyası ilə salondakı qaranlığı

yansıdırdı. Rejissorun bu tamaşa üçün verdiyi quruluş o qədər mükəmməl idi ki, tamaşada hər şey bir-birini tamamlayırdı. İlham Rəhimli qeyd edirdi ki, "Akademik teatrın tarixində ilk dəfə Mehdi Məmmədov salondakı tavandan asılan mərkəz çilçırağa da səsgücləndirici qurğu yerləşdirmişdi" (Rəhimli, 2017: 156). Burada qeyd etmək istədiyimiz məqam odur ki, musiqi çalınırdı və pərdə asta-asta açılmağa başlayırdı. Səhnənin sağından qaranlığın dərinliyində şam işığı görünürdü. İşıq get-gedə səhnənin önünə doğru gurlaşmağa başlayırdı və onu əlində tutan ağ saçlı Xəyyam görünürdü. Xəyyam burada böyük mütəfəkkir Ömər Xəyyamın məşhur şeirindən bir misra dedikdən sonra aşağı əyilərək şamı səhnənin önündəki əşyaların yanına qoyur. Bütün bunlar baş verərkən fonda ağır bir musiqi səslənərək tamaşanın ab-havasını tamamlayırdı. Aydın Talıbzadə özünün "Mehdi müəmması və ya sənətdə konseptual hamletizm" kitabında tamaşaya və onun musiqi tərtibatı ilə bağlı bele bir fikir bildirmişdi: "C.Cahangirovun musiqisi elə bil ki, geyimlərin, səhnədən asılmış əlvan, nazik, şuxrəngli parçaların arasından öz-özünə peyda olurdu, Xəyyamın ruhunun, dövrün ruhunun melodiyalarını çalırdı, şairin arzularını, zamana etirazını, qüssəsini dilləndirirdi" (Talıbzadə, 2009: 298). Yaxud Tofiq Kazımovun quruluş verdiyi "Yalan" tamaşasının finalında xeyirxahlığın qələbəsi kimi, marş janrında yazılan musiqini misal çəkmək olar. Tamaşanın musiqi bəstəkarı Emin Sabitoğlu idi.

Teatr musiqinin bir digər əsas vəzifələrindən biri onun tamaşaçıdan əlavə aktyorun yaradıcılıq vəziyyətinə göstərdiyi təsirdir. Belə ki, musiqi aktyorun obrazına girməsinə kömək göstərir, təxəyyülünə təsir edir. Musiqi ilə obrazın birlikdə vəhdəti aktyorun duyğularının daxili aləminin vəziyyətinin açılmasında böyük rol oynayır. Ona görə də aktyorun jestləri, mimikaları, addımları musiqi ilə üst-üstə düşməlidir ki, obraz daha ifadəli şəkil ala bilsin. Təbii ki, bütün bunların hamısı rejissorun öhdəsinə düşürdü. Məsələn, elə yenə Tofiq Kazımovun quruluş verdiyi "Yalan" tamaşasından nümunə çəkərək deyə bilərik ki, bu tamaşada rejissorun ideyaları ilə bəstəkarın ideyaları üst-üstə düşdüyündən nəticədə mükəmməl bir mənzərə yaranmışdı. Tamaşanın uğur qazanmasının səbəblərindən biri Tofiq Kazımovun verdiyi quruluş və bəstəkar Emin Sabitoğlunun tamaşanın ruhunu təmsil edən musiqilər yazması idi. Belə ki, bəstəkar tamaşanın baş qəhrəmanlarını xarakterizə edən musiqi bəstələmişdi. Bu musiqilər Tərlan xala və qardaşı qızı Şəlalənin obrazlarını çox gözəl şəkildə əks etdirirdi və tamaşaçılara çatdırırdı. Bəstəkar Tərlan xalanın obrazını tamaşaçılara bilavasitə çatdıra bilməsi üçün onun rolunun ifası zamanı kobud intonasiyalardan istifadə etmişdir. Həmçinin, Şəlalənin obrazını xaraktrizə edən lirik, cazibədar, zərif musiqi tonlarından istifadə etmişdir. Aktyorlar onlara xas musiqi intonasiyaları, mimikaları və jestləri ilə tamaşaya rəng qatır, tamaşaçıların marağını oyadırdı. Nailə Kərimova bu tamaşa ilə bağlı qeyd edirdi ki, "Mahnı janrı vasitəsilə Emin Mahmudov, obraza sosial əhəmiyyət verərək Tərlan xanımı kobud, yöndəmsiz intonasiyalar, aşıqların "deyişmə" melodiyasına yaxın olan melodiya vasitəsilə xarakterizə edir" (Kərimova, 2011: 77).

Bəzən elə olur ki, baş qəhrəman hər hansı bir musiqi əsərini özü ifa edir və belə halda obrazın xüsusiyyətləri musiqinin müşayəti ilə təzahür etmiş olur. Musiqi vasitəsi ilə təkcə xarakterini yox, eyni zamanda, tempramentini, düşüncələrini də ifadə edə bilir. Alekasandr Korneyçukun lirik dramı əsasında Anatoliy Efrosun rejissorluğu ilə quruluş verilən "Platon Kreçert" teletamaşasında baş qəhrəman Platon tamaşanln birinci hissəsində skripkada ifa edir. Gənc Lida ona aşiq olsa da ilk başda Platonu soyuqqanlı biri olaraq qəbul edir, lakin onun skripkadakı ifasından sonra Platona qarşı fikirləri dəyişməyə başlayır. Artıq Lida qarşısında tam başqa bir insan görür. Tamaşaçı isə Lidadakı bu dəyişikliyi ayın şəkildə görə bilir (9).

Musiqinin dramatik tamaşalarındakı rolu Şekspir pyeslərinin tamaşalarında daha çox hiss olunur. Belə ki, Şekspirin pyesləri mahnıların, balladaların, rəqslərin, yürüşlərin, döyüş siqnallarının və s. ifasını təyin edən müəllif qeydləri ilə doludur. Bir çox musiqilər onun dramaturgiyasının ən mühüm funksiyalarını ifadə edir.

Tofiq Kazımovun səhnələşdirdiyi "Antoni və Kleopatra" faciəsinin ideyasının müasir traktovkası, tamaşanın bədii və musiqi tərtibatında bütün ifadə vasitələrinin istifadə olunmasında özünü göstərirdi. Tamaşanın musiqi bəstəkarı Qara Qarayev idi. Bu tamaşadan sonra Tofiq Kazımov Qara Qarayevlə Şekspirin "Hamlet" pyesində yenidən bir araya gəlirlər. Qara Qarayevin

dinamik musiqisi daima həyacanlı, emosional gərginliyi atmosferini yarada bilirdi. Amma eyni zamanda da lirik və incə melodiyalardan da istifadə edirdi, xüsusilə Ofeliyanın dəlilik səhnəsində orkestrin müşayəti ilə incə, şəffaf şəkildə səslənərək psixoloji baxımnan sınmış bir qadının saf qəlbini əks etdirirdi (Rəhimli, 2002: 56). Musiqişünas Nailə Kərimova tamaşayla bağlı fikirlərində qeyd edirdi ki, "Faciənin üç amilinin – bədii, musiqili və səhnə ifadəsinin təsiri o qədər heyrətli idi ki, tamaşaçılar sarsılaraq və katarsis yaşayaraq teatrı tərk edirdilər" (Kərimova, 1986: 43). Həmçinin Şekspirin digər pyeslərində süjet musiqilərinə daxil olan, Ofeliya və Dezdemonanın mahnıları, və "VI Henrix" də cənazə marşları, "Romeo və Cülyetta"da Kapuletti balında rəqslər zamanı səslənən musiqiləri misal çəkmək olar.

Teatr tamaşasında şərti musiqi deyə bir anlayış vardır. Şərti musiqini tamaşaya daxil etmək hekayə musiqisini tqədim etməkdən qat-qat çətindir. Şərti musiqinin ifdə imkanları çox genişdir, müxtəlif orkestr və vokal-xor vasitələrindən istifadə etmək olar. Çox vaxt şərti musiqidən səhnədə emosionallığı artırmaq üçün istifadə edilir. Məsələn, Mixail Lermontovun "Maskarad" əsəri əsasında Mixayil Kozakovun 1985-ci ildə hazıladığı televiziya tamaşasında Ninanın zəhərlənməsi səhnəsi qaranlıq tonlarla, zərif işıqların fonunda qurulmuşdu. Uzaqlardan eşidilən xəfif vals rəqsinin mahnısının tonları getdikcə artmağa və səhnəni dolduraraq faciə mühiti yaratmağa başlayır. Tamaşada dahi bəstəkarlar S.Raxmaninov və P.Çaykovskinin məşhur əsərlərindən (Simfonik rəqslər no45, Etud-op.39-no.2A) istifadə olunub. Beləliklə, tamaşanın rejissoru Mixayıl Kozakov musiqi vasitəsilə Nina və Arbenin obrazını açaraq Lermontovun ideyasını çatdırdı. Bəzən şərti musiqi müxtəlif lirik səhnələrdə ifa olunur. Lakin 1938-ci ildə tamaşanın bərpa olunmuş versiyasında Qlazunovun musiqisindən istifadə olunsa da, burada Lermontovun özünün "müəyyənləşdirilmiş" valsı yox idi (12).

Eləcə də Şekspirin digər pyesi olan "Kral Lir" əsərinin tamaşasında tufan səhnəsində təbiət hadisəsinin musiqili obrazı Şekspir faciəsinin mahiyyətini açır. Beləliklə, şərti musiqi gurultulu elementlər və insanların emosional sarsıntısı ilə səsləşir, bununla da, həmin səhnəni emosional olaraq vurğulayır, tamaşaçıların qəlbində musiqinin köməkliyi ilə küləyin uğultusunu, şimşəyi, küləyin fitini eşitmək mümkünləşir (13).

Sonda qeyd etmək lazımdır ki, opera və baletlərdə ifa olunan musiqi tamaşanın əsasını təşkil edərkən, dram tamaşalarında musiqi əsas fikri, daha aydın və dolğun çatdırılmasına vasitəçi olur, fəaliyyətin, hisslərin, həmçinin səhnədə baş verənlərin mahiyyətinin daha konkret şəkildə ötürülməsinə kömək edir. Musiqi çox vaxt süjetin peripetiyalarını, personajların mürəkkəb və qarışıq əməllərini anlamağa yardım edir. Tamaşanın musiqi həlli həm də rejissorun musiqi duyumundan, musiqi yaddaşının olub-olmamasından, ritmi hiss edib-etməməsindən asılıdır. Yəni rejissor bütün bu sadalananları yerinə yetirə bilirsə sözsuz ki, onun quruluş verdiyi tamaşaların təsir vasitələrindən biri artmış olacaq.

## Nəticə

Göründüyü kimi, musiqi teatrın ayrılmaz bir hissəsidir, onun vacib elementidir və teatr tariximizin parlaq səhifəsini təşkil edən bir sıra tamaşalarda rejissorlar Azərbaycan musiqisinin ən görkəmli bəstəkarları ilə birgə işləyiblər. Lakin bu gün Azərbaycan teatrında yaxın keçmişədək peşəkar yanaşma nümayiş etdirən tamaşa müəllifləri, nədənsə, səhnə əsərinə quruluş verərkən musiqiyə biganə yanaşırlar.

Təəssüflər olsun ki, müasir dövrdə Azərbaycan dramatik teatrlarının heç birində müstəqil orkestrlər fəalliyət göstərmir. Tamaşalarda çox vaxt hazır diskə yazılmış köhnə tamaşaların musiqilərindən istifadə olunur. Təbii ki, bu proeses müasir teatrın tamaşalarını əvvəlki dövrlərin tamaşalarının səviyyəsinə gətirib çıxarda bilmir. Ümid edirik ki, gənc nəsil teatr xadimlərinin arasında keçmiş görkəmli rejissorların, bəstəkarların davamçıları yetişər və onların miras qoyduqları bu gözəl sənəti davam etdirərlər.

Beləliklə, məqaləmizdə biz dramatik teatrda musiqi tərtibatına dair mövcud yanaşmaları diqqət mərkəzinə çəkir, nəzəri mülahizələri konkret tamaşalardan gətirilən misallarla müşayiət edərək dramatik tamaşalarda musiqinin rolunu araşdırmaöa çalışırıq. Burada Azərbaycan dram teatrında

rejissor-bəstəkar tandeminin tarixi və özünəməxsusluqları araşdırılır, həmçinin milli teatr mədəniyyətinin parlaq tamaşalarında uğurlu bəstəkar işlərindən nümunələr gətirilir.

## Ədəbiyyat


1. Rəhimli, İ. (2010). "Mən və özüm". "Mədəniyyət" qəzeti.
2. "Rol muzyki v sozdanii spektaklya". https://knowledge.allbest.ru/culture/2c0a65635a3ad78b5d43a89521316c370.html
3. Kozyurenko, Y.I. (1975). "Osnovy zvukarezhissora v teatre". Iskusstvo, 248 s.
4. Maroglin, L. (1981). "Muzyka v teatralizovannom predstavlenii". M.: Sovetskaya Rossiya, 86 s.
5. Kozyurenko, Y.I. (1978). "Muzikalnoe oformleniye spektaklya". Iskusstvo, 124 s.
6. Rəhimli, İ. (2017). Azərbaycan teatr tarixi. III cild. Bakı: Şərq-Qərb.
7. Talıbzadə, A. (2009). "Mehdi müəmması və ya sənətdə konseptual Hamletizm". Bakı, 363 s.
8. Kərimova, N. (2011). "Azəbaycan teatr musiqisinin təşəkkülü və inkişaf mərhələsi". Bakı, 961 s.
9. "Platon Kreçert-naş sovremennik". https://schooltask.ru/platon-krechet-nash-sovremennik/
10. Rəhimli, İ. (2002). "Akademik Milli Teatr II cild". Bakı, 122 s.
11. Kərimova, N. (1986). "Azərbaycan teatr musiqisinin tarixi". Bakı, 125 s.
12. "Stsenicheskaya istoriya "Maskarada" Lermontova". http://feb-web.ru/feb/lermont/critics/jt/jt1-552-.htm
13. Anikst, A. "Stsenicheskaya istoriya dramaturgii Ulliama Shekspira". http://lib.ru/SHAKESPEARE/shaksp_o.txt


Göndərildi: 29.01.2023 Qəbul edildi: 16.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/145-149

**Elena Osmanova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
eosmanova136@gmail.com

# TURİZM MARKETİNQİNİN PROBLEMLƏRİ

**Xülasə**

Turizm marketinqi potensial səyahətçilər üçün destinasiyaların, görməli yerlərin və xidmətlərin təbliğini əhatə edən mürəkkəb və dinamik bir prosesdir. Turistlərin cəlbi və turizm müəssisələrinin inkişafı üçün müasir marketinq strategiyalarından istifadə vacibdir. Son illərdə turizm sənayesi onun böyüməsinə və davamlılığına təsir edən bir neçə marketinq problemi ilə üzləşmişdir. Bu məqalədə biz turizm marketinqinin bəzi əsas problemlərini və onların potensial həll yollarını müzakirə edəcəyik.

***Açar sözlər:*** *turizm, marketinq, potensial, problem, xidmət*

**Elena Osmanova**
Azerbaijan Tourism and Management University
master student
eosmanova136@gmail.com

## Problems of tourism marketing

**Abstract**

Tourism marketing is a complex and dynamic process that involves promoting destinations, attractions and services to potential travelers. It is important to use modern marketing strategies to attract tourists and develop tourism enterprises. In recent years, the tourism industry has faced several marketing challenges that have affected its growth and sustainability. In this article, we will discuss some of the main challenges of tourism marketing and their potential solutions.

***Keywords:*** *tourism, marketing, potential, problem, service*

## Giriş

Turizm – latınca dönmə hərəkətini ifadə edir. İngiliscə "tour" və "touring" deyimləri də bu sözdən yaranmışdır. Tour (dövr) dairəvi hərəkəti, bəzi qəsəbə və bölgələrin ziyarətini, iş və ya əyləncə məqsədi ilə edilən yer dəyişdirmə hərəkətlərini ifadə edir (Növrəsli, 2013: 36).

Marketinq anlayışı bütün sektorlar üçün mühüm əhəmiyyətə malikdir və ümumiyyətlə, müştərilərin bir məhsulu daha çox istehlak etmələri və satın almaları üçün göstərilən səylər kimi müəyyən edilə bilər. Digər tərəfdən, turizm marketinqi, maddi məhsuldan daha çox müəssisələr tərəfindən təklif olunan xidmətlərin satışı və istehlakı üçün həyata keçirilən fəaliyyətdir. Turizm sektoru və buna görə də turizm marketinqi xüsusilə İkinci Dünya müharibəsindən sonra böyük əhəmiyyət qazanmış və getdikcə bütün dünyada əvəzolunmaz alətə çevrilmişdir. İstehlakçıların ehtiyac və istəklərini əvvəlcədən müəyyən edərək, bu ehtiyacları qarşılayacaq mal və xidmətlərin ilk istehsalçılardan son istehlakçılara ötürülməsini təmin edən bütün xidmət və üsullar marketinq adlanır (Hacıoğlu, 2008: 2). Marketinq, istehlakçıların istəklərini qarşılamaq və biznes məqsədlərinə çatmaq üçün istehsalçıdan son istehlakçıya və ya istifadəçiyə mal və xidmət axınını idarə edən biznes fəaliyyətinin həyata keçirilməsidir (Tavmercan & Özdəmir Meriç, 2002: 1). Marketinqin istehlakçılar və tədarükçülər tərəfindən necə qəbul edildiyi çox vacibdir, çünki bu, istehlakçıları və təşkilatları birləşdirməyi hədəfləyən bir intizamdır və hər iki tərəf marketinq səylərindən üstünlük hiss etməlidir (Gronroos, 2009: 5-6). Kotlerə (1973) görə marketinq məhsula,

xidmətə, yerə və ya ideyaya tələbin ölçüsünü, xüsusiyyətini və vaxtını tənzimləmək üçün görülən fəaliyyətlərdir.

Turizm bazarında tələb və təklifi təmin etmək zəruri şərtdir. Bu baxımdan marketinq araşdırmaları aşağıdakı məqsədlərlə aparılmalıdır:

- turizm imkanlarından xəbərdar olmaq;
- turizm imkanlarından istifadəni aydınlaşdırmaq;
- turizm xidmətlərinin səviyyəsindən razı qalmaq;
- tələb olunan turizm xidmətlərini aşkar etmək (Hüseynov, Əfəndiyeva, 2007: 10-11).

Turizmdə keyfiyyət, bu sahənin inkişafının problemlərindən biridir. Beynəlxalq turizm bazarında xidmətin keyfiyyəti rəqabət üçün güclü mənbədir. Hər hansı bir ölkənin mehmanxanalarında, restoranlarında, turizm komplekslərində xidmətdən razı qalan turistlər onların fəal təbliğatçıları olurlar. Onların yenidən bu yerlərə səfəri turist axınının artmasına və eyni zamanda turizm bölgəsinin şöhrətinin daha da yüksəlməsinə səbəb olur. Nəticədə xidmətin keyfiyyəti turizmin iqtisadi səmərəliliyini artırır.

Restoranlarda əsas çalışmalar diqqət üzrə mərkəzdə olmaqdır. Bir turizm məkanında turist axını olan bir ərazi artıq daxili varlığa və ağılda qalmaq qabiliyyətinə malikdir. Davamlı endirimlər və promosyonlardan başqa, restoranlar davamlı müştərilər axınını cəlb etmək üçün yenilikçi turizm marketinq həllərinə baxmalıdırlar.

Muzeylər, məbədlər, bağlar və parkların əsas çalışmaları dəyişən demoqrafikanın cəlb edilməsidir. Muzeylər, məbədlər, bağlar və əyləncə parkları kimi əsas attraksionlar tez-tez kiçik, diqqət mərkəzində olan izdihamı əhatə edir. Disney əvvəlcə ailələrə və kiçik uşaqlara xidmət edirdi. Muzeylər və məbədlər ənənəvi olaraq tarix və mədəniyyət həvəskarlarını cəlb edir və bağlar çox vaxt təbiət həvəskarları üçün qoruq olur. Marketinq strategiyaları vasitəsilə cəlbedici imic yaradılması gərəklidir (6).

Turizm sahəsində aparılan marketinq araşdırmalaır turizm menecerləri tərəfindən düzgün idarəetmə qərarlarının verilməsi üçün məlumat bazasını təmin edir. Marketinq tədqiqatları aşağıdakıları müəyyənləşdirməyə imkan verir:

1. Səmərəli işlərə mane ola biləcək problemlər;
2. Problemlərin səbəbləri və potensial həlləri;
3. Turizm bazarında gələcək tendensiyalar.

Uğurlu marketinq strategiyası hazırlayarkən turizm marketoloqlarının nəzərə almalı olduğu bir neçə məsələ var. Əsas məsələlərdən bəziləri bunlardır:

Təyyarədəki və ya mehmanxanadakı boş yerlər tələbat olmadığı halda gələcək zaman üçün qeydiyyatlaşıb saxlanıla bilməz. Bu xüsusiyyət menecerlər qarşısında yeni vəzifələr qoyur – tələbat aşağı olan zamanlarda (mövsümiliyi nəzərə alınmaqla) tələbin stimullaşdırılması üçün maksimum səylər göstərmək. Çevik qiymət siyasəti və yaxud xidmətlərin diversifikasiyasını həyata keçirməklə bu problemi qismən həll etmək mümkündür.

*Hədəf auditoriyası:* Turizm marketinqində ən böyük problemlərdən biri hədəf auditoriyanı müəyyən etməkdir. Marketoloqlar potensial müştərilərinin kimlər olduğunu və onları səyahətə nəyin motivasiya etdiyini başa düşməlidirlər. Bu, istehlakçı davranışını və bazar araşdırmasını dərindən başa düşməyi tələb edir.

*Rəqabət:* Çoxlu istiqamətlər və səyahət variantları ilə turizm sənayesində rəqabət şiddətlidir. Marketoloqlar öz təyinatlarını başqalarından fərqləndirməli və ziyarətçiləri cəlb etmək üçün unikal satış təklifi hazırlamalıdırlar.

*Mövsümilik:* Bir çox istiqamətlərdə mövsümilik yaşanır, yəni turizm tələbatı il boyu dəyişir. Marketoloqlar qeyri-pik dövrlərdə ziyarətçiləri cəlb etmək üçün strategiyalar hazırlamalı və pik mövsüm tələbini qarşılamaq üçün turizm infrastrukturunun mövcud olmasını təmin etməlidir (Əvəzli, 2016 : 20-21).

*İnfrastruktur:* Turizm marketinqi təkcə destinasiyanı tanıtmaq deyil; o, həmçinin ziyarətçilərə dəstək olmaq üçün infrastrukturun olmasını təmin etməyi nəzərdə tutur. Buraya nəqliyyat, yerləşdirmə və turistik yerlər daxildir.

*Davamlılıq:* Daha çox səyahət edənlər turizmin ətraf mühitə və yerli icmalara təsirindən narahat olduqları üçün dayanıqlılıq turizm marketinqində getdikcə daha vacib məsələdir. Marketoloqlar davamlılığa sadiqliklərini nümayiş etdirməli və məsuliyyətli səyahət təcrübələrini təşviq etməlidirlər.

*Texnologiya:* Texnologiya insanların səyahət və səyahət qərarları qəbul etmə tərzini sürətlə dəyişir. Marketoloqlar ən son texnologiya tendensiyalarından xəbərdar olmalı və marketinq strategiyalarını buna uyğunlaşdırmalıdırlar.

Siyasi və iqtisadi qeyri-sabitlik: Bir təyinat yerindəki siyasi və iqtisadi qeyri-sabitlik turizm tələbinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Marketoloqlar geosiyasi hadisələrdən xəbərdar olmalı və marketinq strategiyalarını buna uyğun tənzimləməlidirlər. Qeyd olunan xüsusiyyətlər turizm sahəsində xüsusi marketinq strategiyasının tətbiqini zəruri edir.

Bütövlükdə, turizm marketinqi diqqətli planlaşdırma, araşdırma və icra tələb edən mürəkkəb və çətin prosesdir. Marketoloqlar dəyişən bazar şərtlərinə uyğunlaşmağa hazır olmalı və davamlılıq və məsuliyyətli səyahət təcrübələrinə sadiqlik nümayiş etdirməlidirlər (Növrəsli, Hüseynov, 2018: 1-2).

Bundan əlavə, həddindən artıq sıxlıq turist təcrübəsinin keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər, çünki səyahətçilər uzun növbələr və gözləmə müddətləri ilə üzləşə bilərlər. Bu problemi həll etmək üçün turizm təşkilatları daha az tanınan istiqamətlərin təbliğinə və turizm tələbinin il boyu yayılmasına diqqət yetirməlidirlər (ÜTT, 2016: 48-49).

Davamlılıq − turizm sənayesinin uzunmüddətli həyat qabiliyyətinə təsir edən vacib məsələdir. Davamlı turizm turizmin ətraf mühitə və yerli icmalara mənfi təsirini minimuma endirməyi nəzərdə tutur. Davamlı turizmi təşviq etmək üçün turizm təşkilatları tullantıların azaldılmasına, təbii ehtiyatların qorunmasına və yerli icmaların dəstəklənməsinə diqqət yetirməlidir. Buna ekoturizmi təşviq etməklə, məsuliyyətli səyahət davranışını təşviq etməklə və yaşıl təşəbbüsləri dəstəkləməklə nail olmaq olar.

Dəyişən istehlakçı davranışı − istehlakçı davranışı davamlı olaraq inkişaf edir və turizm təşkilatları bu dəyişikliklərə uyğunlaşmalıdır. Məsələn, indi bir çox istehlakçılar ənənəvi görməli yerləri gəzməkdənsə, eksperimental səyahətə üstünlük verirlər. Bundan əlavə, gənc səyahətçilər ekoloji cəhətdən təmiz və davamlı turizm variantlarını daha çox seçirlər. Dəyişən istehlakçı davranışını həll etmək üçün turizm təşkilatları fərdi ehtiyaclara və seçimlərə cavab verən fərdi təcrübələr təqdim etməyə diqqət etməlidir.

Rəqabət − turizm sənayesi yüksək rəqabətlidir və destinasiyalar ziyarətçilər və investisiyalar üçün rəqabət aparmalıdır. Rəqabətə davamlı olmaq üçün turizm təşkilatları öz təyinatlarını digərlərindən fərqləndirən unikal satış təklifləri hazırlamağa diqqət etməlidirlər. Bundan əlavə, onlar təyinatlarının unikal xüsusiyyətlərini və görməli yerlərini vurğulayan brendinq və marketinq kampaniyalarına investisiya qoymalıdırlar (Abbasov, Məmmədova, Quliyev, 2012 : 42-44).

Texnologiya − texnologiyaları turizm sənayesini dəyişdirir və turizm təşkilatları bu dəyişikliklərə uyğunlaşmalıdır. Məsələn, indi bir çox səyahətçi səyahətlərini onlayn sifariş edir və sosial media səyahət qərarlarının formalaşmasında getdikcə daha çox təsir edir. Əyridən qabaqda qalmaq üçün turizm təşkilatları rəqəmsal marketinq, sosial media və mobil texnologiyaya sərmayə qoymalıdır. Onlar həmçinin müştəriləri cəlb etmək və saxlamaq üçün qüsursuz onlayn sifariş təcrübəsini təmin etməyə diqqət etməlidirlər.

Turizm şirkətlərinin fəaliyyətinə bir çox amillər təsir göstərir. Bu amillər sırasına turizm bazarında yüksək rəqabətin olmaması, zəruri pul vəsaitinin çatışmazlığı, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması və s. daxildir. Aparılan sorğuya əsasən, bu problemlərin meydana gəlməsinin başlıca səbəbi rəqabət zamanı turizm müəssisələrinin menecerləri tərəfindən ədalətsiz və qeyri-qanuni üsullardan istifadə olunması və turizm şirkətləri arasındakı işgüzar münasibətlərdə bazar mədəniyyətinin olmaması faktlarının aşkar olunmasıdır.

Azərbaycanda turizm sənayesinin üzləşdiyi əsas problemlərdən biri qlobal səhnədə məlumatlılığın və görünmənin olmamasıdır. Ölkənin turizm sənayesi nisbətən yenidir və hələ də inkişaf etməkdədir və buna görə də beynəlxalq səyahətçilər üçün mütləq ziyarət edilməli bir yer

kimi özünü göstərmək üçün mübarizə aparmışdır. Məhdud marketinq kampaniyaları və qeyri-adekvat turizm infrastrukturu da buna səbəb ola bilər. Azərbaycanın turizm sənayesinə təsir edən digər məsələ dünyanın bəzi yerlərində regiona mənfi münasibətdir. Azərbaycanın bəzi siyasi qeyri-sabit regionların yaxınlığında yerləşməsi bəzi səyahətçiləri ölkəyə səfər etməkdən çəkindirmiş ola bilər. Bundan əlavə, bəzi turizm bölgələrində xidmətlərin keyfiyyəti və infrastrukturla, habelə təhlükəsizlik və təhlükəsizliklə bağlı problemlər ola bilər. Bu məsələlər ziyarətçilərin təcrübəsinə böyük təsir göstərə bilər və gələcək turizmin qarşısını ala bilər. Nəhayət, hökumət, özəl sektor və turizm sənayesində digər maraqlı tərəflər arasında koordinasiya və əməkdaşlıq çatışmazlığı ola bilər. Uğurlu turizm məkanı və marketinq kampaniyası yaratmaq üçün effektiv əməkdaşlıq və tərəfdaşlıq vacibdir (Soltanova, 2007: 133-138).

Azərbaycanda turizm sektoru son illər əhəmiyyətli inkişaf nümayiş etdirir. Bununla belə, turizm marketinqi baxımından müəyyən problemlər var. Azərbaycanda turizm marketinqi problemlərindən bəziləri bunlardır:

*Marketinq strategiyalarının səmərəsizliyi:* Azərbaycanın turizm sektorunda marketinq strategiyalarının səmərəsiz olduğunu söyləmək olar. Turizm sektoru ilə bağlı reklamların hədəf auditoriyaya yetərincə təsir etmədiyi və turistlərin əksəriyyətinin Azərbaycana gəlməmişdən əvvəl kifayət qədər məlumatlara malik olmadığı görünür.

*İmic problemləri:* Azərbaycanın bütün dünyada məşhur turizm məkanına çevrilməsi üçün imic problemləri həll edilməlidir. Ölkənin bir çox yerində infrastruktur çatışmazlıqları, ətraf mühitin çirklənməsi və təhlükəsizlik problemləri kimi problemlər mövcuddur. Bu problemlərin həlli turizm sənayesində gələcək uğurlar üçün vacibdir.

*Müxtəliflik problemləri:* Azərbaycanda turizm sektoru daha çox müxtəliflik nümayiş etdirməli və müxtəlif turizm növlərini əhatə etməlidir. Təkcə Bakı şəhəri kimi böyük şəhərlərin turizm potensialına güvənməkdənsə, ölkənin digər bölgələrini də turistlər üçün cəlbedici etmək lazımdır. Qiymət Problemləri: Azərbaycanda turizm fəaliyyəti baha başa gəlir və əksər turistlər üçün baha başa gələ bilər. Bu, turizm sektorunda rəqabət qabiliyyətini azalda və ölkəyə turist axınını azalda bilər. Təbliğatın kifayət qədər olmaması: Azərbaycanda turizm sektoru üçün kifayət qədər təbliğat yoxdur. Turistlərin ölkəyə necə çata biləcəkləri, hansı yerləri ziyarət edə biləcəkləri və nə edə biləcəkləri barədə kifayət qədər məlumat verilmir. Bu problem turistlərin ölkəyə gəlişini dayandıra bilər. Bu problemləri həll etmək üçün Azərbaycan hökuməti turizm sektoruna daha çox vəsait ayırmalı və marketinq strategiyalarını yeniləməlidir. Bundan əlavə, digər sektorlarla işləməklə turizm sektorunun şaxələndirilməsi və ölkənin turizm potensialının tam qiymətləndirilməsi vacibdir.

Ölkənin regionlarinda turist təşkilatlarına, eləcə də beynəlxalq səyahətçi informasiya şəbəkələrinə və turist məlumatlarına giriş olmaması kimi problemlər də ola bilər. Bu problemləri həll etmək üçün regional turizm təskilatlarinin elektron səhifələri yaradılmalı və ya daha cox inkişaf etdirilməli, beynəlxalq turizm informasiya şəbəkələrinə inteqrasiya olunmalıdır.

Bundan əlavə, marketinq stretegiyalarında müasir metodlardan az istifadə və büdcə bölüşüdürülməsi problemləri də mövcuddur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin hesabatına əsasən turagent və turoperatorların iqtisadi rayonlar üzrə əldə etdiyi ümumi gəlirin, ümumi xərclərdən az fərqlə aşağı olması bu sahədə inkişafın yüksək səviyyədə olmadığının göstəricisidir (12).

## Nəticə

Turizm sənayesi onun böyüməsinə və davamlılığına təsir edən bir sıra marketinq problemləri ilə üzləşir. Həddindən artıq sıxlıq, davamlılıq, dəyişən istehlakçı davranışı, rəqabət və texnologiya turizm təşkilatlarının həll etməli olduğu əsas məsələlərdəndir. Turizm təşkilatları diqqəti bu məsələlərə yönəltməklə və səmərəli həll yollarını tətbiq etməklə davamlı artımı təşviq edə və turizm sənayesinin uzunmüddətli həyat qabiliyyətini təmin edə bilər. Bu problemləri həll etmək üçün turizm sektoruna daha çox vəsait ayrılmalı və marketinq strategiyalar yenilənməlidir. Bundan əlavə, digər sektorlarla işləməklə turizm sektorunun şaxələndirilməsi və ölkənin turizm potensialının tam qiymətləndirilməsi vacibdir. Bu problemləri aradan qaldırmaq ücün, Yeni kommunikasiya və icra

planının həyata keçirilməsi,Hədəf turizm ölkələrində hər il 50 milyon auditoriyaya çıxışın əldə edilməsi, habelə hədəf turizm bazarlarında Azərbaycanla bağlı tur paketlər təqdim edən turizm şirkətlərinin sayının hər il 20% artması, Turizm üzrə cəmi xalis daxilolmaların pozitiv dinamikasına nail olunması nəzərdə tutulur (2022-2026: 31).

Turizm sferasında animasiya xidmətlərindən istifadə bu sektoru daha rəqabətqabiliyyətli olmasını təmin edə bilər. Animasiya xidmətlərinin marketinq strategiyaları vasitəsi ilə inkişafı bu sahədə turist axınına şərait yarada bilər.

## Ədəbiyyat

1. Növrəsli, T.N. (2013). Turizm hadisəsinə ümumi yanaşma. Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik jurnalı, №4, s.36. Bakı: Bakı Dövlət Universiteti.
2. Hacıoğlu, N. (2008). Turizm marketinqi. Ankara: Nobel nəşriyyatı, s.2.
3. Tavmercan, İ.P., & Özdəmir Meriç, P. (2002). Turizmdə təbliğat və ictimaiyyətlə əlaqələr. Ankara: Turhan Kitabevi, s.1.
4. Gronroos, C. (2009). Marketing as promise management: regaining customer management for marketing. Journal of Business & Industrial Marketing, 24(5-6).
5. Hüseynov, İ., Əfəndiyeva, N. (2007). Turizmin əsasları. Bakı, s.10-11.
6. https://marketing.sfgate.com/blog/tourism-marketing-challenges
7. Əvəzli, K. (2016). Turizmin sosial-iqtisadi nəticələri. Bakı, s.20-21.
8. Növrəsli, T., Hüseynov, N. (2018). Turizmin marketinq planlaşdırılması. Elmi Xəbərlər, s.1-2.
9. Ümumdünya Turizm Təşkilatı. (2016). Bakı, s.48-49.
10. Abbasov, İ.M., Məmmədova, Z.M., Quliyev, E.N. (2012). Rəqabət və marketinq (Monoqrafiya). Bakı, s.42-44.
11. Soltanova, H.B. (2007). Azərbaycan Respublikasında turizmın müasir problemləri. BDU xəbərləri,Təbiət elmləri seriyası, №1, s.133-138.
12. https://www.stat.gov.az/source/tourism/
13. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, s.31.

Göndərildi: 23.01.2023 Qəbul edildi: 18.04.2023

DOI: https://doi.org/10.36719/2663-4619/90/150-154

**Günel Aslanova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
lenug03@gmail.com

# XALÇAÇI-RƏSSAM HACI ELDAR MİKAYILZADƏ YARADICILIĞINDA "ŞƏKİ XALÇA QRUPU"NUN TƏHLİLİ

**Xülasə**

Sənətkarın "Şəki xalçaları" silsiləsini dəyərləndirməli olsaq, öncə müəllifin gələcək çeşnilərinin bədii tutumunu təşkil edəcək təsvir və naxışların seçimində bilavasitə yerli mühitin bədii qaynaqlarına tapındığını qeyd etməliyik. On üç xovlu xalçanın məna-məzmun yükünü Şəkidəki iki məşhur tikilinin – Şəki Xan sarayının və Hüseyn xan imarətinin (Şəkixanovların evi) interyerində istifadə olunmuş tərtibat ünsürləri təşkil edir.

Bədii tutumlu ayrıntıları klassik xalça çeşnilərinin estetikası ilə uzlaşdıran Eldar Mikayılzadə məlum kompozisiyaların estetikasına yeni çalarlar əlavə etməklə, ənənəviləşən bədii həllin müasir səslənməsinə nail olmuşdur. Müxtəlif ölçülü bu kompozisiyaların adlarında da klassik irsə bağlılıq duyulmaqdadır.

Kompozisiyanın bədii həllində miniatür üslubu estetikasından istifadə olunan və memarlıqla uğurlu sintez təşkil edən bu ünsürlər ifadə "dili"nə görə xalça dekorativliyinə də uyğun gəldiyindən, yeni toxuculuq nümunələrində onların cəlbedici və təsirli bədii dominanta çevrilmələrinə nail olunmuşdur.

Bu mənada Şəki Xan sarayındakı döyüş səhnələrinin, fauna və flora ilə bağlı naxış-ayrıntıların, eləcə də Hüseyn xan imarətindəki Adəmlə Həvvanın təsvirlərinin və şəbəkə ünsürlərinin Şəki xalçalarının mərkəzi hissəsində və haşiyələrində məntiqli istifadəsinin onların uğurunun təminatçısına çevrildiyini xüsusi vurğulaya bilərik.

***Açar sözlər:*** *xalça, Şəki Xan sarayı, Şəkixanovların evi, döyüş səhnələri, flora və fauna ilə bağlı ornamnetlər*

**Gunel Aslanova**
Azerbaijan State University of Culture and Arts
master student
lenug03@gmail.com

# Analysis of "Shaki carpet group" in the creation of carpet maker-artist Haji Eldar Mikayilzade

**Abstract**

If we have to evaluate the artist's "Shaki carpets" series, we must first note that the author directly found the artistic resources of the local environment in the selection of images and patterns that will form the artistic capacity of his future sketch. The meaning-content load of the thirteen-pile carpet is made up of design elements used in the interior of two famous buildings in Sheki - Sheki Khan's palace and Huseyn Khan's mansion (Shekikhanov's house).

Eldar Mikayilzadeh, who reconciled the artistic details with the aesthetics of classical carpet textures, added new shades to the aesthetics of known compositions and achieved a modern sounding of the traditional artistic solution. In the names of these compositions of different sizes, the connection to the classical heritage can be felt. Since these elements, which are used in the artistic solution of the composition in miniature style aesthetics and form a successful synthesis with architecture are suitable for carpet decoration due to their "language" of expression, they have been transformed into an attractive and effective artistic dominant in new textile samples. In this sense, we can emphasize that the logical use of battle scenes in Sheki Khan's palace, patterns and

details related to fauna and flora, as well as images of Adam and Eve in Huseyn Khan's mansion and network elements in the central part and borders of Sheki carpets became the guarantors of their success.

***Keywords:*** *carpet, Sheki Khan's palace, Shekikhanov's house, battle scenes, ornaments related to flora and fauna*

## Giriş

Xalça məişətin təşkilində, dünyanın estetik qavrayışının formalaşmasında əsas rol oynayaraq insanı doğulduğu andan ölümünə qədər müşaiət edir. Azərbaycan mədəniyyətində xalça yalnız ev bəzək elementi deyil, hər cür şənlik və bədii zövqünü əks etdirir. Bir çox mədəni layları özündə birləşdirən xalça ardıcıl tarixi dövrləri və üslubları yaddaşlarda qoruyub saxlayan özünəməxsus səlnaməyə çevirildi. Azərbaycanda elə bir bölgə yoxdur ki, orada xalçaçılıq geniş yayılmasın. Xalçaçılıq qədim dövrlərdən bu günə qədər əsas sənət növlərindən biri olub, ölkə iqtisadiyyatında mühüm rol oynamış, gündəlik həyatın adət və ənənələrin ayrılmaz bir hissəsi olaraq qalır (Heydər Əliyev Fondu: 2022: 173).

Bütün dövrlərdə xalça mədəniyyəti nümayiş edilməklə yanaşı, müvafiq zəmanənin zövq və üslubunu əks etdirmişdir. Arğacı qızıl və gümüşdən olan incə ipək və yun iplərdən toxunmuş təmtəraqlı saray xalçalarınınn yaradılması üzərində o dövrün istedadlı sənətkarları çalışırdılar. Müasir dövrdə də Azərbaycan peşəkar xalçaçılıq məktəbi bu sənət növünün ən yaxşı ənənələrini davam etdirir (2).

Fransanın Kann şəhərində 2019-cu ildə keçirilən Azərbaycan mədəniyyət və incəsənəti günlərində Şəki xalça qrupu silsiləsi təqdim edilmişdir. Eldar Mikayılzadəni incəsənətdə fəaliyyət göstərdiyi ilk dövrlərdə Şəki xalçaları ilə bağlı xalça qrupunun işlənməməsi onu daim düşünməyə sövq etmişdir. Xalq rəssamı Eldar Mikayılzadə xalçaçılıq xəritəsində yeni Şəki xalça silsiləri üzərində işləmişdir. Şəkinin yüksək mədəniyyəti – ecazkar Şəki Xan sarayı, Şəkixanovların evi, şəbəkələr, nəbati ornamentli zərif zərgərlik məmulatları usta üçün ilham mənbəyi olmuşdur (Əliyev, 2021: 7).

Şəki xalça qrupunun yaradılmasında ilkin olaraq şəhərin arxiv fonduna müraciət etmiş, bununla da ornamentlərin, bəzəklərin, kompozisiyaların qurulması işi təyin edilmişdir. Daha sonra adlarını və haqqında məlumat verəcəyimiz on 13 xalçanın tərtib edilməsində istifadə edilən ünsürlərin Şəkidə yerləşən Şəki Xan sarayının və Şəkixanovların evini daxili tərtibat elementlərindən geniş şəkildə istifadə edilmişdir (Əliyev, 2013: 256).

Xalaççı-rəssam Eldar Mikayılzadə ənənəvi xalça eskizləri ilə yeni yaratmış olduğu xalçaların kompozisiyalarını müasir həll yolu vasitəsilə vermişdir.

Yaradılan kompozisiyaların isimlərində də ənənəyə bağlı olduğunu müşahidə edə bilərik.

Misal olaraq, Göllü, İlin fəsilləri, Ləçək-turunc, Nar ağacı, Döyüş, Adəm və Həvva, Şəbəkə, Bəndi Rumi, Xan ovu, Ovçuluq və başqa əyani sübut ola bilər. Sarayın daxili tərtibat ünsürlərindən rəssam müvəffəqiyyətlə istifadə edə bilmişdir. Miniatür ünsürləri memarlıqla sıx şəkildə uyğunlaşdırılmış və xalçanın ornamental xüsusiyyətlərinə tamamilə oturdula bilinmişdir. Saryın divar rəmləri bunlardır: savaş elemnetləri, flora-fauna ornamentləri, eyi zamanda da Şəkixanovların evinin təsvirlərindən Adəm və Həvva obrazlarının, eləcə də, şəbəkə naxışlarını uğurla vurğulaya bilmişdir (Əliyev, 2019: 67).

Sənətkar Şəki Xan sarayının divar rəsmlərini incəliklə tədqiq edərək, freskaların ornamental və təsviri motivlərinə yaradıcı yanaşaraq simmetriya və ritm qanunlarına tabe edib, onları hər xalçanın kompozisiyasının əsası etmişdir. Beləliklə, üzərində Şərqdə ən məşhur islimi ornamentinin qeyri-adi forma alaraq zoomorf, gah antromorf motivə çevrildiyi Şikargah xalçası kimi kompozisiyalar yaradıldı. Rəssam Şəbəkəli, Ağaclı, Bəndi-rumi, Tağlı Ləçəkturunc xalçalarının səthində Şəki divar rəsmlərinin motivlərini, ornamentlərini və bütöv monumental kompozisiyalarını ustalıqla istifadə edir. O, yeni haşiyə və ara sahə formalarını yaradır, memarlıq bəzəyinin kolorit və xarakterik üslub xüsusiyyətlərindən istifadə edir. Bu da həmin xalçaların yeniliyini və ənənəvi sənətin bütün kanonlarına uyğunluğunu təmin edir. Biz tamamilə gözlənilmədən Şəbəkəli xalçasında ara sahəni əhatə edən tavanın stalaktit bəzəklərini görürük. Bəndi-rumi xalçasında ara sahənin sarayın

freskolarındakıə flora və fauna təsviləri ilə doldurduğu halda, tirmə ornamental motivi ritmik haşiyənin yaradılmasında istifadə olunmuşdur. Xalçanın hər motivi, iqtibas edilmişdir. Monumental rəsmlər saray tərtibatına layiq olan mürəkkəb xalça kompozisiyalarının yaradılmasına ilham verən tükənməz xəzinədir (Əliyev, 2019: 9).

Bu layihənin həyata keçirilməsi Eldar Mikayılzadəyə həvalə edilmiş və onun rəhbərliyi altında 6 rəssam və 14 toxucu olmaqla, yaradıcılıq emalatxanasında intensiv iş aparılmışdır. Səkkiz il ərzində təbii boyalarla rənglənmiş, ipək və yundan 19 orijinal müəllif xalçaları toxunmuşdur. Xalça palitrası və zənginliyi ilə göz qamaşdırır. Qeyd etmək olar ki, ümumilikdə xalçalarda yüz yetmiş növ və kolorit vasitəsilə toxucular tük kimi nazik və incə sapları bir birindən ayıraraq digər rəng çalarlarından istifadə edərək yeni kolorit yaradıb xalçaların toxunmasında istifadə etmişlər. Onu da xüsusilə qeyd etmək olar ki, on üç toxucu əməyindən bəhrələnmişdir (Əliyev, 2021: 7).

“Cəng və barış” xalçası Eldar Mikayılzadənin savaş mövzusunda yaratdığı ilk əsəridir. Süjetli kompozisiyanı çox sevən Xalq rəssamı miniatür üslubun dekorativ dilindən istifadə edərək kiçik detallarda böyük mənalar, fikirlər gizlətmiş, mürəkkəb bir xalça yaratmışdır.

Xalçada hadisələr müəyyən bir xətt üzrə inkişaf edir. Təbillərin və şeypurların çalınması ilə toplardan atəş açılır və döyüş başlayır. Qılınclar qınından sıyrılır, tüfənglər işə salınır, cəngi sədaları altında qızğın döyüş gedir.

Xalçanın sonuna yaxın çay təsviri sakitliyin yarandığına, müharibənin sona yaxınlaşdığına işarə edir. Hökmdarların birinin atının ağ, digərinin atının isə qara olması alleqorik olub. Xeyrin şər üzərində qələbəsini bildirir. Dağılan buludlar arasında parlayan günəş isə sülhün, əmin-amanlığın müjdəçisidir (Məmmədli, 2019: 5).

Bütün əsərlərində sevgi, humanizm, mənəvi zənginlik hisslərini təcəssüm edən Xalq rəssamı Şəki Xan sarayının divarlarında əks olunmuş döyüş səhnələrinə öz pozitiv duyğularını qataraq bu savaşı Cəng və barış səhnəsi olaraq yenidən yaradıb.

“Narlı” xalçasının kompozisiyası Şəki Xan sarayının qadınlara məxsus otaqlarının divarlarındakı ən məşhur elementlərindən biri olan şiş uclu tağın altında verilən nar ağacının təsvirinə əsaslanır. O, sarayın divar rəsmlərində cənnət ağacını əks etdirir. Ənənəvi olaraq cənnət qaplarını bildirən tağ bunu təsdiq edir. Xalçaçı-rəssam yaradıcı surətdə dəyişdirilmiş bu kompozisiyanı “Həyat ağacı”nın dünyanın eybəcərliklərindən təmişlənməsini simvolizə edən, həşəratların məhv edilməsi ilə məşğul olan bir neçə quşun təsvirləri ilə tamamladı. Tağın altındakı friz sarayın stallaktitlərindən ibarət çiçək motivləri ilə bəzədilib. Şəki üçün ənənəvi olan qara rəngli mahud üzərində ipək və ya pambıq saplarla işlənən təkəlduz tikməsini stilistik olaraq xatırladan geniş haşiyə xalçaya xüsusi gözəllik verir. Bu ornamentlərin çiçəkli motivlər sarayın divarlarından iqtibas edilib, ancaq təkəlduz tikməsinin ruhu Şəkinin xüsusi üslubunu xatırlatmaq məqsədini daşıyır (Zeynalova, 2016: 28-31).

“Cənnət quşları” dəst xalı-gəbəsində cənnət quşları dəst xalı-gəbəsi adından bəlli olduğu kimi quş motivlərinin çoxluğu ilə seçilir. Quşlar hələ qədim dövrlərdən Azərbaycanın həm xovlu, həm də xovsuz xalçalarının naxış elementlərindən hesab olunur. Hələ ilin xalça məmulatları olan kilim, vərni, zili və sumaxlarda müxtəlif növ həndəsiləşmiş quş elementlərinə rast gəlinir. Məsələn, Qarabağ vərniləri üzərində şanapipik, ördək və xoruz elementlərinə təsadüf edilir. Xalça elementləri arasında kəklik, göyərçin, durna, sağsağan, qırqovul, tovuz quşu, bülbül kimi quşlara da yer verilib. Quşlar xalçalarımızda müxtəlif dövrlərdə həndəsiləşmiş və realistik üslübda təsvir olunub (Camalqızı, 2013: 8).

**Gurban Gasimov**
Baku State University
Ph.D. in Physics and Mathematics
gkurban@mail.ru
**Maryam Adilkhanova**
Baku State University
master student
maryamadilkhanova@gmail.com

# Comparative research of inflation based on Ito and ESM models for the USA and Azerbaijan during the pandemic

**Abstract**

In the presented thesis, a comparative analysis of Ito's stochastic model and the ESM (Exponential Smoothing Model) model, which is effective for short-term periods, on the time-inflation series for Azerbaijan for the years 2000-2021 and the United States for the years 1996-2020 in the Maple software package is carried out, after determining the appropriate drift and volatility, timelines characterizing the dynamics of inflation are constructed, based on stochastic and smoothed timelines, forecasts are made for both models for the next year under pandemic conditions.

***Keywords:*** *Inflation, Ito, Time series, Exponential Smoothing Model, Maple*

## Giriş

2000-2021-ci illər üçün Azərbaycana aid inflyasiya səviyyəsi aşağıdakı şəkildədir (1).

```
INF:=Vector([1.8,1.8,2.8,2.1,6.7,9.6,8.2,16.6,20.8,1.4,5.7,7.8,
1.0,2.4,1.4,4.0,12.4,12.8,2.3,2.7,2.8,6.7]):
```

Məlumdur ki, İto stoxastik modeli maliyyə riyaziyyatında, o cümlədən inflyasiya prosesinin dinamikasının araşdırılmasında əsas modellərdən biridir və bu modelə uyğun stoxastik differensial tənlik aşağıdakı ümumi şəkilə malikdir (Bouzianis, Hughston, Jaimungal, 2020: 12):

$$dZ(t) = \mu Z(t)dt + \sigma Z(t)dW(t)$$

Bu tənlik əsasında alınan İto prosesində baza inflyasiyası olaraq yuxarıda daxil edilmiş sıranın sonuncu ilə aid olan elementi, $\mu$ parametri olaraq həmin sıraya uyğun empirik riyazi gözləmə və $\sigma^2$ parametri olaraq empirik dispersiya qəbul edilir, proses Maple proqram paketində reallaşdırılır (Tomas Björk, 2021: 73).
($\mu$ və $\sigma$ –nın qiymətləri yüzdə birlərlə ifadə olunmaqla). Alınan realizasiyalar əsasında növbəti il üçün proqnoz verilir (4).

```
einf:=0:for i from 1 to 22 do einf:=einf+INF[i] od:einf:=einf/22;
```

$$einf := 6.081818182$$

```
dinf:=0:for i from 1 to 22 do dinf:=dinf+(INF[i]-einf)^2
od:dinf:=dinf/22:sinf:=sqrt(dinf);
```

$$sinf := 5.310336094$$

```
Z:=ItoProcess(0.067,mu,sigma,x,t);
```

$$Z := _X0$$

```
Drift(Z(t));
```

$$\mu$$

```
Diffusion(Z(t));
```

$$\sigma$$

```
Drift(exp(Z(t)));
```

$$\mu e^{_X0(t)} + \frac{\sigma^2 e^{_X0(t)}}{2}$$

```
Diffusion(exp(Z(t)));
```

$$\sigma e^{_X0(t)}$$

```
mu:=einf*0.01;
```

$$\mu := 0.06081818182$$

```
sigma:=sinf*0.01;
```

$$\sigma := 0.05310336094$$

Qeyd edək ki, burada $\mu$ əmsalı İto prosesinin driftini (drift zaman sıralarında kəsmə (statik) komponentdir), $\sigma$ əmsalı isə diffuziya əmsalını göstərir (Dixit, Robert, Pindick, 1994: 62).

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 5 / 202-211 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 5 / 202-211 e-ISSN: 2708-986X

Zaman trendi 1 ilə aid olduğundan Timesteps=12 götürülür, aylar üzrə inflyasiyanın dinamikası araşdırılır, və verilənlər əsasında aşağıdakı qrafik qurulur.

```
PathPlot((mu+sigma^2/2)*exp(Z(t)),t=0..1,timesteps=12,
replications=10,color=green..red);
```




Qurulmuş stoxastik qrafik növbəti il üçün 6.5 %−7.5 % arasında proqnoz qiyməti verir. Lakin 2022-ci ildə Azərbaycanda inflyasiya səviyyəsi 14.4 % olmuşdur (1); bunun əsas səbəblərindən biri kimi pandemiyanı göstərmək olar. Bu qrafikə əsasən ilk 4 ay ərzində 6.7 % ətrafında qismi sabitlik, sonradan isə kəskin artışın getdiyini hökm edirik; pandemiya şəraitində istehsal və istehlak aşağı səviyyədə olduğundan inflyasiya az artmış, ilin 2-ci yarısında isə təklif bərpa olunduğundan istehlak qiymətləri indeksi qalxmağa başlamışdır.

İşdə 2-ci tətbiq olunan model qısamüdddətli periodlar üçün effektiv olan Eksponensional Hamarlama Modelidir (Hyndman, Athanasopoulos, 2018: 183):

$Z_{t+1} = \alpha \cdot y_t + (1-\alpha)Z_t$ ;

burada $Z_{t+1}$ proqnoz olunan (t+1) ili üçün inflyasiya, $Z_t$ proqnoz ilindən əvvəlki perioda aid eksponensial ağırlıqlı orta, $y_t$ - t ili üçün faktiki inflyasiya, $\alpha$ hamarlayıcı əmsaldır və $Z_0$ olaraq zaman sırasına uyğun empirik riyazi gözləmə götürülür (Hyndman, Koehler, Ord, 2008: 13).

```
with(TimeSeriesAnalysis):
ts1:=TimeSeries([1.8,1.8,2.8,2.1,6.7,9.6,8.2,16.6,20.8,1.4,5.7,
7.8,1.0,2.4,1.4,4.0,12.4,12.8,2.3,2.7,2.8,6.7],frequency=yearly,
header="INFAZE",enddate="2021");
```

*ts1* := [ *Time series* / *INFAZE* / *22 rows of data:* / *2000-Jan-01 - 2021-Jan-01* ]

```
esm:=ExponentialSmoothingModel(ts1);
```

*esm* := < *an ETS(M,N,N) model* >

```
onestepfcs:=OneStepForecasts(esm,ts1);
```

*onestepfcs* := [ *Time series* / *INFAZE (1 step forecasts)* / *22 rows of data:* / *2000-Jan-01 - 2021-Jan-01* ]

```
TimeSeriesPlot([onestepfcs,color="Spring Blue",thickness=3],[ts1,
color="Spring Rose",thickness=4]);
```




Bu qrafik Azərbaycana aid inflyasiya sırasına tətbiq olunan eksponensial hamarlama üsulunun aşağı dərəcəli hamarlanmaya gətirdiyini göstərir; sadəcə olaraq, illər üzrə olan real inflyasiya əyrisi sağa doğru 1 vahid (1 ilə uyğun) sürüşdürülmüş alınır.

Bununla yanaşı, Azərbaycana aid inflyasiya, ÜDM-in artım tempi və işsizlik səviyyəsi arasında müxtəlif xətti və qeyri-xətti reqressiya modellərinin müqayisəli təhlili aparılır və onların adekvatlığı araşdırılır. Azərbaycanda 2000-2021-ci illər arasında olan işsizlik səviyyəsi, ÜDM-in artım tempi və inflyasiya göstəriciləri aşağıdakı matrisdə öz əksini tapmışdır.

İnflyasiyanın işsizlik səviyyəsi və ÜDM tempindən asılı xətti reqressiya tənliyi qurulur və adekvatlığa aid statistikalar müəyyənləşdirilir (Wild, Seber, 2003: 4):

```
> INFT:=unapply(LinearFit(k0+k1*x+k2*y,MTUDMISSINF, [y,x],summarize=
  embed),y,x);
INFT := (y, x) ↦ 9.81623984836144459 − 0.830465155103569996·x
   + 0.229288644832576133·y
```

**Summary**

Model: $-0.83046516\,x + 0.22928864\,y + 9.8162398$

| Coefficients | Estimate | Standard Error | t-value | P(>\|t\|) |
|---|---|---|---|---|
| Parameter 1 | 9.81624 | 3.67551 | 2.67071 | **0.0151132** |
| Parameter 2 | −0.830465 | 0.542051 | −1.53208 | 0.141984 |
| Parameter 3 | 0.229289 | 0.119431 | 1.91985 | 0.0700195 |

R-squared: 0.208741
Adjusted R-squared: 0.125451

**Residuals**

| Residual Sum of Squares | Residual Mean Square | Residual Standard Error | Degrees of Freedom |
|---|---|---|---|
| 490.891 | 25.8364 | 5.08295 | 19 |

**Five Point Summary**

| Minimum | First Quartile | Median | Third Quartile | Maximum |
|---|---|---|---|---|
| −5.81497 | −3.79110 | −0.527712 | 1.29345 | 13.4072 |

Modelə uyğun $s_1 = \sum_{i=1}^{n}(e_i)^2$ , $s_2 = \sum_{i=2}^{n}(e_i - e_{i-1})^2$ −cəmlərini ($e_i \equiv İNF[i] - İNFT[i]$) və $dw = \frac{s_2}{s_1}$ Durbin-Watson statistikasını hesablayırıq: (Durbin,1969:7)

```
s1:=0:for i from 1 to 22 do s1:=s1+(INFT(TUDM[i],ISS[i])-INF[i])
^2 od:s1;
                        490.891292731986
s2:=0:for i from 2 to 22 do s2:=s2+((INFT(TUDM[i],ISS[i])-INF[i])
-(INFT(TUDM[i-1],ISS[i-1])-INF[i-1]))^2 od:s2;
                        877.652838819530
dw:=s2/s1;
                     dw := 1.78787615876232
```

$(d_L, d_U)$=(1.15, 1.54)$\Longrightarrow dw > d_U \Rightarrow$“reqressiya xətalarında bağımlılıq yoxdur” − hipotezi qəbul edilir (Durbin, Watson, 1951: 163).

Aşağıdakı qeyri-xətti modelləri daxil edirik:

$$MODEL\ 1: z_t = a \cdot {x_t}^b \cdot c^{y_t} + \varepsilon_t$$

$$MODEL\ 2: z_t = \frac{c}{x_t} + \frac{b}{y_t} + \varepsilon_t\ ;$$

burada $z_t$ –inflyasiya, $x_t$ –işsizlik səviyyəsi, $y_t$ –ÜDM-in artım tempi və $\varepsilon_t$ –təsadüfi predikatoru ifadə edir. MODEL 1-i qüvvət-üstlü model, MODEL 2-ni isə tərs mütənasib model adlandırırıq.

```
INF1:=unapply(NonlinearFit(a*x^b*c^y,MAZE,[x,y]),x,y);
```

$$INF1 := (x, y) \mapsto \frac{24.1528304099653077 \cdot 1.0302469610279256 8^{y}}{x^{0.892364363251329284}}$$

```
INF2:=unapply(NonlinearFit(c/x+b/y,MAZE,[x,y]),x,y);
```

$$INF2 := (x, y) \mapsto \frac{34.1746153191440598}{x} + \frac{0.302502679208750791}{y}$$

Bu iki modeli müqayisə etdikdə aşağıdakı nəticə alınır:

MODEL 1 və MODEL 2 müxtəlif modellər olmasına baxmayaraq, ÜDM-in artım tempinin aşağı qiymətlərində y oxu üzrə [1,3] diapazonunda uyğun reqressiya səthlərinin üst-üstə düşməsi yüksək səviyyədədir.





[3,15] diapazonunda isə bu səthlər arasında aralanma müşahidə olunur.

Bundan başqa 1 ölçülü qeyri-xətti reqressiya modelləri daxil edilmiş reqressiya əmsalları tapılmışdır.

```
ISH4:=unapply(NonlinearFit(b1/z,INF,ISS,z),z);
```

$$ISH4 := z \mapsto \frac{13.0790161310453694}{z}$$

$MODEL\ 4: x_t = \frac{b_1}{z_t} + \varepsilon_t;$

$MODEL\ 5: x_t = (c)^{\frac{1}{z_t}} + \varepsilon_t\ ;$

$MODEL\ 6: x_t = a \cdot z_t^b + \varepsilon_t\ ;$

```
ISH5:=unapply(NonlinearFit(c^(1/z),INF,ISS,z),z);
```

$$ISH5 := z \mapsto 11.0826064049913739^{\frac{1}{z}}$$

```
> ISH6:=unapply(PowerFit(INF,ISS,z,summarize=true),z);
Summary:
----------------
Model: 6.8953151/z^.0563368057532952
----------------
Coefficients:
              Estimate  Std. Error  t-value   P(>|t|)
Parameter 1    1.9308    0.1169     16.5227   0.0000
Parameter 2   -0.0563    0.0697     -0.8088   0.4281
----------------
R-squared: 0.9792, Adjusted R-squared: 0.9771
```

$$ISH6 := z \mapsto \frac{6.89531513786951145}{z^{0.0563368057532952285}}$$

Eyni araşdırmalar ABŞ-a aid 1996-2020-ci illər ərzində olan inflyasiya sırası üçün aparılır (12).

```
INFUSA:=<3.32,1.70,1.61,2.68,3.39,1.55,2.38,1.88,3.26,3.42,2.54,
4.08,0.09,2.72,1.50,2.96,1.74,1.50,0.76,0.73,2.07,2.11,1.91,2.29,
1.36>;
```

$$INFUSA := \begin{bmatrix} 3.32 \\ 1.70 \\ 1.61 \\ 2.68 \\ 3.39 \\ 1.55 \\ 2.38 \\ 1.88 \\ 3.26 \\ 3.42 \\ \vdots \end{bmatrix}$$

25 element Vector[column]

```
Z:=ItoProcess(0.0136,mu,sigma,x,t);
```

$$Z := _X0$$

```
Drift(Z(t)):=Mean(INFUSA);
```

$$Drift(_X0(t)) := 2.14200000000000$$

```
Diffusion(Z(t)):=sqrt(Variance(INFUSA));
```

$$Diffusion(_X0(t)) := 0.952697923443383$$

```
Drift(exp(Z(t)));
```

$$\mu e^{_X0(t)} + \frac{\sigma^2 e^{_X0(t)}}{2}$$

```
Diffusion(exp(Z(t)));
```

$$\sigma e^{_X0(t)}$$

```
mu:=0.02142:sigma:=0.00953:
PathPlot((mu+sigma^2/2)*exp(Z(t)),t=0..1,thickness=3,timesteps=
12,replications=10,color=red..blue);
```




Sonuncu stoxastik qrafik növbəti il üçün 2.3 %–2.9 % arasında proqnoz qiyməti göstərir. Lakin 2022-ci ildə ABŞ-da inflyasiya səviyyəsi 5.4 % olmuşdur (12); bunun əsas səbəblərindən biri də yuxarı da qeyd edilən kimi pandemiyadır. Hər iki dövlət üçün göstərilən növbəti il üçün inflyasiya proqnozları faktiki inflyasiyadan təxminən 2 dəfə az alınmışdır.

```
with(TimeSeriesAnalysis):
ts:=TimeSeries(INFUSA,startdate="1996",frequency=yearly,header=
"INFUSA");
```

*ts* := *Time series* / *INFUSA* / *25 rows of data:* / *1996-Jan-01 - 2020-Jan-01*

```
esm:=ExponentialSmoothingModel(ts);
```

*esm* := < *an ETS(M,N,N) model* >

```
onestepfcs:=OneStepForecasts(esm,ts);
```

*onestepfcs* := *Time series* / *INFUSA (1 step forecasts)* / *25 rows of data:* / *1996-Jan-01 - 2020-Jan-01*

```
TimeSeriesPlot([onestepfcs,color=blue,thickness=3],[ts,color=red,
thickness=4]);
```




Bu qrafik ABŞ-a aid inflyasiya sırasına tətbiq olunan eksponensial hamarlama üsulunun, Azərbaycana aid sıradan fərqli olaraq, yüksək dərəcəli hamarlanmaya gətirdiyini göstərir.

## Nəticə

Azərbaycana və dünyanın aparıcı iqtisadiyyatına malik Amerika Birləşmiş Ştatlarına aid uyğun olaraq son 22 və 25 illəri əhatə edən inflyasiya-zaman sıraları İto və ESM modellərinin kombinasiyalı tətbiqi ilə növbəti il üçün proqnozun müqayisəli araşdırılması aparılmış, qurulmuş qrafiklər üzrə bu proqnozlara aid ortaq və fərqli cəhətlər aşkar edilmişdir. İşdə alınan nəticələrdən qiymətlərin dəyişməsi dinamikasının proqnozlaşdırılmasında və onların indeksləşdirilməsində (xüsusilə Azərbaycandakı növbələşən inflyasiya prosesi şəraitində) istifadə etmək olar.

## Ədəbiyyat

1. https://www.imf.org/en/Countries/AZE (2021).
2. Bouzianis, G., Hughston, L.P., Jaimungal, S. (2021). Lévy-Ito Models in Finance, p.12.
3. Björk, T. (2021). Point Processes and Jump Diffusions: An Introduction with Finance Applications. Singapur: Cambridge University Press, p.73.
4. https://www.maplesoft.com (2020).

5. Dixit, Robert, K. and Pindyck, Robert, S. (1994). "Chapter 3. Stochastic Processes and Ito's Lemma". Investment under Uncertainty, Princeton: Princeton University Press, p.62.
6. Hyndman, R.J., Athanasopoulos, G. (2018). Forecasting: principles and practice. OTexts, Melbourne, p.183.
7. Ord, J.K., Koehler, A.B., Snyder, R.D., Hyndman, R. (n.d.). Forecasting with Exponential Smoothing: The State Space Approach. Germany: Springer Berlin Heidelberg, p.13.
8. Wild, C.J., Seber, G.A.F. (2003). Nonlinear regression. Germany: Wiley.
9. Montgomery, D.C., Peck, E.A., Vining, G.G. (2021). Introduction to Linear Regression Analysis. Great Britain: Wiley p.4.
10. Durbin, J. (1969). Alternative method to d-test. Biometrika, 56, p.1-15.
11. Durbin, J., Watson, G.S. (1951). Testing for serial correlation in least squares regression, II. Biometrika 38, p.159-177.
12. https://www.imf.org/en/Countries/USA (2020)

Göndərildi: 11.02.2023 Qəbul edildi: 28.04.2023

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/90/212-219

**Rəşad Əbilov**
Azərbaycan Elmi-Tədqiqat Layihə-Axtarış Energetika İnstitutu
texnika üzrə fəlsəfə doktoru
rashad.abilov54@mail.ru
UOT 626.627.1

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ÇAYLARIN AXINLARINDAN HİDROENERGETİKA MƏQSƏDİ İLƏ MƏNİMSƏNİLMƏSİ ÜÇÜN YENİ DURULDUCULARIN İŞLƏNMƏSİ

**Xülasə**

Məqalədə, işğaldan azad edilmiş ərazilərin çaylarında, hidroloji müşahidə məntəqələrinin məlumatlarına əsasən, orta illik su sərfinin, çay axınının lilliyinin öyrənilməsi və təhlili, orta çoxillik çöküntülərin miqdarı və ölçüsü dəqiqləşdirilmişdir. Məqalədə, dağlıq və dağətəyi ərazilər üçün suqəbuledici qurğuların yanında durulducuların və balıq mühafizə qurğuların yeni konstruksiyasının təkmilləşdirilməsi də nəzərdən keçirilir. Çoxsaylı tədqiqatlar nəticəsində kiçik su elektrik stansiyaları üçün durulducuların və balıq mühafizə qurğuların sxemi təkmilləşdirilmişdir. Plan və kəsiklərdən ibarət cizgiləri hazırlanmışdır. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanları Ekspertizası Mərkəzinin faydalı model üçün patent alınmışdır.

***Açar sözlər:*** *çöküntülər, durulducu, dağətəyi ərazi, hidroloji xüsusiyyətlər, çay axını*

**Rashad Abilov**
Azerbaijan Scientific-Research and Design Institute for Energy
Ph.D. in Engineering
rashad.abilov54@mail.ru

# Development of new curators and fish protection facilities for hydro energy utilization from river flows in liberated areas

**Abstract**

In the article, the study and analysis of the average annual water consumption, siltiness of the river flow, the amount and size of the average multi-year sediments in the rivers of the liberated territories, based on the data of the hydrological observation points. In the article, the improvement of the new construction of sluices and fish protection facilities is also considered in addition to intake facilities for mountainous and foothill areas. As a result of numerous studies, the scheme of sluices and fish protection devices for small hydropower plants has been improved. Plans and cross-sectional drawings have been prepared. Patent and Trademark Expertise Center under the Intellectual Property Agency of the Republic of Azerbaijan has received a patent for a utility model.

***Keywords:*** *sediments, drainage, foothills, hydrological features, river flow*

## Giriş

İşğaldan azad edilmiş ərazilərdə çoxlu çaylar vardır. Bu çaylar böyük hidroenerji potensialına malikdir. Erməni qəsbkarları işğal dövründə bu çaylar üzərində çoxlu sayda Kiçik Su Elektrik Stansiyaları (KSES) tikib istismar etmişdilər. Müharibə ərəfəsində ermənilər bu KSES-in turbin və hidrogeneratorlarını, mexaniki avadanlıqlarını söküb aparmış, apara bilmədiklərinin hamısını isə yandırmışlar. 44 günlük müharibədən sonra Azərenerji ASC Azərbaycan Elmi-Tədqiqat və Layihə-

Axtarış Energetika İnstitutu ilə birlikdə işğaldan azad olunmuş ərazilərdə çaylar üzərində tikilmiş KSES-in mövcud vəziyyətini öyrənmiş, eləcə də onların bərpası və yeni KSES-in tikintisinə aid təkliflər verilmişdir. Ona görə də çox qısa müddətdə Həkəri çayı üzərində Güləbird KSES, Suqovuşan KSES və Kəlbəcər KSES bərpa edilib istifadəyə verilmişdir. Hal-hazırda çoxlu sayda KSES bərpa edilir, yeni KSES-lərin layihələndirilməsi və tikintisi davam etdirilir (Əbilov, 2018: 85-88).

**Materiallar və metodlar**

Tədqiqatın əsas məqsədi ərazidə suölçmə məntəqələrinin (monitorinqi) məlumatları əsasında ərazinin hidroqrafik səciyyəsinin təhlil edilməsi və bu təhlil əsasında çayların su ehtuyatlarının hesablanmasıdır. Bu məqsədlə Qarabağ çaylarının üzərində fəaliyyət göstərmiş hidroloji müşahidə məntəqələri məlumatlarından istifadə edilmişdir. Bu məlumatlar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fond və arxiv materiallarından və su kadastrından əldə olunmuşdur (İsmayılov: 20-37). Çünki dağ çaylarının özünəməxsus xüsusiyyətləri vardır. Bu çaylar çoxlu dib gətirmələri, qum-çınqıl və daş, eləcə də yarpaq və ağac kötüyü gətirirlər. Bu gətirmələr derivasiya borularına daxil olub, KSES binasında hidroturbinin pərlərini sındırır, onları sıradan çıxarır, KSES-in iş rejimini pozur. Bütün bunları nəzərə alıb tədqiqatların gedişində yeni durulducular təklif edilmişdir və Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanları Ekspertizası Mərkəzinin Patenti alınmışdır.




***Şəkil 1. Durulducunun plan və kəsikləri: yuxarı byef – 1; suqəbuledici qurğu − 2; durulducunun kamerası − 3; borucuqlar − 4; yığıcı element − 5; durulducunun yan divarında bağlayıcı − 6; aşağı byefdən 7; suaşıran bənd − 8; kanal və ya su elektrik stansiyasının borusundan − 9.***

Təklif olunmuş durulducu özünə oxşar olan durulducudan fərqli və üstün cəhətləri vardır. Belə ki, bu durulducu konstruksiyasına görə sadə olub, düzbucaqlı nov formasında yerinə yetirilmiş, dibi maillidir, fasiləli və fasiləsiz rejimdə işləyir və durulducuya daxil olan axının öz hidravliki gücündən istifadə etməklə qum-çınqıl və lil gətirmələri, durulducunun sonunda, suaşıran divarın aşağısında yerləşdirilmiş qum-çınqıl və lil gətirmələri tutan borucuqlara yönəldir (Əbilov, 2018: 85-88; Əbilov, 2019; Əbilov, 2018). Durulducunun sonunda qum tutan borucuqların girişində axının sürəti kəskin artır qum və lillər su axını ilə qarışaraq daha da intensivləşir qum-çınqıl və lil gətirmələri tutan borucuqlara yönəlir. Qum-çınqıl və lil gətirmələri tutan borucuqlar tutan borucuqlar suaşıran divarın daxilində yerləşdirilmiş yığıcı boruya perpendikulyar birləşdiyindən axın çox asanlıqla və sürətlə diametri böyük olan yığıcı boruya keçir (Abilov, 2011; Salakhov,

1971). Yığıcı boruda axının vintvari hərəkəti nəticəsində qum-çınqıl və lil gətirmələri su ilə qarışaraq sürətlə yuyularaq aşağı byefə ötürülür. **Şəkil 1.**

Ondan başqa təklif etdiyimiz durulducu irriqasiya və hidroenergetika məqsədi ilə yaradıldığından, durulducu ya suqəbuledici qurğulara bitişik və ya müəyyən məsafələrdə irriqasiya və hidroenergetika kanalları üzərində layihələndirilir. Onların açıq ərazilərdə tikilməsi nəzərdə tutulduğundan ora çayın gətirdiyi axının tərkibində çoxlu miqdarda iri gətirmələrinin, yarpaq və zibillərin olması mümkündür. Ona görə də təklif etdiyimiz durulducunun sonunda yerinə yetirilmiş diametri d=0,12 m qum-çınqıl və lil gətirmələrini tutan dairəvi en kəsikli borucuqlar, suaşıran divarın daxilində diametri d=0,44 m olan yığıcı boru və durulducu kamerasını, eləcə də qum-çınqıl və lil tutan borucuqların qarşısında yığılan qum-çınqıl və lil gətirmələrini fasiləli yumaq üçün kameranın yan divarında bağlayıcı qoyulmuşdur (Əbilov, 2019; Əbilov). Əyrixətli durulducu suvarma, su təchizatı və kiçik su elektrik stansiyalarının derivasiya kanallarına, eləcə də derivasiya boru kəmərlərinə qum-çınqılların, lillərin və iri dib gətirmələrinin keçməsinin qarşısını almaqla hidrotexniki qurğuların möhkəmliyinin dayanıqlığını və onun iş səmərəliyinin artırılmasından ibarətdir.

Qarşıya qoyulan məsələyə nail olmaqdan ötrü, əyrixətli durulducu kamerasının en kəsiyi düzbucaqlı formasında, mərkəzi dönmə bucağı 90°-yə qədər və əyrixətli radiusunun uzunluğunu kameranın enindən 3-4 dəfə böyük götürülür.




*Şəkil 2. Əyrixətli durulducunun plan və kəsikləri: suqəbuledicinin metal barmaqlığı − 1; durulducu kamerası − 2; qabarıq divarının aşağısında dairəvi en kəsikli yuyucu borucuqları − 3; yığıcı element − 4; durulducunun çökük divarında suqəbuledici bağlayıcı − 5; durulducunun sonunda yuyucu bağlayıcılar − 6; Qabarıq divarın daxilində yuyucu borucuqların işini tənzimləmək üçün bağlayıcılar − 7.*

Kameranın dibi qabarıq sahilə tərəf eninə mailliyə malikdir. i=0,07...0,10 qəbul edilir. Yuyucu borucuqların en kəsiyi dairəvi götürülür və qabarıq divarın aşağısında kameranın dib səviyyəsində yerləşdirilir. Yuyucu borucuqlar qabarıq divarın daxilində yerləşdirilmiş dib gətirmələrini

kənarlaşdıran en kəsiyi dairəvi yerinə yetirilmiş aparıcı boru kəmərinə birləşdirilir. Yuyucu borucuqların işini tənzimləmək üçün bağlayıcılar nəzərdə tutulmuşdur. Yuyucu borucuqların sayı 6...12 arasında qəbul oluna bilər. Qabarıq divarın daxilində yerləşdirilmiş və yuyucu borucuqlarla əlaqəli olan dib gətirmələrini kənarlaşdıran en kəsiyi dairəvi yerinə yetirilmiş aparıcı boru kəməri dairəvi en kəsikli yerinə yetirilmişdir (Əbilov, 2019).

Əyrixətli duruldսcu planda bu şəkildə yerinə yetirildikdə, durulducu kamerasına düşən qum-çınqıl, lil və iri dib gətirmələri axının eninə dövranı hərəkəti nəticəsində kameranın çökük divarından qabarıq divara tərəf istiqamətlənib hərəkət edir və asanlıqla qabarıq divarın daxilində yerləşmiş yuyucu borucuqlara yaxınlaşır və orada axının vintvarı hərəkəti nəticəsində axının sürəti artır, intensivləşir və dib gətirmələrini kənarlaşdıran en kəsiyi dairəvi yerinə yetirilmiş aparıcı boru kəmərinə keçir və orada vintvari hərəkət nəticəsində asanlıqla aşağı byefə ötürülür (Əbilov, 2019).

Əyrixətli durulducu başlanğıcında suqəbuledici metal barmaqlığı 1 olan dibi qabarıq divara tərəf maili kameranın 2 qabarıq divarının aşağısında dairəvi en kəsikli yuyucu borucuqları 3, qabarıq divarın daxilində dib gətirmələrini kənarlaşdıran en kəsiyi dairəvi yerinə yetirilmiş aparıcı boru kəməri 4 ilə birləşmişdir. Durulducunun çökük divarında suqəbuledici bağlayıcı 5; durulducunun sonunda yuyucu bağlayıcılar 6; qoyulmuşdur. Qabarıq divarın daxilində yuyucu borucuqların 3 işini tənzimləmək üçün bağlayıcılar 7 nəzərdə tutulmuşdur. **Şəkil 2.**

Əyrixətli durulducu aşağıdakı kimi işləyir.

Çay axını suqəbuledici metal barmaqlıqdan 1 keçərək planda əyrixətli dibi qabarıq divara tərəfə maili kameraya 2 daxil olur. Bu zaman axının eninə dövranı yaranır. Axının gətirdiyi dib gətirmələrinin cərəyan xətləri kameranın çökük tərəfindən qabarıq divara tərəf istiqamətlənib hərəkət edilir.

Dib gətirmələri qabarıq divarın daxilində yerləşdirilmiş dairəvi en kəsikli yuyucu borucuqların 3 qarşısına yığılır və oradan fasiləsiz olaraq qabarıq divarın daxilində yerləşdirilmiş dib gətirmələrini kənarlaşdıran dairəvi en kəsikli aparıcı boru kəmərinə 4-ə daxil olur. Dib gətirmələrini kənarlaşdıran dairəvi en kəsikli aparıcı boru kəməri 4 axının burada vintvari hərəkəti nəticəsində lil axını çox sürətlə aparıcı boru kəmərinin 4 daxilində hərəkət edir və aşağı byefə yuyulur. Dib gətirmələrindən təmizlənmiş su axının üst hissəsi çökük divarda nəzərdə tutulmuş suqəbuledici bağlayıcıdan 5 keçərək tələbatçıya derivasiya kanalı və boruya ötürülür. Əyrixətli durulducunun qabarıq divarının daxilində və onun aşağısında dairəvi en kəsikli yuyucu borucuqların 3 işini tənzimləmək üçün bağlayıcılar 7 nəzərdə tutulmuşdur.

Beləliklə, təklif etdiyimiz əyrixətli durulducu özünün prototipindən üstün cəhəti ondan ibarətdir ki, prototip əyrixətli durulducuda qabarıq divarının aşağı səviyyəsində yuyucu borucuqlar düzbucaqlı en kəsikli olduğundan ona yaxınlaşmış qum-çınqıl, lil və dib gətirmələri çox çətinliklə yuyucu borucuqlara keçir və yuyucu borucuqlar uzun olduğundan (qabarıq divardan kənarlara çıxır) orada axının lil aparma qabiliyyəti passiv olur, onların çökməsi intensivləşir, dib gətirmələrini aparıcı xəndəyə keçməsi gecikir, borucuqların tutulması ehtimalı daha çox olur.

Analoq qurğuda dib gətirmələrini kənarlaşdıran aparıcı xəndək əyrixətli durulducusundan kənarda açıq düzbucaqlı en kəsikli formasında yerinə yetirildiyindən axının hərəkəti passiv olur, qum-çınqıl, lil və dib gətirmələrinin çökməsi ehtimalıçox olur. Onları təmizləmək çox çətin olur. Qurğunun istismarı pisləşir, kanalı ot, kol və qamış basır, qurğu sıradan çıxır.

Ona görə də prototip, əyrixətli durulducunun işini yaxşılaşdırmaq üçün təklif etdiyimiz əyrixətli durulducunun qabarıq divarının daxilində və onun aşağısında yerinə yetirilmiş dairəvi en kəsikli, qısa yuyucu borucuqlarına axının eninə dövranı nəticəsində qum-çınqıl, lil və dib gətirmələrinin durulducu kamerasının çökük divarından qabarıq divara istiqamətlənib, yaxınlaşması intensiv olur, dairəvi en kəsikli yuyucu borucuqlu borucuqların 3 başlanğıcında qoyulmuş kiçik bağlayıcılarıda 7 növbə ilə açıb-bağlamaqla, durulducunun işini nizamlamaq olar.

**Sifonlu durulducu**

Sifonlu durulducu suvarma və derivasiya kanalları, eləcə də boru kəmərlərinə xırda hissəciklərin d=0,01-0,05 mm lillərin keçməsinin qarşısını almaqla, onları çökdürüb və sifon

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2023 / Cild: 17 Sayı: 5 / 212-219 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 2.255. 2023 / Volume: 17 Issue 5 / 212-219 e-ISSN: 2708-986X

vasitəsilə sovurub kənara atmaqla, hidrotexniki qurğuların dayanıqlığını, möhkəmliyini və onun iş səmərəliliyini artırılmasından ibarətdir (Abilov, 2011; Salakhov, 1971; Kolesnikov, 1940).

Sifonlu durulducu trapesiya en kəsikli dəmir beton üzlüklü kameranın 1 oxuna paralel və onun bermaları üzərində qoyulmuş relsdən 2, metal fermadan 3, dartıcı mexanizmdən 4, sifonlu boru 5, trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasının 1 yamacları üzərində qurqşdırılmış sifonlu boruya 5 və metal fermaya 3 bərkidilmiş qaşıyıcı bıçaqla 6, sifonlu borunun 5 ucuna bərkidilmiş sifon 7, trapesiya en kəsikli dəmir beton üzlüklü kameranın 1 oxuna paralel və kameradan 1 kənarda qoyulmuş yarımsilindrik en kəsikli dəmir beton nov 8, kameranın yamacından fərqli olaraq onun dibi kəsik konus şəkilli dəmir beton üzlüklü xəndək 9 şəklində yerinə yetirilmişdir. **Şəkil 3.**




***Şəkil 3. Sifonlu durulducu: trapesiya en kəsikli dəmir beton üzlüklü kameranın − 1; oxuna paralel və onun bermaları üzərində qoyulmuş relsdən − 2; metal fermadan − 3; dartıcı mexanizmdən – 4; sifonlu boru − 5; durulducu kamerasının yamacları üzərində qurqşdırılmış sifonlu boruya və metal fermaya bərkidilmiş qaşıyıcı bıçaqla − 6; sifonlu borunun ucuna bərkidilmiş sifon − 7; trapesiya en kəsikli dəmir beton üzlüklü kameranın oxuna paralel və kameradan kənarda qoyulmuş yarımsilindrik en kəsikli dəmir beton nov − 8; dibi kəsik konus şəkilli dəmir beton üzlüklü xəndək − 9.***

Çay axını trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasna 1 daxil olur. Trapesiya en kəsikli dəmir beton üzlüklü kamerada 1 suyun sürəti çox kiçik və 0,1-0,15 m/s olduğundan xırda hissəciklər d=0,01-0,05 mm və lillər trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasının 1 yamaclarına çökür. Sifonlu durulducu aşağıdakı kimi işləyir (Əbilov).

Trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasının 1 oxuna paralel çəkilmiş relslər 2 üzərində dartıcı mexanizm 4 vasitəsi ilə hərəkət edən metal fermaya 3 bərkidilmiş qaşıyıcı bıçaq 6 vasitəsi ilə qaşınır və sıyrılır trapesiya en kəsikli dəmir beton üzlüklü kameranın 1 aşağısında yamacları kameranın 1 yamaclarından fərqli olaraq dibi aşağı salınmış kəsik konusa oxşar dəmir beton üzlüklü xəndəyə 9 tökülür.

Trapesiya en kəsikli dəmir beton üzlüklü kameranın 1 dibi aşağı salınmış kəsik konusa oxşar dəmir beton üzlüklü xəndəyə 9 tökülmüş xırda hissəciklər və lillər su ilə sovrularaq sifonlu boru 5 vasitəsi ilə trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasının 1 oxuna paralel və kameranın 1 kənarında qoyulmuş yarımsilindrik en kəsikli hidroqarışığı ötürən dəmir beton nova 8 tökülür. Trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasının 1 oxuna paralel və kameradan 1 kənarda qoyulmuş yarımsilindrik en kəsikli hidroqarışığı ötürən dəmir beton novda 8 axının vintvari hərəkəti yaranır və onun sayəsində lil maxınını sürəti böyüyür, xırda hissəciklərin d=0,01-0,05 mm və lillərin çökməsinə imkan vermir tez bir zamanda yarımsilindrik en kəsikli hidroqarışığı ötürən dəmir beton nov 8 vasitəsi ilə aşağı byefə yuyulub gedir.

Trapesiya en kəsikli dəmir beton üzlüklü durulducu kamerasının 1 xırda hissəciklərin d=0,01-0,05 mm və lillərin təmizlənməsi fasiləsiz baş verir. Sifonlu borunun 5 ucuna bərkidilmiş sifon 7 kameranın yamacından fərqli olaraq kəsik konus şəkilli dəmir beton üzlüklü xəndəkdə 9 daha dəqiq hərəkət edərək xırda hissəcikləri və lləri sovuraraq sifonlu boru 5 vasitəsi ilə qalxır və oradan kameranın 1 oxuna paralel qoyulmuş en kəsiyi yarımsilindrik olan dəmir beton hidroqarışığı ötürən nova 8 tökülür.

**Suqəbuledici qurğular üçün balıq mühafizə qurğusu**

Təklif olunmuş suqəbuledici qurğular üçün balıq mühafizə qurğusu, yuxarı byefdə 1 çay məcrasının eninə istiqamətində yerləşdirilmiş suqəbuledici qurğunun 2 yarığının 3 qarşısında yaradılmış dayaq divara 4 və suqəbuledici qurğunun 2 yan divarlarına 5 eləcə də bir-birilə V formasında oynaq birləşmə 6 ilə birləşmiş üzgəc polietilen pantonların 7 altına, üzərinə kətan və ya geotekstil tor 8 yapışdırılmış, çürüməyən, paslanmayan metal çərçivə 9 bərkidilmişdir. ***Şəkil 4.***

Suqəbuledici qurğular üçün balıq mühafizə qurğusu aşağıdakı kimi işləyir: Hidroloji şəraiti mürəkkəb olan dağ və dağətəyi çay zonalarında, irriqasiya və hidroenergetika məqsədi ilə layihələndirib tikilən suqəbuledici qurğularda çox vaxtı körpə və iri balıqlar suyun axarı ilə suqəbuledici qurğuya və eləcədə aşağı byefə 10 keçmək istəyirlər.

Ona görə də dağ və dağətəyi çay zonalarının hidroloji şəraiti çətin olan yerlərində yaradılmış suqəbuledici qurğuların qarşısında xırda və nisbətən iri balıqların sürüsünün hərəkəti müşahidə olunur. Ona görə də çaydan suvarma və hidroenergetika məqsədi ilə sugötürən zaman, iri və xırda balıq sürüləri qaldırılmış bağlayıcıların altından və aralıqdan keçərək suvarma kanalına, derivasiya borusuna və oradan irriqasiya və hidroenergetika sistemlərinə keçirlər. Bu isə yolverilməzdir (Kolesnikov, 1940; Chistyakov, Shkura). Bizim təklif etdiyimiz suqəbuledici qurğular üçün balıq mühafizə qurğusu suqəbuledici qurğunun 2 yarığının 3 qarşısında çay məcrasında 1dayaq divar 4 tikilir. Bu dayaq divar 4 konstruktiv olaraq möhkəm tikilir və çay axının təsirlərinə davamlıdır. Xırda və nisbətən iri balıqların suqəbuledici qurğuya 2 düşməməsi üşün suqəbuledici qurğunun 2 yarığının 3 qarşısında tikilmiş dayaq divara 4 və suqəbuledici qurğunun 2 yan divarlarına 5 V formasında oynaq birləşməsi 6 ilə bərkidilmiş üzgəc polietilen panton 7 altına, üzərinə kətan və ya geotekstil tora 8 yaxınlaşır, çıxmağa səy göstərirlər. Bu zaman kətan və ya geotekstil tor 8, paslanmayan, çürüməyən metal çərçivəyə 9 yapışdırıldığından hərəkət etsələrdə, əvvəlki vəziyyətlərinə qayıdırlar və balıqların keçməsinə imkan yaratmırlar.

Prototipindən fərqli olaraq, işlənb hazırladığımız suqəbuledici qurğular üçün balıq mühafizə qurğusu sadədir, sökülüb-yığılması asandır. Qurğuya sərf olunan material sərfi azdır, eləcə də plastik və polietilen materialdan istifadə etməyə imkan verir. Digər halda isə çay məcrasında1 tikilmiş dayaq divara 4 suqəbuledici qurğunun 2 yan divarına 5 oynaq birləşmə 6 ilə bərkidilmiş üzgəc polietilen pantonlar 7 suya batmır həmişə suyun üzərində üzür hərəkət edirlər. Su üzərində üzən plastik qablar, yarpaq və sair cisimləri suqəbuledici qurğuya yaxınlaşmağa qoymur, itələyir və özü-özlüyndə suyu təmizləməyə imkan yaradır. Digər tərəfdən üzgəc polietilen pantonlar 7 altına, üzərinə kətan və ya geotekstil tor 8 yapışdırılmış paslanmayan, çürüməyən materialdan hazırlanmış çərçivələr 9 yuxarı byefdə 1 çayın məcrasının dibinə çatmamış müəyyən hündürlükdə qoyulur, o da imkan verir ki, çərçivə 9 yuxarı byefdə 1 çay məcrasının dibindəki palçığa batmır və rahat suda hərəkət edirlər. Həm də çərçivənin 9 uzun ömürlülüyünə imkan yaradır, onun dəyişdirilməsi asan olur və s.

Beləliklə, təklif etdiyimiz suqəbuledici qurğuların balıq mühafizə qurğusunun bu şəkildə konstruksiya olunması, körpə balıqların və eləcə də başqa növ ölçülü balıqların suqəbuledici qurğulara və oradan suvarma və ya hidroenergetika sistemlərinə keçməsinin qarşısını almaqla qurğunun asan idarə olunmasına, material sərfinə qənaət etməklə yanaşı, onun möhkəmlyini və uzunömürlülüyünü təmin etməyə imkan yaradır (Əbilov, 2020; Chistyakov, Shkura).




*Şəkil 4. Suqəbuledici qurğular üçün balıq mühafizə qurğusunun plan və kəsikləri: yuxarı byef − 1; suqəbuledici qurğu − 2; yarıq − 3; dayaq divar − 4; yan divarlar − 5; oynaq birləşmə − 6; polietilin üzgəc panton − 7; altına kətan və ya geotekstil tor − 8; çürüməyən və paslanmayan metal çərçivə − 9; aşağı byef – 10.*

## Nəticə

İşğaldan azad edilmiş ərazilərin çaylarında, hidroloji müşahidə məntəqələrinin məlumatlarına əsasən, orta illik su sərfinin, çay axının lilliyinin öyrənilməsi və təhlili, orta çoxillik çöküntülərin miqdarı və ölçüsü dəqiqləşdirilmişdir. Məqalədə, dağlıq və dağətəyi ərazilər üçün suqəbuledici qurğuların yanında durulducuların və balıq mühafizə qurğularının yeni konstruksiyasının təkmilləşdirilməsi də nəzərdən keçirilir. Çoxsaylı tədqiqatlar nəticəsində kiçik su elektrik stansiyaları üçün durulducuların və balıq mühafizə qurğularının sxemi təkmilləşdirilmişdir. Plan və kəsiklərdən ibarət cizgiləri hazırlanmışdır. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə nişanlarının Ekspertizası Mərkəzi tərəfindən faydalı modelə patent alınmışdır.

## Ədəbiyyat

1. Əbilov, R.S. (2018). Suqəbuledici qurğu. Azərbaycan Aqrar Elmi jurnalı № 2, s.85-88.
2. İsmayılov, R.A. Qarabağ çaylarının su ehtiyatları. Su problemləri. Elm və texnologiyalar №1, s.20-37.
3. Əbilov, R.S. (2019). Əyrixətli durulducu, sənaye mülkiyyəti, ixtiralar və faydalı modellər bülleteni, № 7 u 20170014, E02B9/04 Dərc olunma 30.09.2019.
4. Əbilov, R.S. (2018). Durulducu. Faydalı model. Patent U20170006. Bül. № 8.
5. Abilov, R.S. (2011). «Razrabotka oblegchennoy konstruktsii gornogo vodozabora i rezul'taty yego eksperimental'nykh issledovaniy. Vodnoye resursy i vodopol'zovaniye. Astana.: 7(90), s.39-41.
6. Salakhov, F.S. (1971). Raschet i proyektirovaniye promyvnoy galerei s vintovym dvizheniyem potoka. Trudy Azerbaydzhanskogo Nauchno-Issledovatel'skogo Instituta Gidrotekhniki i Melioratsii, Baku, s.216-242.
7. Əbilov, R.S. (2019). Durulducu, sənaye mülkiyyəti, ixtiralar və faydalı modellər bülleteni, № 9 u 20170027, E02B9/04 Dərc olunma 30.10.2019.

8. Əbilov, R.S. Sifonlu durulducu, sənaye mülkiyyəti, ixtiralar və faydalı modellər bülleteni, № 7 u 201700.
9. Kolesnikov, I.T. (1940). Promyvnyye galerei s vintoobraznym dvizheniyem vody. Zhurnal Gidrotekhnicheskiye stroitel'stvo, № 7. M., s.42.
10. Chistyakov, A.A., Shkura, V.N. Patent №2048643. Rybozashchitnoye ustroystvo vodozabornogo sooruzheniya Ye02 V9/04; Ye02V8/08.
11. Chistyakov, A.A., Shkura, V.N. Rybozashchitnoye ustroystvo. Patent №2026463.
12. Əbilov, R.S. (2020). Suqəbuledici qurğular üçün balıq mühafizə qurğusu. Faydalı model. Patent U20180016.31.05.2020 . Bül. № 3-5.

Göndərildi: 15.12.2022 Qəbul edildi: 19.04.2023

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Sevinj Rzayeva**
Opinions of literary critics about the early work of Thomas Mann ................................................8
**Eldar Cəfərov**
**Xanış Səfərli**
Müasir beynəlxalq münasibətlərdə yumşaq güc anlayışı, onun yaranma səbəbləri və mahiyyəti ........................................................................................................................13
**Sevda Novruzəliyeva**
Kommunikativ prosesdə dinləmənin pozitivliyi ...........................................................................18
**Telli İbrahimova**
**İradə Zamanova**
Azərbaycanda ümumtəhsil məktəblərində distant təhsilin idarəolunması sahəsində problemlərin araşdırılması ..........................................................................................................24
**İlahə Şixəliyeva**
Ümummilli lider Heydər Əliyevin təhsil strategiyası
Tədrisdə distant təhsil ......................................................................................................................30
**Ghada Wattad**
**David Chen**
Cognitive development - call for a general intelligence tool kit or a domain specificity dependent ........................................................................................................................37
**Eldar Cəfərov**
**Tural Nağıyev**
Qlobal mədəniyyət milli mədəniyyətlərə təhdid kimi .....................................................................43
**Sevinc Əhmədova**
Dildə metaforikləşmiş ifadə vasitələri ("Ailə" konsepti əsasında) ...................................................49
**Aygün Hüseynova**
Təhsildə sosial media və rəqəmsal vasitələrdən istifadə .................................................................55
**Telli İbrahimova**
**İradə Zamanova**
Azərbaycan orta məktəblərində distant təhsilin idarəolunmasında dəyişən perspektivlər ................61
**Sevda Novruzəliyeva**
**Nüşabə Əliyeva**
Kommunikativ prosesdə pozitiv söz ................................................................................................67
**Arəstə Xudiyeva**
Anqlo-saksonlarda və Azərbaycan türklərində adverma və antroponimlərin tipologiyası (epik mətnlər əsasında) ......................................................................................................................73
**Nərgiz Rzayeva**
Müasir dövr Azərbaycan heykəltəraşlığında milli ənənələr ............................................................81
**Tamerlan Hacıyev**
Ümummilli lider Heydər Əliyev Azərbaycanda məhkəmə-hüquq islahatlarının banisidir ..............87
**Rauf Abiyev**
Main trends in risk management in public administration ..............................................................96
**Khanim Rahimova**
Decolonization and new international economic order .................................................................102
**Rəşad Məmmədli**
Emallanmış metal qabların qəbulu, nəzarəti və keyfiyyətinin qiymətləndirilməsi .........................107

**Ülviyyə İsrafilova**
Pantomima tamaşalarında rəqsin önəmi ....................................................................................116
**Aydan Kocharli**
Procedural aspects of public order and human rights in the
field of environmental safety in the European Union ....................................................................122
**Aziza Abdullayeva**
Competition law in the European Union ............................................................................................127
**Aydan Naghiyeva**
Intergovernmental organizations .......................................................................................................133
**Arzu Quliyeva**
Dramatik teatrda musiqinin rolu və vəzifələri .................................................................................139
**Elena Osmanova**
Turizm marketinqinin problemləri .......................................................................................................145
**Günel Aslanova**
Xalçaçı-rəssam Hacı Eldar Mikayılzadə yaradıcılığında "Şəki xalça qrupu"nun təhlili ................150
**Maryam Khanbabazade**
"The one belt one road" project and the South Caucasus region ...................................................155
**Javad Ahmadov**
Strategic interests of European Union in South Caucasus and new geopolitical order
with the aftermath of the Karabakh war ............................................................................................161
**Mahammad Safarli**
Cryptocurrency as collateral: under us law .......................................................................................168
**Əntiqə Şükürova**
Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin terror
təşkilatlarını maliyyələşdirməsində rolu ............................................................................................173
**Murad Əhmədov**
Cəmiyyət və dövlət arasında kommunikasiyaların qurulmasında kütləvi informasiya
vasitələrinin rolu ...................................................................................................................................178
**Jeyhun Ahmadov**
Geological, technological parameters and methods in the exploitation of oil and gas fields .........184
**Nigar Aslanli**
The war in Ukraine and its implications for the Eurasian economic union ...................................190
**İlahə Allahverdiyeva**
COVID-19 qlobal səviyyədə jurnalistlərin rolunu necə ortaya qoydu ............................................197

## DƏQİQ ELMLƏR

## EXACT SCIENCES

**Qurban Qasımov**
**Məryam Ədilxanova**
Pandemiya şəraitində ABŞ və Azərbaycan üçün İto və ESM modelləri üzrə inflyasiyanın
müqayisəli şəkildə araşdırılması .........................................................................................................202

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Rəşad Əbilov**
İşğaldan azad edilmiş ərazilərdə çayların axınlarından hidroenergetika məqsədi ilə
mənimsənilməsi üçün yeni duruldücuların işlənməsi ......................................................................212

İmzalandı: 17.05.2023
Kağız formatı: 60x84 1/8
H/n həcmi: 27,75 ç.v.
Sifariş: 642

---

“ZƏNGƏZURDA” çap evində çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru